ISSN 0206-4340

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİSİ



BAKI 2012

№ 02

Scanned with ACE Scanner

E L M İ – M E T O D İ K   J U R N A L

Təsisçi: Azərbaycan Respublikası Təhsil Nazirliyi

№ 2 (232). Aprel – İyun 2012-ci il. Jurnal 1954-cü ildən çıxır.

# MÜNDƏRİCAT


## SƏRƏNCAMLAR

Xurşidbanu Natəvanın 180 illik yubileyinin keçirilməsi haqqında ........ 2
Məmməd Səid Ordubadinin 140 illik yubileyi haqqında ........ 3
Mirvarid Dilbazinin 100 illik yubileyinin keçirilməsi haqqında ........ 4
Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında ........ 5
Həsən bəy Zərdabinin 170 illik yubileyinin keçirilməsi haqqında ........ 9
Xəlil Rza Ulutürkün 80 illik yubileyinin keçirilməsi haqqında ........ 10

## RƏSMİ ŞÖBƏ

Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə məzmun standartları ........ 11

## XRONİKA

Təhsil Nazirliyində ........ 18

## ƏDƏBİYYATŞÜNASLIQ VƏ DİLÇİLİK

**T.Salamoğlu** – Əhməd Cavad poeziyası sovet rejiminin ilk illərində ........ 20
**S.Mərdanova** – Məmməd Arazın poemalarında lirik ricətlər ........ 35

## ÜMUMTƏHSİL, ORTA İXTİSAS VƏ ALİ MƏKTƏBLƏR: TƏDRİS METODİKASI, İŞ TƏCRÜBƏSİ

**Ş.Mikayılov, A.Bəkirova** – Azərbaycan ədəbiyyatında müdrik qoca surətləri ........ 40
**R.Qasımov** – C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri tədris edilərkən ........ 45
**Ə.Bədəlova** – Sinifdənxaric məqsədyönlü iş forması: müzakirə ........ 49
**B.Muradov** – M.F.Axundzadənin "Hacı Qara" əsərinin tədrisi ........ 53
**O.Abbasov** – Azərbaycan dili və ədəbiyyat dərslərində təlimin tərbiyələndirici prinsipindən istifadə ........ 58
**E.Xəlilova** – Ədəbiyyat dərslərində fəal/interaktiv metodların tətbiqi ........ 62

## MÜASİRLƏRİMİZ

**Ə.Abbasov** – Professor Əziz Əfəndizadə məktəbinin yetirməsi ........ 68

## SƏLƏFLƏRİMİZ

**O.Zakiroğlu** – Sürgündə bitən müəllim ömrü ........ 72

## POLEMİKA

**M.Bəharlı** – Niyə"Sarı gəlin" deyirik? ........ 74

## XƏBƏR – SERVİS

Ədəbi aləmdə ........ 75
Xarici ölkələrdə ........ 76
Yeni nəşrlər ........ 77

## ƏDƏBİ MÜHİT

V.Qaraxan – Poeziya ........ 78

## REPLİKA

Elm halallıq sevir ........ 79


***

Xəbərləri hazırladı ***Lalə Əhmədova.***

Scanned with ACE Scanner

# XURŞİDBANU NATƏVANIN 180 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin avqust ayında Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Xurşidbanu Natəvanın anadan olmasının 180 ili tamam olur.

Xurşidbanu Natəvanın parlaq bədii istedada malik söz sənətkarı kimi ədəbiyyatımız tarixində özünəməxsus layiqli yeri vardır. Klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində Natəvan dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərərək xalqımızın mədəni irsinin zənginləşməsinə töhfələr vermiş, dolğun ictimai fəaliyyəti ilə tanınmışdır.

Azərbaycan ədəbiyyatının inkişafında xüsusi rol oynamış Xurşidbanu Natəvanın 180 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xurşidbanu Natəvanın 180 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 3 aprel 2012-ci il.*

# MƏMMƏD SƏİD ORDUBADİNİN 140 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-cu ildə görkəmli Azərbaycan yazıçısı, şair, dramaturq, publisist və ictimai xadim Məmməd Səid Ordubadinin anadan olmasının 140 ili tamam olur.

Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisidir. Çoxsaylı ədəbi fəaliyyət göstərən və bir çox məşhur operaların librettosunun müəllifi olan sənətkar həmçinin dövrün mühüm ictimai-siyasi hadisələrini zəngin faktlar, sənədlər əsasında dolğun əks etdirən əsərləri ilə tanınır.

Azərbaycan ədəbiyyatının inkişafında təqdirəlayiq xidmətlər göstərmiş Məmməd Səid Ordubadinin 140 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla Məmməd Səid Ordubadinin 140 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 10 aprel 2012-ci il.*



Scanned with ACE Scanner

# MİRVARİD DİLBAZİNİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

2012-ci ilin avqust ayında müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, xalq şairi Mirvarid Paşa qızı Dilbazinin anadan olmasının 100 ili tamam olur.

Mirvarid Dilbazi ədəbiyyatımızı yeni-yeni obrazlarla zənginləşdirən sənətkardır. Onun yaradıcılığının başlıca mövzusunu xalqımızın zəngin tarixi keçmişi və yurdumuzun misilsiz gözəlliklərinin tərənnümü təşkil etmişdir. Şairin çoxsaylı lirik əsərləri vətəndaşlıq duyğularının yüksək poetik ifadəsidir.

Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan Mirvarid Dilbazinin 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla Mirvarid Dilbazinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 16 may 2012-ci il.*



# AZƏRBAYCAN DİLİNİN QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ZAMANIN TƏLƏBLƏRİNƏ UYĞUN İSTİFADƏSİNƏ VƏ ÖLKƏDƏ DİLÇİLİYİN İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMI HAQQINDA

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan dili xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir. Bu dildə dünya ədəbiyyatı xəzinəsinə daxil olan misilsiz əsərlər yaradılmışdır. Hər bir azərbaycanlı tarixin ayrı-ayrı dövrlərində dilimizin dövlət dili kimi fəaliyyət göstərməsindən böyük qürur hissi keçirir. Ölkəmizin zaman-zaman müxtəlif imperiyalar tərkibində yaşamağa məcbur olmasına baxmayaraq, ana dilimiz hətta bu ağır vaxtlarda belə milli məfkurənin, milli şüurun və milli-mədəni dəyərlərin layiqincə yaşamasını və inkişafını təmin etmişdir. Bu gün onun qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur.

Ana dilimiz öz ifadə imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik strukturunun sabitliyi ilə səciyyələnir. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik, yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir. O, özünün indiki yüksək səviyyəsinə görkəmli şair və yazıçıların, maarifpərvər ziyalıların zəhməti sayəsində çatmışdır. Bu prosesdə Azərbaycan dilçilik elminin böyük xidməti vardır.

Azərbaycanda müasir mətbuatın, teatrın və təhsilin sisteminin təşəkkül tapması, xalqımızın ictimai-siyasi və mədəni həyatında baş verən dəyişikliklər Azərbaycan dilçiliyinin də inkişaf yolunu müəyyən etmişdir. Ana dili ilə bağlı yeni-yeni dərsliklər, lüğətlər və sanballı elmi tədqiqatlar meydana çıxmışdır. Bu sahədə görkəmli ziyalılarımız Mirzə Kazım bəy, Mirzə Fətəli Axundzadə, Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə, Məhəmməd ağa Şahtaxtlı, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli və başqalarının mühüm xidmətləri vardır.

Ana dilimizin tədqiqi xüsusilə ötən əsrin ilk onilliklərindən başlayaraq bilavasitə diqqət mərkəzində olmuşdur. Həmin dövrdə Üzeyir Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev, Bəkir Çobanzadə, Cavad Axundzadə, Xalid Səid Xocayev və digərlərinin dilimizin qrammatikasına dair bir çox tədqiqatları işıq üzü görmüşdür. 1926-cı ildə Birinci Türkoloji Qurultayın



Scanned with ACE Scanner

Bakıda keçirilməsi ölkəmizdə dilçilik sahəsində əldə olunan nailiyyətlərin məntiqi davamı kimi yeni-yeni tədqiqatların meydana çıxmasına təkan vermişdir.

1920-ci illərdə respublikada aparılan dilçilik tədqiqatları Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətində və Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda mərkəzləşmişdi. Sonralar SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsinin və SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının Dil və Ədəbiyyat İnstitutunun yaradılması ilə həmin tədqiqatlar daha sistemli və əhatəli aparılmağa başladı. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası təşkil olunduqdan sonra Azərbaycan dilçiliyi yeni mərhələyə qədəm qoydu. 1969-cu ildə müstəqil Dilçilik İnstitutunun fəaliyyətə başlaması ilə dilşünaslıq elmimizin sürətli inkişaf yolu tutaraq ardıcıl şəkildə müvəffəqiyyətlər qazanması üçün möhkəm zəmin yarandı. Azərbaycan dilçiliyi – Məmmədağa Şirəliyev, Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Əliheydər Orucov, Səlim Cəfərov, Əlövsət Abdullayev, Fərhad Zeynalov və digər alimlərimizin yüksək elmi səviyyəli tədqiqatları yalnız dilşünaslığımızı yox, ümumən Azərbaycan ictimai fikrini zənginləşdirdi.

Xalqımızın böyük oğlu Heydər Əliyev respublikamıza rəhbərlik etməyə başladığı ilk vaxtlardan Azərbaycan ədəbi dilinə ayrıca diqqət yetirmiş, ana dilimizin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdu. Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dövlət quruculuğu strategiyasının tərkib hissəsi olan dil siyasətinin nəticəsidir ki, 1970-ci illərdə Azərbaycan dilinin tarixi intensiv şəkildə öyrənilmiş, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılmışdır. Ali məktəblər üçün yazılmış dörd cildlik "Müasir Azərbaycan dili" dərsliyi 1974-cü ildə məhz ulu öndərin təşəbbüsü ilə milli dilçilik elminin inkişafına töhfə kimi qiymətləndirilərək respublikanın Dövlət mükafatına layiq görülmüşdür. Azərbaycan dilinə və ümumiyyətlə Azərbaycan dilçilərinin əməyinə verilən qiymət və onlara göstərilən qayğı Azərbaycanın keçmiş sovet məkanında, eyni zamanda beynəlxalq elm aləmində türkologiyanın mərkəzlərindən biri kimi tanınmasına gətirib çıxarmışdır. SSRİ Elmlər Akademiyasının bu istiqamətdə yeganə "Türkologiya" jurnalı məhz Bakıda nəşr edilirdi.

Azərbaycan Respublikası öz müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili xalqımızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında dövlətin rəsmi dili kimi müstəsna əhəmiyyət kəsb etməyə başlamışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2 yanvar 2003-cü il tarixli fərmanları ilə ədəbi dilimizin fəaliyyət meydanı daha da genişləndirilmiş, onun müxtəlif üslublarının potensialı bir daha üzə çıxarılmış, bütünlükdə dil mədəniyyətimiz qarşısında yeni üfüqlər açılmışdır.

Bununla yanaşı, son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqəti



çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir.

Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu çox zaman nəzərdən qaçıran bəzi mətbuat orqanlarında, radio və televiziya kanallarında ədəbi dil normalarının pozulması adi hal almışdır. Dublyaj edilən filmlərin, xarici dillərdən çevrilən elmi, bədii və publisistik əsərlərin tərcüməsi bir qayda olaraq yüksək estetik tələblərə cavab vermir, onlar sönük və yarıtmazdır, dilimizin hüdudsuz ifadə imkanları ilə müqayisə edilməyəcək qədər aşağı səviyyədədir. Küçə və meydanlardakı reklamlarda, afişalarda Azərbaycan dilinin ən adi leksik və qrammatik qaydalarının pozulması təkcə dil mədəniyyətinin deyil, ümumi mədəni səviyyənin də arzuedilməz göstəricisinə çevrilmişdir.

Bəzən dilimizin tarixinə aid səslənən səhv fikirlərə vaxtlı-vaxtında cavab verilmir və bu dilin keçdiyi inkişaf mərhələlərini etibarlı tarixi mənbələr əsasında dolğun əks etdirən fundamental əsərlər yaranmır. Elmi tədqiqatlar üçün bəzi hallarda müasir dünya dilçiliyinin nəzəri səviyyəsindən xeyli geri qalan, heç bir ciddi praktik əhəmiyyət daşımayan bəsit mövzular seçilir.

Azərbaycan dilində internet resurslarının qıtlığı, elektron və interaktiv dərsliklərin yoxluğu, Azərbaycan dilini öyrənən əcnəbi dilli insanlar üçün tədris vəsaitlərinin bir çox hallarda müasir tələblərə cavab verməməsi narahatlıq doğurur. Sovet dövründə Azərbaycan dilçilərinin dünya elmində gedən proseslərdən təcrid olunması ilə ölkəmizdə dilçilik sahəsindəki nəzərəçarpan boşluq hələ də aradan qaldırılmamışdır.

Dilçilik elmimiz təkcə Azərbaycan dili ilə bağlı deyil, həmçinin onun digər türk dilləri ilə münasibətlərini öyrənmək istiqamətində ciddi addımlar atmalı, müasir dillərin nəzəri cəhətdən araşdırılmasına, eyni zamanda qədim dünya dilləri və mədəniyyətlərinin tədqiqinə yönələn yeni layihələr işləyib hazırlamalıdır.

Dövlətçiliyimizin başlıca rəmzlərindən olan ana dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, ölkəmizdə dilçilik elmi sahəsində vəziyyətin əsaslı surətdə yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının layihəsini hazırlayıb 2012-ci il oktyabr ayının 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.



Scanned with ACE Scanner

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan Dövlət Proqramının layihəsini 2012-ci il noyabr ayının 1-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan dilində termin yaradıcılığı sahəsində işlərin tənzimlənməsi və koordinasiya edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası yaradılsın.

4. Azərbaycanda müxtəlif sahələrdə tərcümə işinin mərkəzləşdirilmiş qaydada və məqsədyönlü aparılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi yaradılsın.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 23 may 2012-ci il.*



# HƏSƏN BƏY ZƏRDABİNİN 170 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ildə Azərbaycan milli mətbuatının banisi, görkəmli ictimai xadim, böyük maarifpərvər, tanınmış publisist, pedaqoq və təbiətşünas alim Həsən bəy Səlim bəy oğlu Zərdabinin (Məlikovun) 170 illiyi tamam olur.

Azərbaycanda sosial-mədəni həyatın on doqquzuncu əsrin ikinci yarısından etibarən sürətli canlanmasında və ictimai fikrin maarifçi-demokratik ideyalarla zənginləşməsində Həsən bəy Zərdabinin müstəsna xidmətləri vardır. Zərdabi yaradıcısı, təşkilatçısı və redaktoru olduğu "Əkinçi" qəzetini doğma ana dilində nəşr etdirməklə milli mətbuatın bünövrəsini qoymuş, dövrünün ziyalılarını bu qəzet ətrafında birləşdirərək taleyüklü mühüm vəzifələrin uğurla həyata keçirilməsində misilsiz rol oynamışdır.

Xalqımızın mədəni-ictimai fikir tarixinə dəyərli töhfələr vermiş Həsən bəy Zərdabinin 170 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Həsən bəy Zərdabinin 170 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 4 iyun 2012-ci il.*



Scanned with ACE Scanner

# XƏLİL RZA ULUTÜRKÜN 80 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin oktyabr ayında XX əsr Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, xalq şairi, filologiya elmləri doktoru, professor Xəlil Rza Ulutürkün (Xəlil Rza oğlu Xəlilovun) anadan olmasının 80 ili tamam olur.

Xəlil Rza Ulutürkün vətənpərvərlik duyğuları ilə zəngin ictimai-siyasi mövzulu yaradıcılığı xalqımızın bədii-poetik fikir salnaməsinin parlaq səhifələrini təşkil edir. Şair dünya ədəbiyyatı xəzinəsinin bir çox incilərini dilimizə uğurla çevirmişdir.

Müasir Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş Xəlil Rza Ulutürkün 80 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xəlil Rza Ulutürkün 80 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 4 iyun 2012-ci il.*





# AZƏRBAYCAN DİLİ (DÖVLƏT DİLİ KİMİ) FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

## Ümumi təlim nəticələri

***Azərbaycan Respublikası təhsil nazirinin 6 iyun 2011-ci il tarixli əmri ilə təsdiq olunmuşdur.***

**Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:**

- dinlədiyi mətnin məzmununu izah edir, ona münasibət bildirir;
- şüurlu və ifadəli oxu bacarıqları nümayiş etdirir;
- müxtəlif formalı rabitəli mətnlər qurur və təqdim edir;
- öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə edir.
- nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif mənbələrdən istifadə edir, tərcümə bacarıqları nümayiş etdirir;

**Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:**

- dinlədiyi fikirlərlə bağlı mühakimələrini əsaslandırır;
- Azərbaycan dilində aparılan tədbirlərdə çıxış və təqdimatlar edir;
- oxuduğu mətnlərin məzmunu və üslubu haqqında rəy və mülahizələrini bildirir;
- nitqin müxtəlif üslub və tiplərində mətnlər qurur;

sərbəst tərcümə bacarığı nümayiş etdirir.

### Məzmun standartları
### V sinif

**V sinfin sonunda şagird:**

- dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir;
- nitq prosesində danışıq səslərini düzgün tələffüz edir, jest və mimikalardan məqsədəuyğun istifadə edir;
- deyəcəyi əsas fikri müəyyənləşdirir və mülahizələrini bildirir;
- mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir, orfoepik qaydalara uyğun oxuyur;
- mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir;
- müxtəlif yazı formalarını (ifadə, inşa, hekayə) fərqləndirir;
- sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (elan, məktub) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Suallara cavab verir.

1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir.



Scanned with ACE Scanner

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Nitq prosesində sait və samitləri düzgün tələffüz edir.

2.1.2. Nitq prosesində jest və mimikalardan istifadə edir.

2.1.3. Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir.

2.1.4. Deyəcəyi əsas fikri müəyyənləşdirir.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir.

3.1.2. Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur.

3.1.3. Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir.

**4. Yazı**

**Şagird:**

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Müxtəlif yazı formalarını (ifadə, inşa, hekayə) fərqləndirir.

4.1.2. Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir.

4.1.3. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (elan, məktub) yazır.

## VI sinif

**VI sinfin sonunda şagird:**

- dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir;
- nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir, nitqində ritm və tempdən məqsədəuyğun istifadə edir;
- fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır və mətnin hissələrinə müvafiq qruplaşdırır;
- mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir;
- mətndəki sözləri düzgün vurğu ilə oxuyur;
- mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir;
- mövzuya uyğun yazı forması (inşa, esse, hekayə) seçir və mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir;
- əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir.

1.1.2. Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*



2.1.1. Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir.

2.1.2. Nitqində ritm və tempdən istifadə edir.

2.1.3. Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır.

2.1.4. Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir.

3.1.2. Mətndəki sözləri düzgün vurğu ilə oxuyur.

3.1.3. Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir.

**4. Yazı**

**Şagird:**

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Mövzuya uyğun yazı forması (inşa, esse, hekayə) seçir.

4.1.2. Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir.

4.1.3. Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.

## VII sinif

**VII sinfin sonunda şagird:**

- dinlədiyi mətnin hissələrini müəyyənləşdirir;
- ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir;
- nitqini uyğun səs tonu ilə tənzimləyir;
- müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir;
- mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir;
- mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir, səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur;
- nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır;
- nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir.

1.1.2. Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir.

2.1.2. Nitqini uyğun səs tonu ilə tənzimləyir.

2.1.3. Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir.

2.1.4. Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir.

**3. Oxu**



Scanned with ACE Scanner

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir.

3.1.2. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur.

3.1.3. Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir.

**4. Yazı**

**Şagird:**

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır.

4.1.2. Cümlələr və abzaslar arasında əlaqələri gözləməklə mətn yazır.

4.1.3. Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır.

## VIII sinif

**VIII sinfin sonunda şagird:**

- dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir;
- söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir, nitqində məntiqi vurğudan düzgün istifadə edir;
- müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir, mətnin hissələri arasında əlaqələri gözləməklə danışır;
- mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir;
- oxuduğu mətndəki əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir;
- seçdiyi nümunələrlə yazısını zənginləşdirir;
- həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (arayış, protokol) yazır.

### Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.

1.1.2. Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.

2.1.2. Nitqində məntiqi vurğudan düzgün istifadə edir.

2.1.3. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.

2.1.4. Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.



3.1.2. Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.

3.1.3. Mətndəki fikirlərə münasibət bildirir.

**4. Yazı**

***Şagird:***

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Topladığı fakt və məlumatlara münasibətini bildirir.

4.1.2. Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.

4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (arayış, protokol) yazır.

## IX sinif

**IX sinfin sonunda şagird:**

- dinlədiyi mətnin məzmununu şərh edir, fikirlərlə bağlı mühakimə yürüdür;
- mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir;
- nitq etiketlərindən məqamında istifadə edir;
- müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir, fikirlərini məntiqi ardıcıllıqla ifadə edir;
- mətndəki söz və ifadələrin kontekstə uyğun mənasını izah edir, məqsəd və intonasiyaya görə cümlələri düzgün oxuyur;
- mətndəki fikirlərə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır;
- mənbələrdən istifadə etməklə rabitəli mətnlər yazır, özünün və başqasının yazısını təkmilləşdirir;
- mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir;
- müxtəlif əməli yazılar (hesabat, akt) yazır.

### Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1 Dinlədiyi mətnin məzmununu şərh edir.

1.1.2. Dinlədiyi mətndəki fikirlərlə bağlı mühakimə yürüdür.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir.

2.1.2. Nitq etiketlərindən məqamında istifadə edir.

2.1.3. Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

2.1.4. Fikirlərini məntiqi ardıcıllıqla ifadə edir.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki söz və ifadələrin kontekstə uyğun mənasını izah edir.

3.1.2. Məqsəd və intonasiyaya görə cümlələri düzgün oxuyur.

3.1.3. Mətndəki fikirlərə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

**4. Yazı**

**Şagird:**



Scanned with ACE Scanner

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*
4.1.1. Mənbələrdən istifadə etməklə rabitəli mətnlər yazır.
4.1.2. Məntiqi ardıcıllığı gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir.
4.1.3. Mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.
4.1.4. Müxtəlif əməli yazılar (hesabat, akt) yazır.

## X sinif

**X sinfin sonunda şagird:**

- KİV-dən dinlədiyi mətnləri şərh edir, fikirləri real həyatla müqayisə edir;
- nitqində dil vahidlərindən, yardımçı vasitələrdən (atalar sözü, məsəllər və sitatlar) məqsədyönlü istifadə edir;
- fikirlərini müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlərlə ifadə edir;
- oxuduğu mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə, mətnləri üslubuna görə fərqləndirir;
- müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır və təkmilləşdirir;
- mətnin tərtibat formasına uyğun yazılış və durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (rəy, məruzə) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*
1.1.1. KİV-dən dinlədiyi mətnləri şərh edir.
1.1.2. Dinlədiyi mətndəki fikirləri real həyatla müqayisə edir.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*
2.1.1. Nitqində dil vahidlərindən məqsədyönlü istifadə edir.
2.1.2. Nitqini zənginləşdirmək məqsədilə atalar sözü, məsəllər və sitatlardan istifadə edir.
2.1.3. Müxtəlif mövqeli fikirləri real hadisələrlə müqayisə edir.
2.1.4. Fikirlərini müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlərlə ifadə edir.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*
3.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə fərqləndirir.
3.1.2. Oxuduğu mətnləri üslubuna görə fərqləndirir.
3.1.3. Oxuduğu mətnin tipini (nəqli, təsviri, mühakimə) müəyyənləşdirir.

**4. Yazı**

**Şagird:**

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*
4.1.1. Müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır.
4.1.2. Mətni tipinə (nəqli, təsviri, mühakimə) uyğun olaraq təkmilləşdirir.
4.1.3. Mətnin tərtibat formasına uyğun yazılış və durğu işarələri qaydalarına əməl edir.
4.1.4. Müxtəlif əməli yazılar (rəy, məruzə) yazır.



## XI sinif

**XI sinfin sonunda şagird:**

- dinlədiyi müxtəlif janr və üslubda olan mətnlərə münasibət bildirir, mühakimələrini əlavə fakt və nümunələrlə əsaslandırır;
- mənbələrə istinad etməklə əsaslandırılmış müxtəlif tipli mətnlər qurur, fikirlərini sərbəst ifadə edir;
- üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni oxuyur;
- mətni üslubi-struktur xüsusiyyətlərinə görə təhlil edir;
- müxtəlif üslublarda mətnlər yazır və təkmilləşdirir;
- üslubi çalarlarından asılı olaraq sözləri böyük və kiçik hərflərlə yazır, durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (referat, təqdimat) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*
1.1.1. Dinlədiyi müxtəlif janr və üslubda olan mətnlərə münasibət bildirir.
1.1.2. Dinlədiyi mətndəki fikirlərlə bağlı mühakimələrini əlavə fakt və nümunələrlə əsaslandırır.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*
2.1.1. Fikirlərini sərbəst ifadə edir.
2.1.2. Yardımçı vasitələrdən istifadə etməklə əsaslandırılmış nitq qurur.
2.1.3. Müxtəlif mənbələrə istinad etməklə əsaslandırılmış təqdimatlar hazırlayır.
2.1.4. Fikirlərini əsaslandırmaqla müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər qurur.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*
3.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə izah edir.
3.1.2. Üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni oxuyur.
3.1.3. Mətni üslubi-struktur xüsusiyyətlərinə görə təhlil edir.

**4. Yazı**

**Şagird:**

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*
4.1.1. Müxtəlif üslublu mətnlər yazır.
4.1.2. Üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni təkmilləşdirir.
4.1.3. Üslubi çalarlarından asılı olaraq sözləri böyük və kiçik hərflərlə yazır, durğu işarələri qaydalarına əməl edir.
4.1.4. Müxtəlif əməli yazılar (referat, təqdimat) yazır.



Scanned with ACE Scanner

# TƏHSİL NAZİRLİYİNDƏ

**Aprelin 4-də** Təhsil Nazirliyində məktəblilərin 6-7 aprel 2012-ci il tarixlərində Bakı şəhərində keçiriləcək ekologiya və təbiəti mühafizə problemlərinə həsr olunmuş ənənəvi Ətraf Mühitin Mühafizəsi VI Beynəlxalq Layihə Olimpiadasının (İNEPO-AVRASİYA) bir qrup iştirakçısı ilə görüş oldu. Görüşü giriş sözü ilə açan təhsil naziri Misir Mərdanov dünyanın müxtəlif ölkələrindən Azərbaycana gəlmiş iştirakçıları salamladı. Olimpiadanın ölkəmizin daha yaxından tanınmasında, müxtəlif ölkələrdən gələn şagirdlərin Azərbaycan haqqında yeni biliklər əldə etmələrində mühüm əhəmiyyəti olduğunu bildirib, onun təşkilində əməyi olanlara təşəkkür etdi. Görüşdə "Çağ" Öyrətim İşlətmələri Şirkət İdarə Heyətinin sədri Ənvər Özərən, Azərbaycan-Türkiyə Özəl Liseyləri Baş İdarəsinin rəisi Arif Gömleksiz də iştirak edirdilər.

***

**Aprelin 18-də** Təhsil Nazirliyində 2012-2013-cü tədris ilinə ümumtəhsil məktəblərinin I və V sinifləri üçün dərslik komplektlərinin hazırlanması və çapına dair tenderqabağı iclas keçirildi. İclasda Təhsil Nazirliyi Tender Komissiyasının, Dərslikləri Qiymətləndirmə Şurasının üzvləri, tenderə qatılan nəşriyyat-poliqrafiya müəssisələrinin rəhbərləri iştirak edirdilər.

Həmin gün təhsil naziri Misir Mərdanov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncı ilə görüşüb. Görüşdə türkdilli ölkələr arasında təhsil sahəsində əlaqələrin möhkəmlənməsi işinin daha səmərəli təşkili, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

***

**Aprelin 25-də** Təhsil Nazirliyində respublikanın ümumi təhsil məktəblərinin şagirdləri arasında "Böyük Azərbaycan şairi Mirzə Ələkbər Sabir haqqında düşüncələrim" mövzusunda keçirilmiş inşa yazı müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi oldu. Mərasimdə təhsil naziri Misir Mərdanov inşa yazı müsabiqəsinin qaliblərini qazandıqları uğur münasibətilə təbrik edib, onların müstəqil Azərbaycanın layiqli vətəndaşları olacaqlarına əminliyini bildirdi, müsabiqənin keçirilməsində əməyi olanlara təşəkkür etdi. Mükafatlandırma mərasimində iştirak edən M.Ə.Sabirin yaxın qohumu, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti Zenfira Tahirli ölkə Prezidentinin böyük şairin anadan olmasının 150 illik yubileyi ilə əlaqədar verdiyi sərəncamın mühüm əhəmiyyətə malik olduğunu qeyd edib, Sabir irsinin öyrənilməsinə xidmət edən bu müsabiqənin təşkilatçılarına minnətdarlığını bildirdi. Sonda müsabiqə qaliblərinə diplom, tərifnamə və hədiyyələr təqdim olundu.



**Mayın 2-də** Təhsil Nazirliyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə anım mərasimi keçirildi. Təhsil Nazirliyinin əməkdaşları, təhsil müəssisələrinin rəhbərləri və qonaqların iştirak etdikləri anım mərasimini təhsil naziri Misir Mərdanov giriş sözü ilə açaraq bu günlər respublikamızın hər yerində, bütün idarə və təşkilatlarda, dövlət qurumlarında, eləcə də bir sıra xarici ölkələrdə Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr edilmiş anım mərasimlərinin təşkil olunduğunu, bu münasibətlə təhsil müəssisələrində də silsilə tədbirlər keçirildiyini söylədi. Sonda Heydər Əliyev haqqında çəkilmiş "Tale" və "Əsil məhəbbət haqqında" sənədli filmləri nümayiş etdirildi.

***

**Mayın 14-də** təhsil naziri Misir Mərdanov İtaliya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mario Baldi ilə görüşüb. Görüşdə tərəflər Azərbaycan ilə İtaliya universitetləri arasında əməkdaşlığın inkişaf etdirilməsi və digər məsələlərlə bağlı müvafiq işlərin aparılması istiqamətində müzakirələr aparıblar.

***

**Mayın 17-də** Təhsil Nazirliyində Akkreditasiya komissiyasının növbəti iclası keçirilib. İclasda Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci, Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci, Bakı Dövlət Sosial İqtisadi Kollecinin akkreditasiyasının nəticələri müzakirə olunub. Akkreditasiya komissiyasının iclasında hər üç təhsil müəssisəsinin müəyyənləşdirilmiş meyarlar üzrə tələblərə əsasən cavab verdiyi nəzərə alınaraq, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin fəaliyyəti "yaxşı", digər iki müəssisənin fəaliyyəti isə "kafi" qiymətləndirilib və müvafiq ixtisaslarla akkreditə olunması barədə qərar qəbul edilib.

***

**Mayın 26-da** Təhsil Nazirliyində bu il mayın 13-dən 18-dək ABŞ-ın Pensilvaniya Ştatının Pitsburq şəhərində keçirilmiş Intel İSEF – Beynəlxalq Elm və Mühəndislik Sərgisi və Azərbaycan məktəblilərinin sərgidə iştirakına həsr olunmuş seminar keçirildi. Təhsil Nazirliyinin rəhbərliyi və şöbə müdirlərinin, birbaşa nazirliyə tabe olan və eləcə də bir sıra digər lisey və gimnaziyaların direktorlarının, "İntel" və "Mədəd" təşkilatlarının nümayəndələrinin iştirak etdikləri tədbiri təhsil naziri Misir Mərdanov açaraq diqqətə çatdırdı ki, Azərbaycan məktəbliləri bu günlərdə ABŞ-da keçirilmiş nüfuzlu Intel ISEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisində ilk dəfə iştirak edərək vətənə qayıtmışlar. Toplantıda məqsəd həmin sərgi və şagirdlərimizin orada iştirakı barədə məlumatı dinləyib müzakirə etməkdir. Sonra təhsil naziri sözügedən beynəlxalq sərgi barədə arayış verdi.

***

**Mayın 31-də** təhsil naziri Misir Mərdanov MDB məsələləri üzrə Federal Agentliyin rəhbəri Konstantin Kosaçevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

***27.06.2012.***



Scanned with ACE Scanner

# ƏHMƏD CAVAD POEZİYASI SOVET REJİMİNİN İLK İLLƏRİNDƏ

Təyyar SALAMOĞLU,
filologiya elmləri doktoru, professor

*Açar sözlər: sovet rejimi, iki mərhələ, simvolik təsvir*

***30-cu illərin dəhşətli repressiyası ilə əlaqədar Ə.Cavad şeiri uzun bir dövr xalqdan gizlədilmişdir. Yalnız 1958-ci ildə (şairin rəsmi bəraətindən sonra) onun şeirlərinin çox kiçik bir qismi çoxlu təhriflər və "qayçılanmış", ideoloji cəhətdən zərərsizləşdirilmiş şəkildə meydana çıxarılmışdır. Bunun özü Cavadsevərlərə az da olsa təsəlli olmuşdur. Əhməd Cavad şeirinin sirrinə, sehrinə yaxşı bələd olanlarda, nəhayət, Cavad həqiqətinin bir gün bütün çılpaqlığı ilə ortalığa qoyulacağına dərin bir inam yaranmışdır.***

Ə.Cavad fenomeni Azərbaycan, eləcə də türk dünyasında bu günümüzün milli həqiqəti, türk həqiqəti kimi məşhurdur. İstər Azərbaycan, istərsə də türk ədəbiyyatşünaslığında Ə.Cavadın yaradıclığı əsasən iki dövrə bölünmüşdür. 1920-ci ilə qədərki yaradıclığı birinci dövr, 1920-ci ildən sonrakı yaradıclığı ikinci dövr kimi götürülmüşdür. Ə.Cavadın yaradıclığının bu iki dövrə ayrılaraq öyrənilməsi, təbii ki, 1920-ci ildən sonra Azərbaycanda yeni siyasi rejimin bərqərar olması ilə bağlı idi. Tədqiqatçıların demək olar ki, hamısı birinci dövrə daxil olan 1918-1920-ci illəri Ə.Cavadın yaradıclığının ən parlaq və məhsuldar mərhələsi kimi qiymətləndirirlər. Lakin bəzi tədqiqatlarda şairin 1920-ci ildən sonrakı yaradıclığının lazımınca qiymətləndirilməməsi, müəyyən mənada hətta, gözdən salınması ciddi narahatlıq doğurur.

Ə.Cavadın sovet dövrü yaradıcılığı əslində iki mərhələyə ayrılaraq tədqiq edilməlidir. 1920-ci ilin aprelindən 1929-cu ilə qədər birinci mərhələ, 1930-1937-ci illər isə ikinci mərhələ hesab edilməlidir. Çünki Azərbaycan Demokratik Respublikası devrilənədək həm lirik, həm də siyasi lirikanın ideya-məzmun, bədii sənətkarlıq baxımından mükəmməl nümunələrini yaradan Ə.Cavad sovet rejiminin bərqərar olmasından sonra nə qədər məhrumiyyətlərə düçar olsa da, yenə öz yaradıclıq yolundan sapmamış, xüsusən ilk on ildə ruhundan, düşüncəsindən qopan mövzuları qələmə almışdır. Bir qədər üstüörtülü şəkildə olsa da, siyasi mündəricəli, ictimai həyat problemlərindən bəhs edən, fəlsəfi düşüncələrini, sevgi hisslərini, keçirdiyi ruhi ağrıları ifadə edən çoxlu əsər yazmışdır: "Sən ağlama", "AşağıLəngər Xuluqda", "Nə üçündür", "Beşik", "And olsun", "Unudulmuş sevda", "Aya", "İdilboyu acları", "Kölgəm ilə mən", "Əfəndiyə", "Göy göl", "Ey Göy gölüm", "Füzuli" şeirləri, "Səsli qız" poeması və s.

Azərbaycanda milli demokratik respublikanın fəaliyyət göstərdiyi dövrdə Ə.Cavadın romantik poeziyası üçün tərənnüm, sevinc pafosu, nikbin ruh əsas



olmuşdur. Şairin bu ruhda yazılmış, çox ehtimal ki, sonuncu şeirindən aşağıdakı parçaya diqqət yetirək:

*Şimdi isə dəyişildi həp işlər*
*Onda baxıb bizə dəli deyənlər,*
*Görürlər ki, başqalaşmış gedişlər,*
*Mən gülürəm, gülür* bizə gülənlər*

*Çox ehtimal ki, "gülür" yox, "ağlar" olmalıdır.

"Ağlayırdım, gülürəm" adlı bu şeir "Azərbaycan" qəzetinin 1920 – ci il 6 aprel nömrəsində dərc olunmuşdur. Şeirin məzmunu şairin müstəqil milli dövlətimizin ikinci ilini yaşamasından duyduğu məmnunluq hissini, xoşbəxt bir vətəndaş olaraq sevincini ifadə edir. Son bənddə isə onu müstəqil dövlətimizin taleyi ilə bağlı milli birliyə çağırışı, birlik olmazsa, "yağıların torpağımıza yenə girə bilmək" ehtimalı ilə bağlı narahatlığı əks olunmuşdur:

*Göstərməsən bundan sonra sən ərlik,*
*Beş gün çəkməz yurdun – yuvan dağılar!*
*Qardaş kimi eyləməsən həp birlik,*
*Yenə girər torpağına yağılar!*

Üzərində bir qədər təfsilatla dayandığımız bu şeir Ə.Cavadın 1920 – ci ilin 28 aprelinə qədərki günlərinin əhval-ruhiyyəsini əks etdirir. Bəs 28 apreldən sonra arzuları puç olmuş, idealları alt- üst edilmiş şair hansı əhvali – ruhiyyədə olmuş, hansı duyğuların, hansı düşüncələrin qoynunda çabalamışdır?

Q.Məmmədli yazır: "Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Ə.Cavad tərəddüd etmədən yeni cəmiyyəti alqışlayır, onun bütün tədbirlərində öz qüvvəsini əsirgəmir". (Məmmədli Q. Əhməd Cavadı düşünərkən. "Azərbaycan" jurnalı., 1988, N1, s.145). Çox hörmətli və zəhmətkeş tədqiqatçının bu fikri ilə razılaşmaq qeyri-mümkündür. Bu illərdəki Ə.Cavad şeirinin əsl mahiyyəti konkret nümunələrin təhlilində daha aydın üzə çıxır.

Ə.Cavadın sovet rejiminin ilk illərində yazdığı "Volqaboyu aclarına", "İdilboyu acları", "Vətəndaş" şeirlərində bolşevizm bəlası, onun rusiyalı türk soydaşlarımızın başlarına gətirdiyi fəlakətlər əks olunmuşdur. Bu fəlakətlərlə bağlı çox kəskin narahatçılığı onun turançılıq idealına sədaqətinin sarsılmazlığını ifadə edir. Bu mənada şairin türk tədqiqatçısı İ.M.Yıldırım onu "türk birliyini özünə hədəf seçmiş" bir sənətkar, turançılığı "bütün dünya türklərinin birliyi şəklində düşünülən bir idealın simvolu" hesab edəndə haqlı görünür (Yıldırım İ.M. Selam türkün bayrağına. İzmir, 1992, s.7).

"Volqa aclarına" şeirinin altında tarix yoxdur. Lakin onunla eyni mövzuda yazılan "Vətəndaş" (1 avqust 1920-ci il) və "İdilboyu acları" (4 iyul 1921-ci il) şeirlərinin tarixindən onun da bu şeirlərlə yaxın tarixdə yazıldığını ehtimal etmək olar.

1918-1920-ci illər... Sovet rejimi Rusiyanı vətəndaş müharibəsi alovlarına qərq etmişdir. Müharibə Rusiyada yaşayan başqa millətlərlə yanaşı, soydaşlarımıza da min cür fəlakət, aclıq bəlası gətirmişdir. Birinci dünya müharibəsi illərində həm "Cəmiyyəti-Xeyriyyə" xətti, həm də şəxsi təşəbbüsü ilə rusiyalı soydaşlarımıza çox böyük kömək edərək, minlərlə adamı aclığın



Scanned with ACE Scanner

fəlakətli caynağından qurtarması onu tərcümeyi-halının ən şərəfli səhifələrindən biridir. Belə bir bəla 20-ci illərdə də meydana çıxanda şair öz qayğılı harayını şeirləri ilə ifadə edir, ağır məqamda üzərimizə düşən vətəndaşlıq vəzifəsini dönə - dönə xatırladırdı:

*Fəlakət qayğısı çəkər başına,*
*Kim ki yardım etməz öz qardaşına.*
*Qonşuda göz yaşı və aclıq dərdi,*
*Yardıma borcludur hər insan fərdi.*

*Yaxın gəl, yaxınsan, uzaqdan baxma,*
*O göz yaşları ki, axar, səninidir.*
*Vətəndaş, şərik ol, onun dərdinə,*
*O göz ki yollara baxar, səninidir!*

Milli müstəqilliyimizin əlimizdən alınması, ilk müstəqil və demokratik dövlətimizin məhv edilməsi ilə bağlı şairin keçirdiyi həyəcanlar, ağrılar, faciəli hal və bütün bunlardan doğan dərin kədər, üzüntü və narahatçılıq, eyni zamanda xoş gələcəyə dərin inam onun 20 – ci illərdə yazdığı digər bir qisim şeirlərində ən əsas leytmotivdir. "Ağlayırdım, gülürəm" şeirindən cəmi bir ay sonra yazılmış "Nə yazım" şeiri bu baxımdan çox xarakterikdir:

*Nə yazım, ayrılıq nədir bilməzsən,*
*Nələr çəkdiyimi çəkənlər bilər.*
*Nə deyim,söz varmı dərdimə ölçü,*
*Sənsiz göz yaşları tökənlər bilər.*

Baş vermiş hadisə o dərəcədə dəhşətli olmuşdur ki, bir ayın içərisində şairin nikbin ruhunu, sevincini, "coşqusunu" (İ.M.Yıldırım) əlindən almış, göylərə qanad çalan ilhamı indi "nə yazım?!" deyə fəryad qoparır. Açıq tərənnüm üslubunu simvolik deyim tərzi əvəz edir. "Yarından doymamış aşiqin ayrılıq dərdi" təkcə şairin özünü yox, oxucunu da dərdlərə, ələmlərə qərq edir:

*Nə gücdür ayrılıq, doymamış yardan,*
*Artırdı dərdimi hər keçən karvan!*

Ə.Cavadın kədəri ictimai bir kədərdir. Buradakı yar –aşiq ifadələri rəmzdir. Ə.Cavadın şeirlərində ön mövqeyə keçməkdə olan bu yaradıcılıq xüsusiyyətləri və onun meydana çıxma səbəbləri haqqında M.Ə.Rəsulzadə 1951 – ci ildə nəşr etdirdiyi "Çağdaş Azərbaycan ədəbiyyatı" kitabında danışmışdı: "Milli cərəyanın digər nümayəndəsi Cavad Axundzadənin işi bolşevik dövründə qətiyyən gətirmir. Əski bir müsavatçı olduğuna görə onu həbs edirlər. Mətbuat səhifələrində, ədəbiyyat qurultaylarında hər yerdən uzaqlaşdırılır və qovulur. Əsərlərini nəşr etmirlər və nəşr olunanları isə toplayırlar... Siyasi olmayan parçaları bəzən fürsət olduqda özünə yer tapır. Bunların çoxu rəmzidir. Bu rəmzlər çekist ruhlu tənqidçilər tərəfindən deşifrə olunub şairə hücum üçün bir vasitə olur" (Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı ."Gənclik".1991, s.68).

M.Ə.Rəsulzadə doğru qeyd edir. "Çekist ruhlu" sovet tənqidi Ə.Cavadın 20 –ci illər şeirlərindəki ifadə tərzini çox təhlükəli hesab edirdi.



1928 – cil ildə yazdığı bir məqalədə Ə.Nazim narahatlıq və təhdidlə bildirirdi: "Cavad isə öz siyasi ideallarının və ruhi yaşayışının simvolları bulunan "Ay" və "Göy göl"lərdən ilham almağa başladı (Nazim Ə. Yeni Azərbaycan ədəbiyyatı. Moskva. "Dan ulduzu" jurn. 1928, N6). Bu narahatlığın səbəbləri aydın idi. Onlar Ə.Cavad şeirindəki "göy, bulud, sevgili" obrazlarından "müsavat ruhu, qoxusu, ümumiyyətlə, müsavatçılıq iyi gəlməsini" (Cavadın protestosu münasibətilə. (Müəllifi göstərilməyib). "Kommunist" qəzeti, 1 noyabr 1929 – cu il) duyurdular.

Tədqiqatçılar Ə.Cavadın repressiyaya məruz qalmasını,adətən, 1919 – cu ildə nəşr olunmuş "Dalğa" kitabındakı milli istiqlal ruhlu şeirlərlə əlaqələndirirlər (Əliyeva A. Azərbaycan istiqlalının tərənnümçüsü (Ön söz). Ə.Cavad. Haqq bağıran səs. Bakı. 1991, s.6). Bu, əlbəttə, şairin repressiya edilməsinin səbəblərindən biri idi. Lakin yeganə səbəb deyildi. Başlıca səbəblərdən biri də bu dövrdə şairin öz milli ideallarına dönük çıxmaması, yeni rejimlə barışmazlığı idi. 1936 – cı ildə Azərbaycan Yazıçılar İttifaqının plenumunda həmkarlarından birinin şairə qarşı yönəltdiyi ittihamlardan biri də bu idi: "Ə.Cavadın 22- ci ildə yazdığı şeirlər açıq mürtəce şeirlərdir. ...Ə.Cavad deyə bilər ki, mən qadın obrazlarından yazmışam. Biz tarixi götürsək, hətta böyük yazıçılar düşmən obrazlarını müəyyən adamların simasında vermişlər. Simvolizm... nə qədər uzun müddət sovet ədəbiyyatının düşməni olmuşdur (Cavad Ə. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı. 1992, s.205).

Həmkarlarının "sovet ədəbiyyatının düşməni" kimi xarakterizə etdiyi simvol Ə.Cavadın yaradıcılığında Azərbaycan Demokratik Respublikasının zorla çökdürülməsini, xalqının xoşbəxt günlərinin əlindən alınmasını, milli kədərini ifadə etmək üçün aparıcı bədii priyoma çevrilir. "Nə yazım", "Azərbaycan" adlı şeirləri ilə başlanan milli kədər şairin sovet rejiminin ilk illərində yazdığı əsərlərin demək olar ki, əksəriyyəti üçün əsas motiv olur. "Nə üçündür", "Madonnaya" (1922), "Sən ağlama" (1923), "Aya" (1923), "Gözəl qadın" (1924), "Unudulmuş sevda" (1924) şeirlərində şair Milli Demokratik Respublikanın devrilməsini, gözəl Vətəninin müstəmləkə boyunduruğuna keçirilməsini milli faciə kimi qavrayır, bu faciə ilə heç cür barışa bilmir. "Unudulmuş sevda" şeirində şair dərdini belə ifadə edir:

*Bəni pək gənc ikən ağlatdı zaman,*
*Çəkərək pərdə o xoş mənzərəyə.*
*Bənim ilk eşqimi ilk əldə haman*
*Gömdülər, bilmədim, əmma nerəyə?*
*Onu döndərdi zaman xəzan yarpağına,*
*Nə deyim bən o yerin torpağına?!*

Ə.Cavadın türk tədqiqatçısı İ.M.Yıldırım bu şeiri belə qiymətləndirir: "Unundulmuş sevda" şairin ideallarıdır. Onları xatırladıqca şair hüznlü bir mutluluq duyur. Amma duyğusuz, qəlbsiz zamanın əli şairin düzənini sarsıtdığı üçün şair əski sevdaları unutmaq zorunda kalmışdır. Fəqət o sevdanın izləri hala yürəyindədir" (Yıldırım İ.M. Göstərilən əsəri. s.37).

*Soruyursun: Seni sevdaya salan*
*Nerdədir şimdi o qızlar gözəli?*



Scanned with ACE Scanner

*Bən unutmuşdum o sevdayı inan,*
*Duyğusuz qəlbi dövranın əli*
*Bəni sarsıtdı, unutdum adını,*
*Bana gəl sorma o solğun qadını?!*

Bu "solğun qadın" 23 aylıq bir ömür yaşamış, şairin çox sevdiyi xalqına "istiqlal təmini dadızdırmış" ilk müstəqil və gənc Cümhuriyyətimizin simvoludur. 1924 – cü ildə yazılmış "Gözəl qadın" şeirində də eyni ruh hakimdir. Bu tipli şeirlərində şair "solğun baxışlı, "adı ölüncə dilindən düşməyən" pərizadını dönə - dönə xatırlamaqla, onunla keçirdiyi gözəl günlərdən, şirin vaxtlardan söz açmaqla milli müstəqilliyin xalq üçün çox dəyərli bir nemət olmasına işarələr edərək sovet rejimi şəraitində yazılmış bu əsərlərdəki kədərə çox dərin ictimai məna verir:

*Söylə sənin yurdun qəm torpağımı?*
*Hər zaman üzündə böylə sarılıq?!*
*Nəsibin göz yaşı, bir də ayrılıq!*

Şair sovet rejimi günlərində "nəsibi göz yaşı", "yurdu qəm torpağı" olan həmvətəninə Milli Demokratik Respublika günlərini belə təqdim edir:

*Kiçik bir quş kimi kölgəsiz, adsız,*
*Uçduqca uçar qolsuz – qanadsız.*
*Əsla keçməyirdi günlərim hədər,*
*Ah o gözəl dəmlər, o gözəl günlər!..*

Şübhəsiz ki, bu da Ə.Cavadın heç vaxt ürəkdən qəbul edə bilməyəcəyi rejimə qarşı mübarizə, üsyan yolu idi, lakin yeganəsi deyildi. Şair bütün varlığını bu rejimə qarşı qoymuşdu. O, insanı hissiz, duyğusuz bir hala gətirən bu rejimə qarşı nifrətini açıq ifadə etməkdən də çəkinmirdi:

*Lənət ömrün bu ağır illərinə!*
*Qıydı bir şuxun ipək tellərinə.*

Ə.Cavadın sovet rejiminin ilk illərində yazılmış şeirlərindəki üsyankarlıq ruhu onun yaradıcılığına fəlsəfi məzmun, fəlsəfi düşüncə tərzi gətirir. Şair xalqının çox böyük çətinliklər hesabına əldə etdiyi milli müstəqilliyinin məhv edilməsini dünyanın öz məhvərindən qopması, dünyalığından çıxması kimi mənalandırır.

Bu məqamda şairi düşündürən suallar saysız – hesabsızdır:

*Nə üçündür bu keşməkeş...bu qovğa?*
*Nə üçündür tərs yaranmış bu dünya?*
*Nə üçündür sabah, axşam oluyor,*
*Açan güllər bu tezliklə soluyor?*
*Bu sızlayan qəhqəhələr nədəndir?*
*Neçin belə son yaraşıq kəfəndir?*

Ə.Cavad xalqının başına gətirilmiş bu fəlakəti həyatda gördüyü, müşahidə etdiyi yaramazlıqların, düşüncəsizliyin nəticəsi, nahaqqın haqq üzərindəki müdhiş qələbəsi kimi qavrayır. Belə bir qələbənin, əgər o hər zaman davam edəcəksə, dünyanı məhv etməyə qadir mənhus bir qüvvə olduğunu bəyan edir:

*O ki belə məhv eləyir dünyayı,*
*Qıran yoxmu o uğursuz ox – yayı?*
*Bu hər zaman olacaqdır, eləmi?*
*Gül yanaqlar solacaqdır, eləmi?*



Şairin bu sualları sovet rejiminə qəti bir etiraz kimi səslənməklə yanaşı, həm də dünyanın inkişaf etmiş ölkələrindən insan hüquqlarını qoruyan beynəlxalq qanunlar çərçivəsində bu ədalətsizliyə son qoymaq tələbi kimi başa düşülür. Humanizm, ədalət, sülhsevərlik, bəşəri və milli dəyərlərin eyni dərəcədə üstün tutulması bu şeirlərdə bütün çılpaqlığı, kəskinliyi, rəngarəngliyi ilə təzahür edir:

*Mən, doğrusu, daim gülmək istərəm,*
*Nə öldürmək, nə də ölmək istərəm!*
*Artıq yetər yer üzündə axan qan,*
*Yetər artıq bu göz yaşı, bu hicran!*

Xalqının başına gətirilən fəlakətin ağırlığı ilə bağlı Ə.Cavad şeirində kədər, qəm motivi güclü olsa da, şairin ülvi arzularını, nəcib istəklərini üstələyə bilməmişdir. Müdhiş bir rejim içində yaşayarkən onun gətirdiyi dərdi, kədəri poeziyasının ruhuna hopduran Ə.Cavad şeirində ölümsüz, səadət, vüsal dolu dünya haqqında xoş arzularının ifadəsi olduqca heyrətləndiricidir:

*Mən istərəm yaşıllıqlar solmasın!*
*Sevdaların sonu hicran olmasın!..*
*Mən görməyim səadətin sonunu!*
*Ölüm getsin, qalmasın da kölgəsi,*
*Olsun dünya – o bir sevinc ölkəsi!*

Bunlar təkcə xoş arzular, istəklər, gözəl bir dilək deyildi; Ə.Cavadın gözəl bir gələcəyə, əqidə rəhbəri M.Ə.Rəsulzadənin dediyi kimi "bir kərə yüksələn bayrağın bir daha enməyəcəyinə" ən dərin, ən sonsuz inamı idi:

*Ey uçarkən düşüb ölən kəpənək,*
*Sən də gözlə, elə bir gün gələcək.*

Bu, Ə.Cavadı yaşadan, onda yaratmaq həvəsini saxlayan yeganə amil idi. Bu amil Ə.Cavad poeziyasının 20 – ci illərdəki qüdrətini, gələcək üçün yaşarılığını təyin edən cəhətlərdən biri idi.

1929 – cu ildə "Kommunist" qəzetində (N:271 – 272) dərc olunmuş "Cavadın yolu" adlı məqalənin müəllifləri göstərirlər ki, aprel inqilabından 1929 – cu ilə qədərki yaradıcılığını şair özü iki mərhələyə ayırmağı zəruri hesab edirdi: Birinci mərhələ: 20 – ci ildən 24 – cü ilədək; İkinci mərhələ: 24 – cü ildən 29 – cu ilədək. Tamamilə bədxah mövqedən yazılmış məqalənin müəllifləri bu təsnifatı doğru hesab etməyərək yazırlar: "Biz heç inana bilməyirik ki, 1924 – cü il "Bəyannamə"sindən sonra Cavad birdən-birə dəyişmişdir".

Şairin öz yaradıcılığı ilə əlaqədar apardığı bu təsnifat həqiqətdə nəyi ifadə edirdi, yaradıcılığındakı hansı keyfiyyət dəyişikliklərinə əsaslanırdı? 1924 – cü ildə verdiyi "Bəyannamə" hansı mahiyyətdə idi və şairin bədii yaradıcılığı ilə bağlılığı necə idi?

Bu "Bəyannamə"nin mətni əlimizdə olmasa da, Ə.Cavadın 1929 – cu ildə "Kommunist" qəzetinə verdiyi "İzah" (1929 – cu il 19 noyabr) 24 – cü il "Bəyannamə"sinin məzmununa müəyyən aydınlıq gətirir: "...1924 - cü ildə verdiyim deklarasyondan bəri onlarla (müsavatçılarla – T.S.) heç bir əlaqəm



Scanned with ACE Scanner

olmamışdır. Lakin nə "Göy göl"də, nə də mətbuatda çıxan yazılarımda bilxassə 1924 – cü ildən sonra heç bir siyasi məqsəd tutduğum yoxdur". Məsələ aydındır. Şairin 1924 – cü ildə verdiyi bu "Deklarasyon – Bəyannamə" siyasi məzmunlu olmuş, o, Müsavat partiyası ilə heç bir əlaqə saxlamayacağını, şeirlərində də bu partiyaya məxsus ideyaları ifadə etməyəcəyini bəyan etmişdir.

1924 – cü ildən sonra əsərlərində heç bir siyasi məqsəd tutmadığını bəyan etməklə yanaşı, həm də şair 1920 – 1924 – cü illər arasında bu məqsədi əsas götürdüyünü – yəni şeirlərində siyasi fikirlər əks etdirdiyini də ifadə etmişdir.

1924 – cü ildən sonrakı yaradıcılığı göstərir ki,bir müddət şair onu maraqlandıran, ürəyindən gələn, sənət və həyat amalına uyğun məsələlərdən yox, mühitin tələb etdiyi mövzularda yazmağa çalışır. "Sənət qəhrəmanlarına" (1924), "İşçi" (1927) şeirləri bu məqsədlə qələmə alınmışdır. Maraqlı burasıdır ki, Ə.Cavad "Sənət qəhrəmanlarına" şeirinin əvvəlində yeni quruluşu tərənnüm etməyə məcbur edildiyinə çox ustalıqla işarə vurur:

*Demişlərdi mənə: "Sən də bir şey yaz*
*Bu fənn ordusunun nəfərlərinə.*
*Öz yaşından böyük iş görənlərin*
*Bir afərin söylə hünərlərinə.*

Bu təkidlərin mənası aydın idi. Ə.Cavad "sosializm ordusunun nəfərləri"ni tərənnüm etməli, bolşevik dəmirçinin sosializm quruculuğu uğrunda mübarizəsini alqışlamalı idi. Hətta çox ciddi təzyiqlər qarşısında belə Ə.Cavadın sənət idealına sədaqəti aydın görünür. O, dəmirçinin alnındakı təri yüksək qiymətləndirir, bu zəhmətin hər cür tərifdən yüksəkdə durduğunu göstərir:

*Məncə, hər yazıdan daha parlaqdır,*
*Kiçik dəmirçinin alnındakı tər.*

Ə.Cavadın sənətkarlığı orasındadır ki, o, dəmirçi əməyinin qiymətini, proletar tənqidçilərinin arzusuna rəğmən, sosializmin təntənəsində yox, vətənə, millətə və bəşəriyyətə xidmətdə görür:

*Çalış yurdun üçün özünü göstər*

və yaxud

*Çalış qulluq elə bəşəriyyətə -*

müraciətləri şairin "çekist ruhlu tənqidçilər"dən (M.Ə.Rəsulzadə) çəkinməməsindən, öz milli və bəşəri ideallarına sədaqətindən xəbər verir.

"Sənət qəhrəmanlarına" və "İşçi" şeirləri göstərir ki, sosialist həyat tərzinin tərənnümü Ə.Cavadın bu illərdəki şeirlərində yalnız zahiri fon təşkil edir, əsl mahiyyət tamamilə başqadır. "İşçi" şeirində "dəmir qollu", "daş duruşlu" işçinin tərənnümü sosializmin təntənəsi haqqında yalnız zahiri effekt yaradır. Son bənddə şair

*Bəşər dərdlərinin dərmanı birdir,*
*Doğru bir yol ancaq gələcəkdədir -* deyir.

İlk dəfə "Maarif və mədəniyyət" jurnalında çap olunmasından da aydın görünür ki, proletar tənqidi "gələcəkdədir" sözünün məzmununu "sosializmdədir" kimi başa düşmüşdür. Əks təqdirdə bu şeir proletar mətbuatında özünə yer tapa bilməzdi. Lakin şeirin səkkiz bəndinin altısı



Birinci Dünya müharibəsi zamanı xalqların düçar olduğu acınacaqlı vəziyyətin təsvirinə həsr olunmuşdur. Şair yalnız bundan sonra üzünü gələcəyə tutaraq bir ümid işığı axtarır və bu işığın gələcəkdən parlayacağı ümidindədir. Əsl mahiyyətə varanda Ə.Cavadın bu şeirdə də sosializm idealına yox, milli və bəşəri duyğulara, ideallara sədaqəti aydın görünür. Belə bir həqiqət haqqında düşünmək lazım gəlir ki, proletar tənqidi nə qədər amansız təzyiqlər göstərsə də, 20 – ci illərin sonlarına doğru da şairin mübarizə ruhunu qıra bilməmiş, onu öz əqidə və idealından döndərə bilməmişdir. Əgər belə olmasaydı, 1924 – cü ildə verdiyi "Bəyannamə"dən cəmi bir il sonra "Göy göl" şeiri meydana çıxa bilməzdi. Lakin "Göy göl" yazıldı, mətbuatda çap olundu və proletar tənqidi bu şeirə çox kəskin siyasi don geydirdi. M.Ə.Rəsulzadə "Çağdaş Azərbaycan ədəbiyyatı" məqaləsində bu məsələyə münasibətini belə bildirirdi: "Çekist ruhlu sovet tənqidçiləri "Bir sözün varmıdır əsən yellərə; Sifariş etməyə uzaq ellərə" beytində əksinqilabçı bir rəmz görürlər. Cavad onların mühakiməsincə "inqilab tərəfindən uzaq ellərə səpələnmiş müsavatçı millətçilərə" işarə etmək istəyirmiş" (Rəsulzadə M.Ə. Göstərilən əsəri. s.69). Məlumdur ki, bu şeirə görə Ə.Cavad həbs olunur, lakin tutarlı dəlillər olmadığı üçün bir müddət sonra yenidən azad edilir. Belə bir sual çox maraqlıdır: "Göy göl" şeirinin ətrafında qopan mübahisələrin mahiyyətində nə dururdu? Proletar tənqidi bu şeirə nə üçün çox kəskin reaksiya verirdi?

Proletar tənqidi belə hesab edirdi ki, onun öz ideoloqunun təbirincə demiş olsaq, şair proletar işinin bir "təkərciyi və vintciyi" olduğuna görə, əlinə qələm götürən hər kim olsa, proletar işinin tərənnümçüsü olmalı idi. "Göy göl"də Ə.Cavad bolşeviklərin "haqq" işini, sosializm quruculuğu uğrundakı mübarizəsini yox, canından artıq sevdiyi vətənin bir parçası olan Göy gölü – onun hesaba gəlməz gözəlliklərini tərənnüm etmişdi:

*Kəsin eyşi – nuşu, gələnlər, susun.*
*Dumandan yorğanı, döşəyi yasun*
*Bir yorğun pəri var, bir az uyusun.*
*Uyusun dağların maralı, Göy göl.*

Ə.Cavad məhz bu mövzuda yazdığı üçün, öz daxili dünyasının, şair ilhamının sövq etdiyi mövzuda yazdığı üçün həbs edildiyini çox yaxşı başa düşür:

*Borana düşdüm.*
*Yüz qana düşdüm.*
*Adını çəkdim.*
*Zindana düşdüm.*

Lakin şairin böyüklüyü burasındadır ki, bunun üçün o, zərrə qədər də olsa peşmançılıq hissi keçirmir, əksinə, Göy gölü vəsf etməyən bir dil, Göy göllə çırpınmayan bir könül, Göy göldən yazmayan bir əl Ə.Cavada lazım deyildir:

*Assınlar məni,*
*Kəssinlər məni.*
*Qoy türmələrə*
*Bassınlar məni.*



Scanned with ACE Scanner

*Neynirəm könlü?*
*Neynirəm dili?*
*Səndən yazmasam,*
*Neynirəm əli?!*

Bu etirafdakı "Göy göl" anlayışının məzmunu olduqca genişdir. "Göy göl" ifadəsi burada şairin ilhamının, əqidəsinin ona təlqin etdiyi mövzular mənasında başa düşülməlidir.Həbsxanada ikən yazılan bu bir neçə bənd əslində Ə.Cavadın 1924 – cü ildəki "Bəyannamə"sinə tamamilə müxalif olan bir sənət məramnaməsi, manifesti kimi qəbul edilməlidir. Şair demək istəyirdi ki, onu həbsxana küncünə atmaq, hər cür əzab vermək, hətta məhv etmək olar, lakin sənət məramından, öz duyğu və düşüncələrini ifadə etmək istəyindən döndərmək olmaz.

"Göy göl"lə bağlı Ə.Cavada qarşı edilən hücumların bir əsas səbəbi də şeirin son dərəcə yüksək sənətkarlıq nümunəsi kimi meydana çıxması idi. Yəni bu şeirdə Göy gölün misilsiz gözəlliyi və bu gözəlliyin insan qəlbində yaratdığı duyğular uğurlu poetik ifadəsini tapmışdır. O zamankı Azərbaycan proletariatının ideoloqlarından biri S.Ağamalıoğlunun bu şeiri ilk dəfə oxuyan zaman "Kim deyir ki, Azərbaycanın Puşkini yoxdur" deməsi də qətiyyən təsadüfi sayıla bilməz. O zaman Ə.Cavada əsasən müxalif mövqedə duran S.Vurğunun bu şeirə qarşılıq olaraq "Göy göl" şeiri yazması, lakin sonralar özünün şeiri ilə müqayisədə Ə.Cavadın əsərinin əsl poeziya nümunəsi olmasını etiraf etməsi də Ə.Cavadın "Göy göl"ünün yüksək sənətkarlıq qüdrətindən xəbər verirdi. M.Vəkilovun xatirələrindən məlum olduğu kimi, S.Vurğun bu şeiri öz "komsomolçuluğuna salıb" yazmışdı. Yəni əsas məqsəd Ə.Cavadı və onun şeirini nəzərdən salmaq olmuşdusa, M.Müşfiqin, çox – çox sonralar isə Türkiyədə yaşayan azərbaycanlı mühacir şair Alazan Baycanın bu mövzuda yazdıqları şeirlər Vətənin solmaz bir parçası olan Göy göllə bağlı Ə.Cavadın poetik sözünün sehrinə düşüb təsirlənmələri ilə bağlı idi. Ə.Cavadın "Göy göl"ünə qarşı hücumları Alazan Baycan təkcə şairə yox, ana təbiətə, əsrarəngiz gözəlliyi ilə ürəkləri oxşayan Göy gölün özünə hücum kimi mənalandırmaqda tamamilə haqlı görünür:

*Vurğun boyun əydi yadlar deyənə,*
*Ağılı ox atdı, dəydi sinənə!*
*Yaralandın, susdun, dilləndin yenə,*
*Yaşasın azadlıq, sən yaşa, Göy göl!* (Saləddin Ə. Əhməd Cavad. Bakı. "Gənclik", 1992, s.319)

Göy gölün gözəlliyi misilsizdir, axıra qədər təsvir edilməsi qeyri – mümkün olan bir gözəllikdir. Dörd bir tərəfdən başı göylərə bülənd olan sıx meşə ilə əhatə olunmuş dərin dərənin dibindəki göz yaşı kimi dumduru, mavi sulu gölün yaratdığı təbii mənzərə hər bir insanı vəcdə gətirməyə, bu təbiilik, saflıq və gözəllik qarşısında onun qəlbini min bir duyğu ilə çırpındırmağa qadirdir. Lakin bu qeyri – adi mənzərənin ürəkdə yaratdığı duyğuları hər bir insan təsvir etməyə qadir deyil. Bu gözəlliyin insan qəlbində yaranan əks – sədasını, oyatdığı hiss - həyəcanları ifadə etmək üçün ecazkar bir qələm sahibi olmaq lazımdır. "Göy göl" şeirində istedadlı qələm sahibinin odlu bir ürəklə



Göy gölün təbii mənzərəsini necə canlı, cazibədar və həqiqətə uyğun şəkildə ifadə etməsi heyranedicidir:

*Dumanlı dağların yaşıl qoynunda,*
*Bulmuş gözəllikdə kamalı Göy göl!*
*Yaşıl gərdənbəndi gözəl boynunda,*
*Əks etmiş dağların camalı Göy göl*

Gecələr Göy gölün sularında bərq vuran ay və ulduzların yaratdığı son dərəcə təbii mənzərə bu şeirdə təsvir obyektinin gözəlliyini canlandırmaq üçün uğurlu bədii tapıntıdır:

*Sənin gözəlliyin gəlməz ki, saya,*
*Qoynunda yer vardır yıldıza, aya*
*Oldun sən onlara mehriban daya,*
*Fələk büsatını quralı, Göy göl!*

Bu şeirdə Ə.Cavadın təsvir etdiyi "ay" və "ulduz" yuxarıda qeyd edildiyi kimi uğurlu bədii detal idi, yoxsa siyasi rəmz – işarə? "Göy göl" şeiriylə bağlı Ə.Cavada verilən ittihamlardan birində "ay – ulduzun" simvolik xarakter daşıması və ADR – in bayrağındakı "ay – ulduz"a işarə kimi düşünüldüyü irəli sürülürdü. Bu ittiham müəyyən həqiqəti ifadə edirdi. Göy göl müstəqil Azərbaycanın gözəllik – mövcudluq simvolu kimi alındıqda onun öz qoynunda "ay – ulduz"a yer verməsi tamamilə məntiqi idi. Lakin bu məntiq uğurlu bədii detalın milli duyğulu hər bir insanın beynində yarada biləcəyi assosiativ bir mövcudiyyət idi. Bu assosiativliyi son bənddəki daha açıq xarakterli rəmzlər bir daha qüvvətləndirir:

*Bir sözün varmıdır əsən yellərə,*
*Sifariş etməyə uzaq ellərə*

Məhz həmin rəmzlərin doğurduğu assosiasiya idi ki, o zaman proletar mövqeyi nümayiş etdirən həmkarlarının çox ciddi narahatçılığına səbəb olmuşdu. S.Vurğun yuxarıda haqqında danışdığımız şeirində üzünü Ə.Cavada tutaraq məhz bu narahatçılıq hissi ilə aşağıdakı misraları qələmə almışdı:

*Qucağında bir vaxt bəslədi sizi,*
*Görmədi sizləri vəfalı Göy göl.*
*Nişan verməə ona ayı, ulduzu,*
*Artıq unutmuş o xəyalı Göy göl.* (Vurğun S. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı. Azərnəşr, 1966. s.193)

"Göy göl"lə bağlı özünün yazdığı "Göy göl"də S.Vurğunun son dərəcə haqsız mövqe tutduğu açıq – aşkar görünür. Bu məsələnin bir tərəfidir və səbəbi də müəyyən mənada aydındır. Ə.Cavadla bağlı stenoqrafik məlumatlar da aydın göstərir ki, 20 – ci illərin sonlarına doğru şairə dövlət səviyyəsində güclü təzyiqlər edilirdi. Bu təzyiqlərin bir çoxu da onun həmkarlarının əli ilə edilirdi. S.Vurğun da bu kampaniyadan kənarda qalmamışdı.

Lakin məsələnin başqa bir tərəfi daha çox maraq doğurur. S.Vurğun bu kampaniyada hansı psixoloji ruhda iştirak edirdi? Necə deyərlər, S.Rüstəm kimi hücum xarakterli, yoxsa özünümüdafiə səpkisində?

1936- 1937 – ci illərdə Azərbaycan Şura Yazıçılarının plenumlarında Ə.Cavada ittihamlarla bağlı stenoqrafik materiallardan da aydın görünür ki, S.Vurğun Ə.Cavada qarşı münasibətində kəskin mövqedə dayanmamağa çalışmış, belə bir mövqedə dayanmağa məcbur qalanda da bunun üçün ciddi



Scanned with ACE Scanner

psixoloji gərginlik içərisində olmuşdur. Əsl həqiqət bunda idi ki, o dövrün S.Vurğunun özünə ciddi mənəvi zərbə vurmadığını düşünmək sadəlövhlük olardı. İstedadlı bir sənətkar kimi o da ciddi təzyiqlər qarşısında idi. M.Müşfiqə ünvanladığı "Şairin səsi" şeirində biz onun bir çox ürəkdən gələn etiraflarını eşidirik: Aydın olur ki, şair son dərəcə narahatdır, daxilində sanki bir dəniz dalğalanır, könlündə hirsli fırtınalar, qasırğalar var.Nə üçün? Çünki o, könlü deyəni yaza bilmir, varlığından uzaqlaşmaq məcburiyyətindədir, dəstədən geri qalmamaq üçün Leninin kitablarını oxuyur:

*İçim dalğalanır, sanki bir dəniz,*
*Mən bu dalğalarla qucaqlaşıram.*
*Nələr düşünürəm, duya bilsəniz,*
*Sanki varlığımdan uzaqlaşıram.*
*Bütün arzularım gülür yarına,*
*Xəyaldan ilhamlar almamaq üçün.*
*Baxıram Leninin kitablarına*
*Dəstədən geridə qalmamaq üçün.* (S.Vurğun. Göstərilən əsəri. s.23).

Bu açıq və səmimi etiraf bir daha sübut edir ki, S.Vurğunun "Göy göl"ü, onun Ə.Cavada kəskin münasibəti, M.Vəkilovun qeyd etdiyi kimi, təkcə "komsomolçu" xarakterindən yaranmamışdı, burada mövcud ictimai – siyasi mühitin kəskin təsiri əsas amillərdən biri idi. S.Vurğunun Ə.Cavada və eyni zamanda, repressiya olunmuş digər sənətkarlara münasibəti, onların yaradıcılıq əlaqələri məsələsində açılmalı, öyrənilməli çox məqamlar olduğu kimi, onun özünün mənəvi repressiyası da ciddi araşdırma mövzusudur.

Ə.Cavadın 20 – ci illər yaradıcılığının zirvəsində, heç şübhəsiz ki, "Səsli qız" (1928 - 1929) poeması durur. Poema olduqca zəngin ideya – bədii keyfiyyətlərlə yanaşı, kəskin ictimai – siyasi məzmunu ilə də ciddi maraq doğurur. Əsər gözəl səsə, incə nəfəsə, zərif bir ürəyə malik istedadlı bir qızın qəlblərdə yaratdığı sonsuz duyğuların tərənnümü ilə başlayır. Şair bu səsi Allahın insanlara bəxş etdiyi ilahi bir nemət kimi qiymətləndirir, insan ruhunun, mənəviyyatının, düşüncəsinin ucalmasında gözəl səsin – oxumanın böyük qüdrətə malik olmasından söz açır:

*Qız, bu küskün könlümü*
*Bircə sənsən güldürən.*
*Sənsən məni diriltdən,*
*Sənsən məni öldürən.*
*Məftunam mən səsinin*
*Bülluri axışına,*
*Məftunam gözlərinin*
*Atəşin baxışına.*

Ə.Cavad müasiri olan qızın səsindəki məlahəti, insanı öldürüb – diriltdən təsirliliyi qələminin bütün gücü ilə vəsf edəndən sonra çox ustalıqla əsərin məzmununa siyasi bir istiqamət verir. Sən demə, şairin bu gözəl səsə vurğunluğunun mühiyyətində çox ciddi mətləb durur. Şairin səsli qıza müraciətlə dediyi:

*Bir çox gözəl qızların*
*Büllur kimi səsləri*



Scanned with ACE Scanner

*Azmı xilas eylədi*
*Ölümdən bikəsləri –*

misraları aydın göstərir ki, onun məqsədi heç də incə bir səsin tərənnümündən ibarət deyil. Əksinə, gözəl qızın səsinə vurğunluq və bu səsin mədhi əsas məsələyə keçid üçün bir fon təşkil edir. Dinlədiyi bu gözəl səs Ə.Cavadın yaddaş kitabını açır, ona tarixin qədim qatlarında səsli qız kimi məlahətli bir səsə malik Saranın və onun doğma yurdunun başına gələn faciələri xatırladır. Xatırlanan bu hekayə poemanın əsas məzmununu təşkil edir. Bu hekayə isə çox ibrətamizdir, şairin yaşadığı mühitlə, üzləşdiyi ictimai – siyasi durumla yaxından səsləşir. Şair içində yaşadığı siyasi mühitin mahiyyətini açmaq üçün tarixlərdə oxuduğu bu hekayəni səsli qıza danışır:

*Oxudum tarixlərdə:*
*Qaniçən bir hökmdar*
*Bir ölkəni amansız*
*Eyləmişdi tari – mar.*

Hekayədə göstərilir ki, qaniçən bir hökmdar altı aydan çox davam edən bir mühasirədən sonra başqa bir ölkənin torpaqlarını zəbt etmiş, əhalisini qırıb, xanimanlarını xarabazara çevirmişdi:

*İşlənməmiş qalmadı,*
*Bir cinayət, bir günah.*
*Əzmişdi insanlığı*
*Ordusuyla padişah.*

Əslində bunda qəribə bir cəhət yoxdur. Tarixdə belə faktlar saysız – hesabsızdır. Qalib ölkənin məğlub ölkəni talan etməsi təəccüblü deyil. Lakin Ə.Cavadın təsvirlərində digər cəhətlər maraq doğurur. Qalib şah əhaliyə yas tutmağı qadağan edir. Hamı gülməli, sevinməli idi, heç kim yas tutub öz dərdindən danışa bilməzdi:

*Yuyuldu divarlara*
*Sıçramış qan ləkəsi.*
*"Vay" səsi susduruldu,*
*Əmr edildi toy səsi.*
*Haqqı yoxdu kimsənin*
*Söz deyib, dərd açmaya...*

Çox keçmir ki, qoyulmuş qadağalar, aparılan təbliğat öz nəticəsini göstərir. Sanki heç bir müsibət olmamışdı, sanki Vətən torpağı bir qədər əvvəl xarabazara çevrilməmişdi. Şair dərin bir dəhşət içərisində yazır:

*Dünənki matəm hanı,*
*Doğrudan çıxdı yasdan?..*
*Düşmən şahın gəlişi*
*Qanuni bayram oldu.*
*Bir çox dərdli ürəklər*
*Qanlı sevinclə doldu.*

Poemanın əvvəlində müəllif öz müasiri olan bir qızdan danışır, onun səsinin gözəlliyini mədh edir. Səsli qız Sara deyildir. O, şairin müasiridir (tədqiqatlarda bəzən bu obrazlar səhvən eyniləşdirilir). Məhz onun gözəl və təsirli səslə oxumaları şairin yaddaş kitabının çözələnməsinə və ibrətli bir hekayə danışmasına səbəb olur. Sara isə müəllifin səsli qıza danışdığı həmin hekayənin təsvir obyektlərindən – qəhrəmanlarından biridir. Tarixdən



Scanned with ACE Scanner

birə lap 30 – cu illərə yaxın Ə.Cavad bir "Şərqi" yazır, həmin şərqidə sözarası münasibətsiz – filansız deyirdi:

*Dərğinam mən belə baxta,*
*Ürəyim qan laxta- laxta.*
*Bax ki, kimlər çıxdı taxta,*
*Küsdü kimin baxtı, bağlar?*

"Mən ki səndən doymamışam" – deyəndə elə bil haqqında danışmaq belə yasaq olunmuş Azərbaycan istiqlalını nəzərdə tuturdu" (Əliyeva A. Göstərilən əsəri. səh.7).

"Səsli qız" poemasında müəllifi narahat edən məsələlərin simvolik əksini şairin türk tədqiqatçısı İ.M.Yıldırım da qeyd etmişdir: "Şeirdəki qız bir hürriyyət simvoludur. Olayların keçmişdə olmuş kibi göstərilməsini şairin yaşadığı dövrün basqısından qurtara bilmə düşüncəsinə bağlaya biliriz. Şeirdə anlatılan hadisələrin o dövr Azərbaycanındakı hadisələrlə bir çox bənzərliyi vardır." (İ.M.Yıldırım. Göstərilən əsəri. səh.55-56).

Göründüyü kimi, Ə.Cavadın 1929 – cu ilə qədərki yaradıcılığı aprel inqilabından qabaqkı məzmununu, inqilabi mübarizə və azadlıq ruhunu hifz edib saxlamış, fərq isə istiqlal, azadlıq arzularının üstüörtülü, simvolik inikasında meydana çıxmışdır.

### ƏDƏBİYYAT


1. *Cavad Ə. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, Azərnəşr, 1992.*
2. *Əliyeva A. Azərbaycan istiqlalının tərənnümçüsü (ön söz). Ə.Cavad. Haqq bağıran səs. Bakı, 1991.*
3. *Məmmədli Q. Əhməd Cavadı düşünərkən. "Azərbaycan" jurnalı., 1988, №1.*
4. *Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı, "Gənclik", 1991.*
5. *Saləddin Ə. Əhməd Cavad. Bakı. "Gənclik", 1992.*
6. *Vurğun S. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Azərnəşr, 1966.*
7. *Yıldırım İ.M. Selam Türkün bayrağına. İzmir, 1992.*



### XÜLASƏ

*Məqalədə Əhməd Cavadın sovet rejiminin ilk onilliyindəki yaradıcılığı araşdırılır. Şairin sovet dövrü yaradıcılığının iki mərhələdə öyrənilməsi zərurəti əsaslandırılır. 20-ci illərdən Ə.Cavad şeirinin yaradıcılığının əvvəlki dövrü ilə ideya-estetik əlaqələri önə çəkilir. Bu illərdə sənətkarın əsərlərindəki simvolik təsvirlərin məna qatları açılır.*

### РЕЗЮМЕ

***Творчество Ахмеда Джавадв в первые годы советского режима***

*В статье исследуется творчество Ахмеда Джавада, касающееся первого десятилетия советского режима. Обосновывается необходимость двухэтанного изучения советского периода творчества поэта. На передний план выдвигаются идейно-естетические связипоэтического творчества А.Джавада в 20-х годах с ранним периодом его творчества. Раскрываются смысловые слои символических изображений в произведениях мастера этих годов.*

### SUMMARY

***Ahmad Javad Poetry in the Early Years of Soviet Regime***

*In the article? Ahmad Javad`s artistic creativity in the first decade of the Soviet regime has been researched. The necessity of studying in two stages the Soviet period of the poet`s artistic creativity has been substantiated. Ideaesthetical relations of Ahmad Javad poetry in the 1920s with the previous period is bringht into attention/ the meanings of symbolic descriptions in the works of the master of those years are disclosed/*




# MƏMMƏD ARAZIN POEMALARINDA LİRİK RİCƏTLƏR


**Samirə MƏRDANOVA,**
**filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent**


Məmməd Araz Azərbaycan xalqının XX əsrin ikinci yarısında yetirdiyi ən görkəmli şairlərdən biridir. O, ilk növbədə, lirik şairdir, lirik-fəlsəfi şeirlərinin Azərbaycan poeziyasının inkişafında xüsusi rolu var. Şeirləri dillər əzbəridir. Bununla bərabər, Məmməd Araz həm də epik, epik-lirik poemalar müəllifidir. Biz bu yazıda şairin poemalarında istifadə etdiyi lirik ricətlərdən danışmaq istəyirik. Bunun üçün onun müxtəlif illərdə yazdığı səkkiz poeması nəzərdə tutulur: "Əsgər qəbri", "Üç oğul anası", "Mən də insan oldum", "Paslı qılınc", "Araz axır", "Qayalara yazılan səs", "Kəndim, balacasan, çox balaca", "Qoca arxçı ilə söhbət". Şairin lirizmi bu poemalarda da özünü göstərir. Həm də təkcə lirik ricətlərdə yox, bütövlükdə poemaların ifadə tərzində. Ona görə şairin lirik şeirləri kimi, poemaları da birbaşa oxunur, asan əzbərlənir.

"Əsgər qəbri" və ya "Əsgər qəbri haqqında ballada" adlanan poema vətəndən uzaqda olan bir qəbiristan təəssüratının poetik ifadəsini verir. Bu yerdə Böyük Vətən müharibəsində həlak olanlar dəfn olunmuşdur. Şair burada üzərində yalnız soyadı olan bir başdaşı görür. Bu soyad İbrahimovdur. Şairin öz soyadı da İbrahimovdur. Şair bu ad altında xəyalən özünü görür. Şair Ukraynanın Lvov şəhərindəki bu qəbiristanlığı "qəhrəmanlıq muzeyi" adlandırır. Poemanın ikinci hissəsi ricətlə başlanır:

**Ey balladam, dindir onu,**
**qəbir dinər.**
**Ey balladam, dilsiz yatmaz**
**qəbirdə nər.**
**Alışar o,**
**danışar o,**
**od dilində ....**

Bu ricət xeyli davam edir. Sonra təhkiyə başlanır: bu kənddən, şairin kəndindən doxsan igid müharibəyə gedib qayıtmayıb. "Doxsan ana yola baxdı", "Doxsan ... ot bitdi". Dava vaxtı qələbə arzusu var. Ölüm özü də irəliyə addım deməkdir. Şairin qələmi bunu da deyir ki, "Hər ölən hər yaşayandan nəyi isə alıb gedir". Ömürlərə səpələnən ömür qalır: şair istəyir ki, "səsin rəngi baxışlarda, dodaqlarda görünsün, əsrin havasını duyaq biz. Bilək ki, qara külək haradan əsir. Bu arzular içində şairin lirik müraciətləri eşidilir:

**Buludunu çək o yana**
**qara geyən, ey!**
**Qoşa hörük –**
**İki qara çay dolansın**
**başdaşına ...**

Şair bu uzaq Lvov qəbiristanlığında yatan azərbaycanlı əsgərin qəbri



Scanned with ACE Scanner

üstünə xəyalən vətən torpağı tökmək istəyir ki:

**Qoy o qəbrin baş daşında**
**Azərbaycan gülü bitsin.**
**Qoy o qəbrin baş daşında**
**Azərbaycan dili bitsin.**

“Üç oğul anası” poeması Böyük Vətən müharibəsinə üç oğul verən ana haqqındadır. Üç oğul böyüdən bu ana hazırlaşır, yır-yığış edir, oğulları üçün toya hazırlıq görür. Bu halda ana haqqında şairin lirik ricəti eşidilir.

**Bir ana ürəyi nəğmə deyəndə**
**Laylı buludlar da yerə enəydi.**
**Bir ana ürəyi hökm eləyəndə**
**Qranit qayalar muma dönəydi.**

“Lakin ana deyəni demədi ruziqar”, müharibə başlandı. Ananın oğlanları cəbhəyə getdilər. Öz istəkliləri ilə də görüşüb getdilər. Yenə şairin səsi eşidilir:

**Ötdü o günlərdən həftələr, aylar,**
**Çalxandı dəryalar, bulandı çaylar.**
**Şimşəklər oynadı, göylər kişnədi,**
**Torpaq da, səma da intiqam dedi.**
**Volqa, Dauqava, Dnepr, Kuban**
**Elə bil, çıxmışdı öz yatağından.**
**Yox, yox, çaylar deyil,**
**Coşan biz idik! ...**

Oğlanların hərəsi bir cəbhədən anaya məktub göndərir, qəhrəmanlıqlarından yazırlar. Məktublar anaya ümid, təsəlli verir. Yazırlar ki, zəfər bizimdir. Bu halda şair məktub haqqında sözünü deyir:

**Məktublar – Vüsalın yaxın həmdəmi,**
**Ayrılıq – qarlı qış, məktublar – bahar.**
**Üç canlı insanın sevinci, qəmi**
**Üç cansız nağılda tutmuşdu qərar.**

Ancaq zaman keçir, məktubların arası kəsilir. Şair xəbər verir ki, oğlanlar cəbhədə həlak oldular. Ana isə yol gözləyir. Çoxları cəbhədən qayıtdı. Ana isə yenə oğlanlarını gözləyir. Ana isə yenə də əvvəlki kimi çalışır, işləyir. Əlindən gələni cəbhəyə göndərir. Başqalarına da məsləhət verir ki, onlar da belə etsinlər. Nə qədər vaxt, zaman keçdi, ana oğullarından xəbər tutmadı, “yandı ana qəlbi”, “yandı ümidi də, təsəllisi də”. Daxilən yandı, ancaq bunu heç kəs eşitmədi. Buradaca şair haşiyə çıxır, dörd bəndlik bir haşiyə. Biz bunlardan birini veririk:

**Mən ki əzəl gündən bir canlı sazdım,**
**Duyardım hər qəlbin sevinc səsini.**
**Məni ana doğub, mən niyə yazdım**
**Bir ana qəlbinin faciəsini?**

Ana oğlanlarından xəbər tutmaq üçün “Döydü qapısını yüz idarənin”. Ona bir xəbər verən olmadı. Ana bir oğlunu evləndirmişdi. Nəhayət, gəlin də çıxıb getməli olur. Bu da anaya yeni bir zərbə! Ana qocaldı. Ancaq kənd adamları onu tənha qoymadılar. Kolxoz da hər şey göndərdi. Ancaq görün şair nə deyir:

**Baharsız təbiət batmazmı yasa,**
**Gülsüz bir bülbülə nə eşq, nə həvəs!**
**Evinin dirəyi qızıldan olsa,**
**Övladsız bir qara qapiyə dəyməz.**



Poema ricətlə başa çatır. On misralıq bu ricətin dörd misrasını təqdim edirik:

**Hərbə lənət deyən ana səsində**
**O zamanın səsi duyulsun bu gün!**
**Yel əssə, quş səksə sərhədimizdə,**
**Dağlar da, daşlar da ayılsın bu gün!**

“Mən də insan oldum” poeması. İlk baxışda bu ad qəribə görünə bilər. Amma poemaya M.Ə.Sabirin şeirindən verilən iki müvafiq epiqrafı görəndə bu adın hansı mənada işləndiyini başa düşürsən. Həmin epiqraf belədir:

**Fəhlə, özünü sən də bir insanmı sanırsan,**
**Pulsuz kişi, insanlığı asanmı sanırsan?**

Lirik poemadır. Sabirə həsr olunmuşdur. M.Araz bu gündə də Sabiri görmək istəyir, deyir ki, bir zaman insan sayılmayan fəhlə indi hər şeyə qadirdir. Sabir şeirlərində nə istəyirdi, onlar oldu. İnsan ağır yollar keçdi.

**İnsanın nə qədər canı olarmış,**
**İnsanın nə qədər qanı olarmış:**
**Dirildim bu yandan, öldüm o yandan.**
**Göyərdim bu yandan, soldum o yandan.**
**Tapıldım bu yandan, itdim o yandan,**
**Bitildim bu yandan, bitdim o yandan...**

Şair istəyir ki, Sabir sağ olub, o zaman ona gülənlərin indi halını görəydi. M.Araz yenə Sabir sənətindən danışır. Sabir şeirinin dünyasından danışır. Şair bir an xəyalən dünyaya nəzər salır. Sonda öz yurduna dönür. Mingəçevir işıqlarının şəhərlər keçib Bakıya gəldiyini görür. Bu məna, bu qüdrət yenə şairi dilə gətirir:

**Yağışlı, qarlıyam təbiət kimi,**
**Sinəmdə bir canlı tarix səsi var.**
**İnsan taleyinin cəmiyyət kimi**
**Nə qədər inkişaf mərhələsi var!**

“Paslı qılınc” poeması lirik-didaktik əsərdir. Poemanın xeyli hissəsi hakimə müraciətdir. Mövzu ər və arvadın ayrılma məsələsidir. Kişi boşayır, arvad boşanır. Bəs hakim nə qərar verməlidir? Burada insani hisslər də rol oynamalıdır. Axı qadın tez qızışar, tez də soyuyar. Qanun qanundur, bəs vicdan nə deyir? Şair xalq hökmünü əsas tutur:

**Xalqın gözü iti, ağlı da dərin,**
**Ən böyük rəhbərin rəhbəri odur.**
**Ən ağır, ən böyük qələbələrin**
**Sərkərdəsi odur, əsgəri odur.**

Bu ricət dörd bənddən ibarətdir. Son bəndi belədir:

**Hər qərar doğulan bir körpədirsə,**
**Beşiyi mehriban ürəklər olur.**
**Qərar beyinlərə zorla gedirsə,**
**Yola salanı da küləklər olur.**

Hakim düşünür. Boşanmaq qərarını verdilər. Bununla iş qurtardımı? Şair xəyalən hakimdən tələb edir: “Gəl bugünkü işə yenidən baxaq” – deyir. Həyat ayrı şey deyir. “Qapılma, qapılma öz vəzifənə, insan insan kimi daha böyükdür”. Budur yenə ricət:

**Biri dağ qaldırır çiyinlərində,**
**Birinə misqaldan yüngül yük düşür.**
**Elə də olur ki, kül qabı ilə**
**Gül qabının yeri dəyişik düşür.**



Scanned with ACE Scanner

Şair hadisə üçün insanın özünü də haqsız sayır. Mənası odur ki, gərək özün də düşünəsən, özün özünü mühakimə etməyi bacarasan. Ailə sağsağan yuvası deyil ki, burada uçurub, orada qurasan. Ancaq bu qadına məsləhət vermək əbəsdir. O, ərə getdiyi adamı sevmir. Anasının dediyini etmişdi, həm də düşünmüşdü ki, bu adam çoxlu pul qazanacaq, hər gün evə pul gətirəcəkdir. Sonra qadın üzünü hakimə tutur, deyir ki, qanunla düz elədiniz, bizi ayırdınız. Ancaq gərək Musaxanı özünə qaytarmağı bacaraydınız, Musaxan səhvlərini boynuna alaydı. Bax, əsas ədalət burada olardı. Beləliklə, bu qadın "Məhkəmə sədrinə məhkəmə qurdu". Bununla da "Bir az yüngülləşdi". Burada əsil həqiqət açılır və ricət başlayır:

**Həqiqət insanla doğulub qoşa,**
**Onunla yaşayıb qarışmalıdır.**
**Həqiqət vicdanla verib baş-başa**
**İnsan taleyini qorumalıdır.**

Hakim evinə tərəf gedir. Evdə onu gözləyirlər. Ancaq gedə bilmir. O dönüb Musaxangilə getməli olur. Qapını döyür, içəri girir. Burada dilli-dilavər qulluqçu arvad dil boğaza qoymur. Əvvəlki rəssam ərindən danışır. Musaxanı saymır. Hakim istəyir ki, hər şeyi desin, kimliyi açılsın. Sonra da durub çıxır. Musaxan da onu ötürmək üçün çıxır. Burada hakim Musaxana tənə edir. Musaxan başa düşür. Evə gəlir. Birinci dəfə olaraq, bu qadından ayrı yatır. Yuxusuna rəssam gəlir. Rəssam ona çox yaxşılıq etmişdi. Musaxan bunları qiymətləndirməmişdi. Rəssam bunları onun üzünə deyir. Burada belə bir hakimanə misralar oxuyuruq: "Bəli, söz gülləsi elə dəyir ki, ağrısı görünür, özü görünmür". Musaxan küçəyə çıxır. Hamı qəzet alırdı. Nə yazılıb? Musaxanın xəyanətindən! Məqaləni hakim yazmışdı. Gülsurədən də yazır, rəssamın çəkdiyi şəkilləri gizlədib, xırıd eləməsindən...

Musaxan aradan çıxmaq istəyir ki, onu görməsinlər. Lakin səfər dostları onu saxlayır və deyirlər: "İtil, gözümüzə görünmə artıq...". "Adam xəyanət edər?". Musaxan qaçır:

**Qaçır.**
**Kimdən qaçır?**
**Hara qaçacaq? –**
**Bəlkə də, özünə gələnə kimi ...**
**Bəlkə də, bəlkə də, ölənə kimi.**

"Araz axır" poemasında Araz Azərbaycanı ayıran keçilməz sərhəd timsalı kimi götürülür. Burada sərhəd çəpəri, bu çəpəri qoruyan, məhəbbətin sərhədsiz olduğunu başa düşməyən əsgər var. Ürək isə başqa şey deyir.

Müharibə başlanır. Poemanın qəhrəmanı döyüşlərdən sağ çıxır, düşünür ki, onu qurtaran şirin arzular oldu. Vətənin aliliyi dilə gəlir, ricət başlanır:

**Vətəndaş ulduz qədər,**
**Vətən birdir, vətən bir.**
**Onsuz bir an ömr edən**
**Min can olsa, ölüdür!**

Müharibənin dəhşətləri təsvir olunur. Evlər dağılır, atalar ağlayır, analar yas saxlayırlar. Poemanın qəhrəmanı düşünür ki, evə qayıdacaq, öz işinə başlayacaq, təhsil alacaq və deyəcək:

**Salam, Vətən torpağı!**
**Salam, təhsil illəri!**



Sonra da bir neçə bənddən ibarət lirik mühakimə başlanır. Mənası budur ki, müharibə olmasa, elm yüksələr, həyat gözəlləşər, "Alim ayı, ulduzu dartıb yerə gətirər!".

"Qayalara yazılan səs" poeması. Bu, Səməd Vurğunun səsidir. O, dağlarda çobanlara qonaq olur, onlarla söhbət edir. Çobanlarda əsl insani sifətlər görür. Çobanlar onun şeirlərini əzbər deyirlər. S.Vurğun oxuyan kəkliyi nişan alır. Çoban deyir ki, Vurğun oxuyan quşu vurmaz və vurmur da. Vurğun o dağlardan gedir, bir də o yerlərə gələ bilmir. Lakin onun səsi qalır, dağlar onun səsini əks edir. Orada belə bir lirik ricət var:

**Tufanı amansız – hamı üçündür**
**Zirvəsi dumansız – hamı üçündür.**
**Dağ kimi sərt olur dağ adamları,**
**Çörəkli, mərd olur dağ adamları.**

"Kəndim, balacasan, çox balacasan" poeması lirik poemadır, şairin öz doğma kəndinə müraciətlə yazılmışdır. Bu balaca kəndin də dünyada öz yeri var. Şair öz gəncliyini yada salır, kənddə keçirdiyi günləri, yuxusuna girən yolları, izləri, dumanları yada salır. Bir də o vaxtlara qayıtmaq, dostları ilə görüşmək istəyir. Və kəndi belə görür:

**Torpağın sirrinə qulaq söykəyən,**
**Sirrini torpaqdan gizlətməyən kənd.**
**Əlinin ucunda əli yetməyən,**
**Göylərdən göy qızıl gözləməyən kənd!**

Dünyanın xəritəsində adı olmayan bu kənd hələ öz keçmişi ilə yaşayır. Atılıb qalıbdır gözlərdən uzaq. Çaylı, baldırğanlı dağ dərəsində, atılıb qalıbdır "Bir əli düyçədə, bir əli yunda". Şair yenə müraciətə keçir:

**Hanı kişnərtisi bulud dağıdan,**
**İldırım səsini batıran atlar?!**
**Bir göz qırpımında tufanlı dağdan**
**Çobanlı dağlara aşan qanadlar?!**

Şair yeni dünyada baş verən hadisələrə diqqəti cəlb edir: "Nəhəng gəmilərə ölüm yüklənir". Yenə kəndinə nəzər salır: "Balacasan, çox balacasan. Siyasət çayları pay verməz sənə ...; Göydələn şəhərlər bay verməz sənə", - deyir və elə buradakı kəndin fərqini göstərən müraciət edir; kəndinə təksən deyir. Hansı əlamətlərinə görə? "Yetim qarıların sayına görə", "Məğrur dayanan Zirvə-qayaların sayına görə". Bir də:

**Ballı pətəklərin sayına görə,**
**Yallı köpəklərin sayına görə,**
**Sağmal inəklərin sayına görə**
**Bəlkə də, dünyada birinci kəndsən.**

"Qoca arıçı ilə söhbət" poeması adı yazılmayan bir qoca arıçıya müraciətdir. Şair gözəl yerləri arıçıya tapşırır, bu gözəllikləri qoru deyir. Gözəlliklər isə yerlə göyün təmasında görünür. Poema qısadır, lirikdir. Poemanın sonuncu sətirləri ricət xarakterlidir:

**Bu dərələr sənsiz gözəl görünmür.**
**At kişnəyir,**
**Kəl fınxırır,**
**Quş uçur.**
**Bir hənir də hənirlərə qoruqçu.**
**Qoca, yaxşı qoru bu dərələri.**



Scanned with ACE Scanner

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA MÜDRİK QOCA SURƏTLƏRİ

**Şəmistan MİKAYILOV,**
**pedaqoji elmlər doktoru, professor,**
**Asya BƏKİROVA,**
**pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent**

Müasir təhsilin məqsədi böyüməkdə olan nəsli müstəqil düşünən, inkişaf etmiş şəxsiyyət kimi yetişdirməkdir. Bu mühüm işdə ədəbiyyat tədrisinin çox böyük rolu inkaredilməzdir. Ədəbiyyat həyat hadisələrinin bədii-obrazlı inikasıdır. Bu, o deməkdir ki, həyat hadisələri müəyyən obrazlar (surətlər) vasitəsilə verilir. Bu baxımdan ədəbiyyatda müxtəlif obrazlar var: insan obrazı (buna əksər hallarda insan surətləri deyilir), təbiət surəti (peyzaj), əşya obrazı, at obrazları və s. Bədii əsərdə təsviri verilən hadisələr bunların vasitəsilə ifadə olunur. Təlim zamanı iş elə təşkil olunmalıdır ki, əsərdə bu obrazların hadisələrin gedişindəki rolu şagirdlərə aydın olsun.

Əsərdə təsvir olunan hər bir obraz (əlbəttə, növündən asılı olmayaraq) təbliğ olunan ideya ilə bağlıdır, oxucuya (şagirdə) tərbiyəvi təsir imkanı var. Müəllimin ustalığı həmin təsiri şagirdlərə çatdırmaqdadır. Bədii əsərdə verilən surətlərin hər biri insana bu və ya digər şəkildə göstərir, onu mənən saflaşdırır, təbiət surəti (peyzaj) daha çox insanın estetik hissini zənginləşdirir; əşya surəti təsvir olunan hadisənin başvermə şəraiti haqqında oxucuda təsəvvür yaradır. İnsan surəti isə təsvir olunan hadisənin inkişaf prosesinin iştirakçısına, yazıçı münasibətinin ifadəçisinə çevrilir.

Bədii əsərdə verilən insan obrazları təsvir olunan hadisələrdə iştirakından və yazıçı ideyasından asılı olmayaraq müxtəlif adlandırılır: "əsas obraz", "epizodik obraz", "müsbət obraz", "mənfi obraz" və s. Təcrübə göstərir ki, ümumtəhsil məktəblərinin ədəbiyyat təlimi prosesində diqqət əksər hallarda əsas obrazlara yönəldilir. Bəzən əsərdə təsvir edilən hadisə ilə o qədər də bağlı olmayan, hadisələrin gedişində az iştirak edən epizodik obrazların dilindən böyüməkdə olan gənclərin (şagirdlərin) formalaşması üçün söylənilən çox faydalı fikirlər kölgədə qalır, təlim prosesində müzakirə obyektinə çevrilmir. Məsələn, Səməd Vurğunun "Vaqif" əsərində qoca kəndli obrazına nəzər salaq. Bu, epizodik surətdir. Hadisələrin gedişində az iştirak etməsinə baxmayaraq, dediklərində ciddi məna var. Bu baxımdan aşağıdakı kiçik dialoqu oxucunun nəzərinə çatdırmaq lazım gəlir:

**Qoca** – *Eldar hansınızdır?*
**Eldar** – *Mənəm, ay əmi!*
**Qoca** – *Sənə qiymətli bir bəxşeyişim var*



*Mənə də atamdan qalıb yadigar.*
**Eldar** – *O nədir, ay əmi?*

Qoca yapıncının altından bir qılınc çıxardaraq Eldara təqdim edir və deyir:

*Buyur! Misri qılınc deyərlər buna,*
*Sadiq yaşamışdır ana yurduna.*
*Böyük Koroğludan qalmış yadigar,*
*Budur, dəstəyində barmaq yeri var.*
*Al, oğlum! Göz üstə saxla sən bunu,*
*Yaşat ürəyində qoç Koroğlunu!..*
*Vur! Vuran əllərin görüm var olsun,*
*Düşmənin başına dünya dar olsun.*

Məktəb təcrübəsi göstərir ki, belə parçalar şagirdlərin diqqətindən kənarda qalır. Halbuki onlarda fikir müxtəsər verilsə də, ciddi məna daşıyır. Belə ki, həmin misralarda vətənə məhəbbət, keçmişə hörmət, düşmənə nifrət, yadigarın saxlanılması və s. Kimi məsələlər ifadə olunur ki, bu da gəncliyin tərbiyəsi baxımından olduqca faydalıdır. Azərbaycan ədəbiyyatında yaradılan müdrik qoca obrazları bu qəbildəndir. Bəzilərini xatırlatmaq yerinə düşər: Nizami Gəncəvinin "Sirlər xəzinəsi"ndə Kərpickəsən qoca, "Yeddi gözəl"ində Çoban, "İskəndərnamə"sində Qoca (əskərin atası), M.Ə.Sabirin "Qoca bağban"ında Bağban, Abdulla Şaiqin "Köç" hekayəsində Kərim baba, Süleyman Sani Axundovun "Qaraca qız"ında Piri baba, Hüseyn Cavidin "Topal Teymur"unda şair Kirmani, Səməd Vurğunun "Vaqif" əsərində qoca kəndli, "Fərhad və Şirin"ində Azər baba və b. Tövsiyə edərdik ki, ədəbiyyatı tədris edən müəllim və ümumiyyətlə oxucu bir anlığa bu obrazların aid olduğu əsərdəki mövqeyi və söylədiyi fikirlərin ətrafında düşünsün, həmin fikirlərin nə dərəcədə doğru olduğunu müəyyənləşdirsin. Bəzi ədəbi faktlara müraciət etmək faydalı olar: Nizaminin "Sirlər xəzinəsi"ndə Kərpickəsən qoca surəti hələ aşağı siniflərdən şagirdlərə tanışdır. Belə ki, qocanın cavan oğlanla mükaliməsi mövzunun tədrisi zamanı tərbiyəvi əhəmiyyət kəsb edir. Qoca kərpic kəsməklə məşğul olarkən bir cavan oğlan onun bu işinə öz etirazını bildirir. Bu zaman həmin misralar kompüterin ekranına gətirilir;

*"Qocasan, qocaların yerişini yeri sən,*
*Yorularsan, cavanın yerişini yerisən".*

Bu fikirlərin müqabilində ona cavab olaraq:

*Qoca dedi: "Nadanlıq havası var başında,*
*Ağsaqqala gülürsən belə cavan yaşında.*
*Qocalar kərpic kəsər, halallıqla yaşayar,*
*Kölələr, əsir qullar ağır yüklər daşıyar.*
*Qarşında boyun büküb əl açmayım deyə mən*
*Əzəldən əl atmışam belə bir peşəyə mən".*

Oğlan dediyi sözdən peşman olur, göz yaşı axıdır və geri qayıdır.

Şairin "İskəndərnamə" əsərində İskəndərin "həyat suyu" içmək arzusu ilə zülmətə səfəri zamanı bir əhvalat danışılır. Həmin əhvalat belədir: İskəndərin qoşunu həyat suyu axtarmaq üçün zülmətə səfər etməyə hazırlaşır. Hökmdar qocaların, xəstələrin bu səfərə çıxmasına qəti etirazın bildirir. Zülmətin qaranlığı onları vahiməyə salır, İskəndər zülmətdən geri qayıtmaq üçün əyar



Scanned with ACE Scanner

əskərlərdən tədbir istəyir. Kim nə deyirsə, şahın xoşuna gəlmir, yenidən fikirləşməyi tapşırır. Əskərlərdən biri qoca atasına o qədər bağlı idi ki, onu qoyub gedə bilmir. Qoca atanın 90 yaşı var idi. Baxmayaraq ki, hökmdar yaşlıların getməsinə etiraz edirdi, lakin oğul azuqə adı ilə atasını bir sandığa qoyub özü ilə aparır. Söhbət zamanı yolda ata oğlunun həyəcanlı olduğunu başa düşür və səbəbini ondan soruşur. Oğlu gecə sandığı açıb şahın tələbini atasına deyir. İskəndər ikinci dəfə tədbir istədikdə, əskər atasının dediklərini qorxa-qorxa hökmdara bildirir. Tədbir İskəndərin xoşuna gəlir, "bunu sənə kim öyrətdi" – deyə əskərdən cavab tələb edir. Əskər hökmdardan icazəsiz atasını özü ilə apardığına görə üzr istəyir və bu fikirlərin atası tərəfindən söyləndiyini bildirir. İskəndər qocanın fikrinə afərin deyir və düşüncələrini aşağıdakı kimi ifadə edir.:

*"Bilənlər padşahı olsa da yenə,*
*Bu gənclər möhtacdır qoca fikrinə".*

Başqa bir misal: görkəmli uşaq yazıçısı Abdulla şaiqin "Köç" hekayəsində (bu əsər onilliklər boyu tədris materialı kimi dərsliklərə salınıb) bir qoca obrazı var – Kərim baba. O, zəngin həyat təcrübəsinə malikdir. Keçdiyi ömür yolu həyatın-varlığın ayrı-ayrı detallarını: yağışın yağmasını, pələngin ov etməsini, qızılquşun balasını yemləməsini və s. təfərrüatı ilə öyrənməyə imkan vermişdir. Bu hekayədə yazıçının məqsədi də həyatı bilgilərin doğruluğunu oxucunun nəzərinə çatdırmaqdır. Bu baxımdan da tədris prosesində belə detallar üzərində xüsusi dayanılmalı, insanın həyati biliklərinin əhəmiyyətinin şagirdlər tərəfindən dərk edilməsinə nail olunmalıdır. Bu işdə kompüterin imkanından istifadə edilməlidir. Belə ki, obrazın həyati bilgilərini ifadə edən parçalar üzrə slayd hazırlanıb kompüterin yaddaşına ötürülməsi, sinifdə onun əsasında müsahibə təşkil edilməsi olduqca faydalıdır. Hekayədən bəzi parçalara nəzər salmaq olar: "... Atam çadırımızın yanındakı armud ağacı altında oturub Kərim baba ilə söhbət edirdi. Kərim baba birdən-birə gözlərini şimala dikərək qorxunc bir səslə: "Allah, sən saxla!" dedi. Bu sözləri də elə söylədi ki, hamımızda bir həyəcan doğdu.

Bürüşük və titrək əli ilə göyün şimal tərəfindəki kiçik qara buludu göstərərək:

*- O ilan quyruğu kimi qara buludu görürsüz? Çox ziyankar buluddur. - dedi. Bu, ziyansız keçməyəcək.*

*Atam etinasız cavab verdi:*

*- O bulud buradan çox uzaqdır, bizə ziyanı dəyməz.*

*Kərim baba iri papaqlı başını, uzun, çal saqqalını oynadaraq, bir daha diqqətlə buludu süzdükdən sonra:*

*- Buna oynaq bulud deyərlər. - deyə sözünə davam etdi.*

*- Bu hər yeri gəzər, ama çox durmaz. Bir saat yağsa, aləmi tufana verər. Bu buluddan gözüm heç su içmir, ehtiyatı əldən vermək olmaz. Alaçığın xəndəyini təmizləmək lazımdır".*

Yaxud Kərim baba söhbətinə belə başladı:

*- Bizim Borçalı meşələrində pələng olmadığını bilirsiniz; ancaq qabaq zamanlarda varmış. Qırx-əlli il bundan əvvəl kəndin yaxınlığında bir pələng görünmüşdü. Onun qorxusundan meşəyə heç kəs getmirdi. Bir gün eşitdim ki, kəndin yaxınlığında pələng üç inək parçalayıbdır; ağlım başımdan çıxdı. Tüfəngimi götürüb getdim. Uzaqda iki göz məşəl*



*kimi yanırdı. Baxdım, pələng idi; o da məni görmüşdü. Pələngin bir nəcib xasiyyəti var: hücuma başladığı yerdən üç dəfə ovun üstünə atılar. Bu üç dəfənin heç birində ovlaya bilməsə, küsüb gedər. Qalxdığı yerdən iki dəfə üstümə atıldı, üçüncü dəfə az qaldı üstümə düşsün. Tüfəngimi dikəltdim, ütümə gələrkən havada qolları arasından nişan aldım. Pələngdən elə bir bağırtı qopdu ki, səsindən dağ-daş titrədi.*

Yaxud: - *Qızılquş yuvasını çox vaxt su kənarında, uca ağacların başında tikər. Balaları yumurtadan çıxan kimi quşları öldürüb qanını içər, sonra da o qanı qusub balalarına yedirər. Balaları bir qədər böyüdükdən sonra, ovladığı quşu su kənarına aparar, tüklərini yolar, cəmdəyini suda təmiz yuduqdan sonra parçalayıb, balalarının qabağına atar.*

Hekayədən gətirilən parçalardan aydın olur ki, əsərdə müdrik qoca – Kərim baba çoxillik həyat təcrübəsində qazandığı biliyi şəhərdən gələn uşağa danışır. Əlbəttə, bu, ümumiləşdirilmiş bir nümunədir, ədəbiyyatda belə faktlar çoxdur. Təsadüfi deyil ki, hazırda məktəblərdə "Həyat bilgisi" xüsusi fənn kimi öyrədilir. Fikrimizcə, kurikulum üzrə ədəbiyyatdan dərslik hazırlanarkən, belə həyai bilik verən parçalar üzərində iş nəzərdən qaçırılmamalı, müşahibə yolu ilə şagirdlərin diqqətinin bu cür mətnlər üzərinə yönəldilməsi onlarda idrak fəallığı yaradır, söhbət obyekti olan əşya, yaxud hadisənin hər bir əlamətinə nəzər salmağa, onun haqqında düşünməyə istiqamətləndirilir. "Görəsən, Kərim baba onları nədən bilir" sualı üzərində düşünür, şagirdlər müxtəlif vaxtlarda söylənən fikrin doğruluğunu nəzərdən keçirirlər. Beləliklə, şagirdlərdə müşahidəçilik bacarığı inkişaf edir, onlar sərbəst düşünməyə alışır. Kərim babanın dediklərinin həyat həqiqətlərinə yaxınlığını müəyyənləşdirmək üçün, yeri gəlmişkən, internet materialları ilə müqayisə etmək olar və lazımdır. Məsələn, şagirdlərə tapşırılır ki, "axtarın baxın, qızılquş, pələng haqqında internetdə məlumat var?". Şagirdlər kompüterdə axtarış aparırlar. Onlardan biri "var" deyir. Oxuyurlar. Məlumatların bir-birinə yaxınlığı aydınlaşır.

Müəllim müsahibəni ümumiləşdirərək deyir: Görkəmli yazıçı Abdulla Şaiq bu hekayəni ("Köç") 1910-cu ildə yazmışdır. O, vaxt kompüter yox idi. Görürmüsünüz ki, kompüterdə qızılquşun həyat tərzinə dair verilən elmi məlumatla Kərim babanın dedikləri bir-birinə uyğun gəlir. Bunları Kərim baba həyatı müşahidə vasitəsilə qazanmışdır. Müdrik qoca surətləri keçmişə münasibətdə və gələcəkdə cəmiyyətin inkişafı haqqında düşünməkdə gənclərə örnəkdirlər. M.Ə.Sabir "Qoca bağban" mənzuməsində 100 yaşlı qocanın cavanlara verdiyi cavab bu baxımdan olduqca maraqlıdır. Qocanın sözləri ibrətamiz səciyyə daşıyır. Mənzumədə deyilir ki, qoca bağda zəhmətlə məşğuldur, yolla keçən gənclərdən biri soruşur: "Qoca, nə iş görürsən?". Qoca "alma çərdəyi (tum) əkirəm" – deyə cavab verir. Cavan oğlan qocanın yaşını, alma çərdəyinin böyüyərkən bar verəcəyi müddəti nəzərdən keçirərək, onun ömrünün buna uyğun olmadığı qənaətinə gəlir və qocaya deyir: "Sənin yaşın onun barını yeməyə imkan vermir". Qoca cavabında: "Əkiblər yemişik, əkirik yesinlər" fikrini söyləyir. Qocanın çox qısa şəkildə dediyi bu sözlərdə keçmişə minnətdarlıq, gələcəyə qayğı hiss ifadə olunur. Qocanın "əkirik yesinlər" sözlərindən məntiqi bir nəticə çıxır: bu və ya digər şəxs təkcə özünü düşünməməli, özündən əvvəl yaşayanların əməyindən istifadə etdiyi kimi,



Scanned with ACE Scanner

gələcək nəsillər üçün nə isə etməyi də unutmamalıdır. Qocanın sözlərindən çıxan bu nəticə gəncləri əməyə, faydalı işlə məşğul olmağa təhrik edir ki, bu da ümumiyyətlə, cəmiyyətin inkişafında az ya çox dərəcədə iştirak deməkdir.

Ədəbiyyatda qoca surətləri (əlbəttə, bunlar müdrik yaşda insanların ümumiləşdirilmiş timsalıdır) öz təmkinliyi, ciddiliyi ilə oxucunu (xüsusilə, insan kimi formalaşmaqda olan gəncliyi) rahatlığa, sülhə, əminamanlığa, həyatı sevməyə, məhəbbətə, humanizmə səsləyir. Süleyman Sani Axundovun "Qaraca qız" hekayəsindəki Piri baba, Hüseyn Cavidin "Topal Teymur" əsərində şair Kirmani surətləri belə surətlərdir. Şair Kirmaninin Teymurla dialoqunda cəsarətlə söylədiyi "məhəbbətlə çırpınan bir çoban qəlbi, kin və ədavət püskürən bir sultan qafasından daha şərəflidir" fikri insanın mənəvi keyfiyyəti baxımından olduqca maraqlıdır.

Müdrik qocalarda dərin bir səmimiyyət var, elə səmimiyyət ki, onu duyan, dərk edən yaşından, bacarığından asılı olmayaraq, təvazökarlığı mənəmlikdən üstün tutur. Onların göstərdiyi iradları da aradan qaldırmağa səy göstərir. Nümunə kimi, S.Vurğunun "Fərhad və Şirin" dramında Azər babanın Fərhadın tikdiyi qala barədə dediyi sözləri nəzərdən keçirmək olar:

**Azər baba:**

*"...Gəl, oğlum, yaxın gəl bir az,*
*Bu dünyagörmüşə yenə qulaq as?"*

Fərhad Azər babaya yaxınlaşır Azər baba sol əli ilə onun boynunu qucaqlayıb, sağ əli ilə qalanı göstərir.

**Azər baba:**

*Gözəldir, canlıdır qurduğun hasar,*
*Lakin diqqət yetir, bir nöqsanı var.*

**Fərhad:**

*Doğrudur, atacan, nöqsanı nədir?*

Azər baba:

*Bu böyük sənətin bir kaşanədir,*
*Ancaq... o qalanın zirvəsinə bax,*
*Yastıdır... üstünə qar yığılacaq*
*Lakin qılınc belli qurulsa hasar,*
*Üstündə göllənməz nə yağış, nə qar.*

Göründüyü kimi, Azər baba dərin həyati təcrübəsi əsasında topladığı bilik nəticəsində məhşur Azərbaycan heykəltaraşı Fərhadın insanları heyran edən sənət əsərinin nöqsanını böyük bir məharətlə göstərir. Nöqsanı elə deyil ki, sənət adamının nəinki xətrinə dəyir, hətta onu böyük məmuniyyətlə qəbul edir. Azər babanın Fərhadın boynunu qucaqlayıb qalanın zirvəsini göstərərək hiss etdiyi nöqsanı deməsi Fərhadı inandırır və elmi cəhətdən yağış suyunun bəndləri laxlatması fikrini əlavə edərək Azər babanın haqlı olduğunu təsdiq edir.

Müdrik qoca surətlərinin dilindən söylənən fikirlərin lazımlı şəkildə təhlili idraki əhəmiyyətə malikdir.



# CƏLİL MƏMMƏDQULUZADƏNİN "ANAMIN KİTABI" ƏSƏRİ TƏDRİS EDİLƏRKƏN

**Ramiz QASIMOV,**
**filologiya elmləri üzrə fəlsəfə doktoru**

Azərbaycan ədəbi fikrində azərbaycançılıq ideyası peşəkar, ideoloji konseptuallıq və məzmun cəhətdən görkəmli azərbaycançı ədib Cəlil Məmmədquluzadənin yaradıcılığında müəyyənləşir. Cəlil Məmmədquluzadədən öncə ədəbi fikir tarixində ilk dəfə "azərbaycanlı" ifadəsinin işlənməsi Əbül Üla ilə Xətib Təbrizi arasındakı mükalimədə rast gəlindiyi məlumdur. Daha sonralar bir milləti ifadə baxımından "azərbaycanlı" ifadəsi "Kəşkül" qəzetində özünə yer alır. Qafqazda yaşayan azərbaycanlıları adlandırmaq istiqamətində elmi məzmunluluq baxımından bu ifadəni görkəmli Azərbaycan publisisti, ictimai-siyasi xadim, poliqlot, alim Məhəmməd ağa Şahtaxtılı tərəfindən "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?" məqaləsində təqdim edilir. Ancaq azərbaycanlılığın təkcə millət olaraq deyil, həm də milli ideya, konseptual ideologiya və hardasa, bir ictimai hərəkat proqramı olaraq müəyyənləşməsi görkəmli ədib Cəlil Məmmədquluzadənin adı ilə bağlıdır. Bu görkəmli ədibin bütün yaradıcılığı azərbaycançılıq ideologiyasının ideya mənbəyidir. Onun ayrı-ayrı publisist yazılarında konkret azərbaycançılıqla bağlı məsələlər özünə şərh tapdığı kimi, "Ananmın kitabı", "Kamança" bədii əsərləri, "Azərbaycan" məqaləsi, "Vətəndaşlar", "Cümhuriyyət" məqalələri azərbaycançılığın proqram xarakterli mənbəyi hesab edilir. Böyük sənətkar Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsəri müəllifin milli istiqlal, dövlətçilik, müstəqillik ideallarını özündə əks etdirən çox qiymətli bədii məxəzdir. Bu pyes əsl Azərbaycannamədir, azərbaycançılıq ideyalarının mənbəyidir. "Anamın kitabı" – Azərbaycanın milli istiqlalı haqqında XX əsr boyu yazılmış silsilə əsərlərin mənəvi Anasıdır. ...C.Məmmmədquluzadənin "Anamın kitabı" əsəri ...milli-mənəvi özünüdərk, Vətənçilik, milli birlik və müstəqillik dərsliyidir. "Anamın kitabı" – Azərbaycanın ...tale kitabıdır, milli ədəbiyyatımızın ən mükəmməl Azərbaycannaməsidir". Bu mənada "Anamın kitabı" əsərində müəllif müstəqil Azərbaycan ideyası, dövlət və idarəetmə haqqında təməl məlumatlar, bilik verir. Fikrimizcə, bu əsərdəki Qurban Vətənin varlığı və azadlığı yolunda özünü mübarizəyə atıb fədakarlıq etmənin, özünü vətənə və millətə həsr etmənin, hər şeyilə vətənə aid olmanın, Zaman leksik-semantik mənasına uyğun olaraq fəlsəfi-tarixi vaxtın, zamanın, Qənbər isə məna etibarilə özündə vətənin, millətin, xalqın ruhunu, tarixini, yaddaşını hifz eləyib daşlaşdıran vətəndaşlığın simvoludur. Onlar çobandırlar, yəni əslində qayğıkeşlik, məsuliyyət, sadəlik, sevgi, yanğı onlarda cəmlənib, onların ruhunda, xarakterində kök salıb.



Scanned with ACE Scanner

Bütün müsbət milli potensial və perspektivlər çobanlarda toplanıbdır. Xüsusilə də təmiz ana dilinin yalnız onların nitqlərində gözlənilməsi və qorunması onlara olan məhəbbəti artırır. Rüstəm, Səməd Vahid, Mirzə Məhəmmədəli kimi "bir para millət başçılarının" "qatış-bulaş" dilindən özlərindən başqa heç kəs heç nə başa düşmür. Buna görə də onlara hamıdan bir köynək daha yaxın, daha doğma olan dos-doğma bacıları Gülbahar: "Qardaşlarım, sözün doğrusu budur ki, çobanların danışdığından savayı mən bir söz başa düşmədim "- deməklə onların "dillərinə" də qiymət vermiş olur. Buna görə də "ana dili qəlblərə dəvadır. Ana dili ana ruhudur, dərdlərə çarədir" fikrini Zəhrabəyim xəstələnib yerə yıxılanda Gülbahar onu doğma övladların yad dilləri ilə deyil, yad çobanların doğma, ruh oxşayan dilləri ilə dərdinə dəva eləməklə ifadə edir. Aydın ifadəsini tapmışdır ki, xalqın ziyalısı ilə xalqın sadəsi bir küllün müxtəlif zərrələri olmalarına baxmayaraq, bir-birilərini başa düşmürlər və aralarında milli-ictimai uçurum, özgəlik vardır.

Qənbərin, Zamanın, Qurbanın və onlar kimi sadə xalq adamlarının danışığı, əməli, dərdə-oda əlacları el adətincə, el təbirincə, el qaydasıncadır. Onların qoyunların yarasına sürtdüyü "nöyüt" "mədəni" dərmanlardan çox-çox təsirli və yararlıdır. Onların dil təbiri ana dilinin nüvəsi, milli ölçüsü, nümunəsi, etalonudur.

Ədibin Zaman, Qurban, Qənbər obrazlarında hakimiyyət və idarəetmə mexanizmi haqqında fikirləri öz ifadəsini tapır. Əgər müəllifin ürək yanğısı ilə təsvir etdiyi millətin "böyük" adamlarında və onların heyətində mənəmlik, intizamsızlıq, savaş və dartışma varsa, öz millətinə, vətəninə qarşı laqeydlik və uyuşmazlıq hökm sürürsə, müəllifin dərin sevgi və böyük ümidlə təsvir etdiyi sadə adamlarda – çobanlarda və onların heyətində bir-birinə hörmət və qayğı, möhkəm intizam, qayda-qanun, vətənə, torpağa, elə sevgi, məhəbbət və bağlılıq hökm sürür. Bu mənada çobanların sürü ilə təmasında əsl dövlət mexanizmi və dövlətçilik qaydaları, demokratik, humanist idarəetmə ənənələri özünü göstərir. Bu baxımdan akademik İ.Həbibbəyli yazır ki "C.Məmmədquluzadə xalq, milli birlik, vətən motivlərini "Anamın kitabı" əsərindəki Zəhrabəyim ana, Gülbahar və habelə, Qənbər, Qurban, Zaman obrazları vasitəsi ilə çatdırmağa çalışmışdır. Əsərdəki çoban surətləri milli mənəviyyatın, xalq adət-ənənələrinin, doğma torpağa bağlılığın həqiqi yaradıcısı kimi çıxış edirlər. Cəlil Məmmədquluzadənin Gülbahar obrazı Azərbaycan ədəbiyyatında Vətən, millət və istiqlal amalının dramatik üverturasıdır". Bizcə, bunları da əlavə etmək olar ki, müəllifin bu simvolik obrazlar ansamblında Zəhrabəyim ana Vətən, qızı Gülbahar vətənin taleyi (gələcəyi), qardaşlar Rüstəm bəy, Səməd Vahid, Mirzə Məhəmmədəli millət başçıları, rəhbər, lider, çobanlar- Zaman, Qurban, Qənbər isə xalq, millət anlayışlarını ifadə edirlər.

Müəllif adam yerinə qoyulmayan çobanların "çoban-çoluq dili" hesab edilən dillərini ana Zəhrabəyimin, onun timsalında vətənin dərdinə dərman görür. Onların danışdığı dildə ananın kefi, halı, ruhu köklənib, buna görə də bu dil onun kefini açmağa, dərdini dağıtmağa qadirdir. Hətta üç qardaşın danışığı, dili , ədası o qədər ana ilə bacını bezikdirir, usandırır ki, bir anlığa



çobanların şirin danışığına hava –su kimi ehtiyac hiss edəyir, darıxırlar. Qəribədir ki, başqalarının bir-birini başa düşməsi, dil tapması üçün lüğət hazırlayan Rüstəm bəy özü doğma qardaşları ılə dil tapa bilmir.Yerə-göyə xüsuf-küsuf duası yazıb guya onları fəlakətdən xilas etmək istəyən Mirzə Məhəmmədəli öz qardaşları ilə bir olmağa, doğma ailəni dağılmaqdan xilas etməyə gücü yetəcək bir dua "yazmağı" bilmir. Elmi-qafiyə dərsi ilə sözlərin bir-birinə poetik uyğunlaşmasını öyrədən Səməd Vahid özü qardaşları ilə bir ailə doğmalığı ilə uyğunlaşa, birliyə uya bilmir, bir ailənin qayda-qanunlarına sığa, öyrəşə bilmir. Etiqad ayrılığından bir-birinə sözü xoş gəlməyən qardaşları vahid bir məxrəcə gətirmək üçün yeganə bir kitab (ideya, qanun) lazımdır: " Qaldı bircə kitab! Bu da anamın kitabı!" Bu, Vətən kitabıdır, vətən naminə birləşmənin qanunu kitabıdır. Məhz bu kitab xilasın, nicatın yolunu – düsturunu göstərən kitabdır. Yalnız bu kitaba etiqadla ittihada gəlmək mümkündür. Bu kitab o kitabdır ki, buyurur: "Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır günün başına dolanırlar. Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar; çünki ay və ulduz şəmsin parçaları olan kimi bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamil-həyat əziyyət edəcək: nə qədər canında nəfəs var peşiman olacaq". Vətən öz taleyinin müqəddəratını "Anamın kitabı" əsasında həll etməyi tələb edir. Budur vətəndaşlığın düsturu, aksiomu, azərbaycançılığın qanunu, azərbaycanlılığın kəlmeyi-şəhadəti, Vətən adlı Allah yolunda namazın sözləri!.. "Anamın kitabı"nda vətəndaşlar vətəndə dövlət qurub onun keşiyində ayıq-sayıq durmaqla var olmaq qanununu ifadə edir. Burda diqqəti çəkən məsələlərdən biri də ananın kitabı, atanın vəsiyyətnaməsi olan kitabın özü və üslubu məsələsidir. Fikrimizcə, ədib bu vəsiyyətnamənin üslubunu müqəddəs "Qurani-Kərim"in (və digər müqəddəs dini kitabların) üslubuna uyğunlaşdırmışdır. Düşünürük ki, bunu məqsədli edən ədib xalq, kütlə arasında "Quran"a olan hədsiz inamı nəzərə alaraq öz "Atanın kitabı"nda da (bu, əslində atanın yazdığı, ancaq ananın saxladığı kitab olduğu üçün belə adlandırılıb. – R.Q.) bu üslubu, diktə formasını əsas götürmüşdür. Diqqət edilsə, atanın vəsiyyətnaməsində işlənən "Vay o kəsin halına ki … Mən etiqad edirəm ki…" kimi ifadə formaları eynən tez-tez "Qurani-Kərim"də də (və digər dini müqəddəs kitablarda da) işlənir və aparıcı müraciət üslubunu təşkil edir. Vəsiyyətnamədəki yığcamlıq, məzmunluluq, diqtə, təntənə, əzəmət və s. elə "Qurani-Kərim"də də aparıcılıq təşkil edir. Vəsiyyətnamədəki "Mən etiqad edirəm ki…" başlıqlı mətn İslam dininin "Mən şəhadət edirəm ki, Allah birdir…" başlıqlı müsəlmançılığın "kəlmeyi-şəhadət"ini xatırladır və bu mənada Mirzə Cəlil bu yığcam, üslubca zəngin kiçik mətnlə azərbaycançılığın "kəlmeyi-şəhadət"ini yazmış olur. Bundan başqa düşünmək olar ki, C.Məmmədquluzadə yeganə sənətkarlardandır ki, ayı və ulduzu atanın yadigar qoyduğu "Anamın kitabı"nda təsvir etməklə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağına işarə etmiş, bu əsəri ilə sanki ilk müstəqil Azərbaycan dövlətinə olan rəğbətini bildirmiş, üç qardaşın



Scanned with ACE Scanner

sıması̇nda onların barışmaz münasibətləri, anlaşmazlıqları və s. timsalında onun süqutu səbəblərini təsvir etmişdir.

"Azərbaycan ədəbi-ictimai fikir tarixində, sözün geniş mənasında, milli istiqlal, demokratiya və Vətən azadlığı uğrunda mübarizənin ön cərgəsində dayanan", "yaradıcılığı gələn hər yeni nəsil üçün müstəqillik, azərbaycançılıq, millilik və vətəndaşlıq tərbiyəsi məktəbi" olan, həmişə yaradıcılıq "qəsdi Azərbaycan üzərinə" olan böyük azərbaycançı ədib Cəlil məmmədquluzadə "dünya-aləmin dəyişildiyi, bütün zadların dəyişilib öz mənasını tapdığı" bir vaxtlarda "vətən, vətən, vətən, millət, millət, millət, dil, dil, dil. Bəni noi-bəşər üçün bu dairələrdən kənar özgə bir nicat olmadığını" "lüt-üryan vətən qardaşlarına" səslənirdi. Görkəmli ədibin "Azərbaycan" məqaləsi bütövlükdə azərbaycançılığın platforma və proqramı hesab edilir. Onun bu məqaləsində ana dili, ana vətən, dövlətçilik, ərazi bütövlüyü və s. ilə bağlı irəli sürdüyü ideyalar müəyyənləşdirdiyi azərbaycançılıq məfkurəsi və vəzifələri kimi yer tapır.

Beləliklə, Cəlil Məmmədquluzadə yaradıcılığı ədəbiyyatımız üçün əsl milli özünüdərk kitabı, istiqlal, oyanış və maarif dərsliyidir. Təsadüfi deyildi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Cəlil Məmmədquluzadə yaradıcılığını qiymətləndirərkən deyirdi: "Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətləri, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasında, yaranmasında və onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir. ...Cəlil Məmmədquluzadə bu gün bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır".

***Diqqət! Diqqət!***

*Biz Sizə – zəngin pedaqoji iş təcrübəsinə malik orta məktəb müəllimlərinə, elmi-metodik tədqiqatlarla məşğul olan alimlərə müraciət edirik. Azərbaycan dili və ədəbiyyatının tədrisi ilə bağlı iş təcrübələrinə, metodikaya dair yazılara ehtiyacımız var. Jurnalımızla yaxından əlaqə saxlayın və onu məqalələrinizlə təmin edin. Unutmayın ki, o, Sizin jurnalınızdır.*

***Redaksiya.***



# SİNİFDƏNXARİC MƏQSƏDYÖNLÜ İŞ FORMASI: MÜZAKİRƏ

**Əsmər BƏDƏLOVA,**
**pedaqoji elmlər üzrə fəlsəfə doktoru,**
**AMİ-nin dosenti**

***Açar sözlər:*** *Asudə vaxt. Müzakirə. "Bahadır və Sona".*

Şagirdlərin asudə vaxtının düzgün təşkili pedaqoji kollektivlərin əsas vəzifələrindən biridir. Lakin müşahidələr göstərir ki, hazırda dərsdən sonrakı vaxt əsasən, bir istiqamətə – əlavə hazırlığa sərf olunur.Əlbəttə, elm öyrənmək, bilik qazanmaq gözəldir; hərtərəfli inkişaf etmək isə daha gözəldir. Bu da dərslə dərsdənkənar vaxtlarda təşkil olunan işlərin vəhdətində mümkündür.

Məlumdur ki, asudə vaxt valideynlərlə və müvafiq məktəbdənkənar müəssisələrlə sıx əlaqə saxlamaqla, şagirdləri fərdi, qrup halında və kütləvi sinifdənxaric işlərə cəlb etməklə səmərəli təşkil olunur. Bu, adi əyləncə deyil, ağlın, zəkanın, mənəviyyatın, zövqün inkişafına istiqamətlənmiş, həm təlim, həm də tərbiyə əhəmiyyətli iş tərzidir.

Bakalavr pilləsində təhsil alan tələbələrin əksəriyyətinin kasıb nitqi, məhdud davranış mədəniyyəti göstərir ki,onlar məktəbdə test suallarına cavab hazırlamaqdan başqa faydalı işə cəlb edilmir, yaxud da az cəlb edilirlər. Öyrənilənlərin daş üzərinə yazıldığı yaş dövründə görülməyən işlərin acı təzahürü isə özünü çox tez göstərir; ekranlara baxmaq kifayətdir. Ona görə də "hərdən" sinifdənxaric işlərə də müraciət etmək pis olmaz.

Yuxarı sinif şagirdlərinin yaş dövrlərinə uyğun, ağıla və məntiqə söykənən iş növləri çoxdur. Onlardan biri *müzakirədir*.

Müzakirə bu günün ən aktual, məqsədyönlü iş forması olaraq şagirdləri sövq edir ki, fakt və hadisələri təhlil edərək vacib olanı kollektiv surətdə axtarsınlar və obyektiv nəticəyə gəlsinlər. İndiki informasiya bolluğu şəraitində bu,problem yönündən tarixə ekskurs etməklə də mümkündür. Hansı mərhələlərdən keçib gəlmişik? Nə kimi çətinliklərimiz olmuşdur? Bu cür suallara cavab tapmaq, uğurlarımızla bərabər, kəsirlərimizi də öyrənmək, onlardan ibrət almaq heç də pis deyil. Fikrin təsdiqi üçün Bakı məktəblərinin birində X1 sinifdə keçirdiyimiz müzakirəni nümunə gətirə bilərik.

Mövzu üçün "Bahadır və Sona" əsərini müzakirə obyekti seçdik. Yardımçı mənbə olaraq M.Ə.Sabirin "Çatlayır, Xanbacı, qəmdən ürəym" satirasının, Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" əsərinin "Neft sənayesinin inkişafı" bölməsindən "Hacı Zeynalabdin Tağıyev" oçerkinin oxusunu təklif etdik.

Müzakirəyə hazırlıq bir neçə həftə çəkdi.Təklif edildi ki, hazırlıq zamanı aşağıdakı suallara cavab tapılsın:

-Bahadırın Sona ilə tanışlığının səbəbi.



Scanned with ACE Scanner

görüm, lopabığ Ambarsumun əvəzinə müsəlman arvad həkim olsaydı, şəriətə hansı düzgün gələrdi? Arvad həkimlərinə, müəllimlərə ehtiyacımız çoxdur."

Müzakirə zamanı əldə edilən daha bir mühüm nəticə: Biz millətin qeyrətini çəkən Hacı Zeynalabdin Tağıyevə və onun sözünə qulaq asıb əməl edən milyonçulara rəhmət oxumalıyıq. Özü üçün deyil, milləti üçün yaşayan o dövr ziyalılarının qədrini bilməliyik. Onlar tarixən mədəniyyətin zirvələrində olmuş, sayqısızlıq, biganəlik, özünə hörmətsizlik, özüə və özününkülərə dəyər verməməzlik səbəbindən ətraf qonşulardan və dünyadan geridə qalmış milləti ayağa qaldırmaq yolunda fədakarlıq göstərmişlər. Nəriman Nərimanov da həmin böyük şəxsiyyətlərdən biridir. Onun "Bahadır və Sona "romanı çox aktualdır. Bunu həmişə yaddaşımızda saxlamalı və səhvə yol verməməliyik.

Şagirdlərin müzakirə nəticəsində əsəri belə dərk etmələri və obyektiv münasibət bildirmələri göstərir ki, təlim və tərbiyə işində sinifdənxaric tədbirlərin müstəsna əhəmiyyəti vardır. Lakin bu işdə yalnız müsbət xüsusiyyətləri təbliğ etməklə uğur qazanmaq olmaz. İndiki rəqəmsal dünyada bolluca informasiya əldə edən yeniyetmə və gənclərə hər şeyi olduğu kimi çatdırmaq, qüsurlardan nəticə çıxarmağı da öyrətmək lazımdır.

### ƏDƏBİYYAT


1. *Həsənli B. Ədəbiyyatın tədrisi metodikası.Bakı,"Müəllim",2011.*
2. *Ağayev M. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Bakı, ADPU mətbəəsi, 2011.*
3. *Nərimanov N. Seçilmiş əsərləri.Bakı,AME,2001.*


### РЕЗЮМЕ

**Целенаправленная форма работы дня – обсуждение**


*В статье говорится об учебно-воспитательном значении внекласс ных работ, в том числе о пользе обсуждения в ряду внеклассных работ, который обеспечивает интеллектуальную активность учащихся. И обсуждение представляется здесь в примере романа Наримана Нариманова «Багадур и Сонна».*


### SUMMARY

**Exspedient Aktion Form of the Day – Discussions**


*The article deals with the pedagogical and educational importance of out- of- klass work and the use of discussions providinq the pupils' intellektual aktivity within the out- of- class work. Discussion of the novel "Bahadur and Sona" is presented as an eksample.*




# M.F.AXUNDZADƏNİN "HACI QARA" ƏSƏRİNİN TƏDRİSİ


**Bilal MURADOV,**
**ADPU-nun dosenti**


Proqrama əsasən VIII sinifdə tədris olunan "Hacı Qara" komediyası həcmcə böyükdür. Əsəri bütövlükdə sinifdə oxutmaq mümkün deyil. Buna görə də müəllim sinifdə oxudulacaq hissələri əvvəlcədən müəyyənləşdirməlidir. Elə parçalar seçilməlidir ki, əsərin əsasını təşkil etsin və əsas obrazların keyfiyyətlərini əks etdirə bilsin. Bu məqsədlə birinci məclisin əvvəli və sonu (ixtisarla), habelə II məclis (ixtisarla) sinifdə oxudulmalıdır. Bundan başqa beşinci məclisin bütünlüklə sinifdə oxudulması məsləhətdir.

**Birinci dərs.** VIII sinifdə şagirdlər ilk dəfə olaraq dram əsəri ilə tanış olurlar. Buna görə də komediyanın öyrənilməsinə başlarkən əvvəlcə şagirdlərə ədəbi növ və janrlar haqqında yığcam məlumat vermək lazımdır. Müəllimin qısa izahatından sonra dərslikdəki ədəbiyyat nəzəriyyəsi materialının oxusuna vaxt ayrılır.

Bundan sonra müəllim rolları şagirdlər arasında bölüşdürür. Bu zaman hər şagirdin ona tapşırılan obrazın sözünü necə deməsi üzrə qabiliyyəti nəzərə alınır.

Müəllim oxunu istiqamətləndirmək üçün bunları deyir:

- Oxuyacağınız hissədə remarkaları aparıcı oxumalıdır. Həm də həmin sözlər orta tonla, aramla oxunmalıdır. Heydər bəyin sözləri, xüsusilə monoloqu fərqli deyilməlidir. Onun sözlərinin oxusunda uca ton, şikayət tərzi üstünlük təşkil etməlidir. Başqa bəylərin – Səfər bəyin, Əskər bəyin sözləri də öz vəziyyətlərinə uyğun - əsasən məsləhət intonasiyası ilə oxunmalıdır.

Dərslikdə bir sıra çətin sözlərin mənası verilmişdir. Bundan əlavə, oxuya başlamazdan əvvəl müəllim həmin hissədə şagirdlərin başa düşmədiyi sözlərin də izahını verməli və bunları lüğət dəftərinə yazdırmalıdır.

Əgər birinci məclisdə əsas yeri Heydər bəy tutursa və biz onun həyat tərzi, xasiyyəti ilə tanış oluruqsa, ikinci məclisdə komediyanın digər əsas surəti Hacı Qara ilə tanış oluruq. Buna görə də onun sözlərinin oxusuna xüsusi diqqət yetirilməlidir. Burada Hacı Qara cilddən-cildə girir. Əvvəlcə malının satılmamasından, yüz manat zərərə düşməsindən şikayətlənir, ona mal verənə qarğış edir. Bəylərin ondan mal almaq üçün gəldiklərini güman edib sevinir, bəylərə yaltaqlanır. Bəylərin mal almadıqlarını bildikdə isə onları dükandan qovmaq istəyir. Özünün igidliyindən dəm vurur və s. Hər dəfə də onun danışıq tərzi – intonasiyası dəyişir. Onun danışığı, hərəkətləri gülüş doğurur. Oxu zamanı bütün bunlar nəzərə alınmalıdır. Onun sözləri gah mülayim, gah kobud, gah da lovğalıq tembrində səslənməlidir. Başqa



Scanned with ACE Scanner

obrazların sözləri də onların xarakterinə və konkret məqamdakı əhvalına uyğun oxunmalıdır.

**İkinci dərs.** Əgər I və II məclislərin oxusunda əsas məqsəd şagirdlərə əsəri ifadəli oxumağı öyrətməkdirsə, beşinci məclisin oxusunda məqsəd obrazların əsas xüsusiyyətlərini aydınlaşdırmaq olmalıdır.

Sinifdə V məclisin oxunması təsadüfi deyildir. Əvvəla, bir dərsdə həmin məclisi oxuyub başa çatdırmaq mümkündür. Onu 25-30 dəqiqəyə oxumaq olar. İkincisi, həmin məclisdə əsərdəki, demək olar, bütün əsas obrazlar iştirak edir və burada onların əsas keyfiyyətlərini ifadə edən detallar, ştrixlər vardır.

Sinifdə oxu zamanı qarşıya qoyulan məqsədə uyğun olaraq əvvəlcə şagirdlərə aşağıdakı suallar yazdırılır və onlara tapşırılır ki, oxu prosesində həmin məsələlərə diqqət yetirsinlər.

Sinifdə qruplar yaradılır və hər qrupa bir sual verilir.

**I qrup:** Heydər bəyin Sona xanıma münasibəti necədir, Sona xanımın Heydər bəyə münasibəti necədir?

**II qrup:** Ohan yüzbaşı haqqında nə deyə bilərsiniz? Yazıçının ona münasibəti necədir?

**III qrup:** Bəylərin naçalnikə münasibəti necədir? Nə üçün?

**IV qrup:** Hacı Qaranın xüsusiyyətlərini, xəsisliyini bildirən sözləri göstərin.

Oxu qurtardıqdan sonra qruplardan aşağıdakı cavablar alınır.

**I qrup:** Heydər bəy Sona xanımı sevir və onunla çox hörmətlə danışır. Sona xanım da Heydər bəyi sevir və onun qayğısına qalır. Quldurluqla, hətta qaçaqmalçılıqla məşğul olmasına qətiyyətlə etiraz edir. Naçalnikə yalvarır ki, Heydər bəyi həbs etməsin.

**II qrup:** Ohan yüzbaşı yalançıdır, qorxaqdır, boşboğazdır, özü haqqında yüksək fikirdədir. Deyir ki, quldur həmişə tatarlardan, yəni azərbaycanlılardan olar, naçalnik isə deyir ki, çünki ermənilər cəsarətsizdirlər, qorxaqdırlar.

**III qrup**: Heydər bəy və digər bəylər naçalnikə hörmətlə yanaşırlar. Çünki pis əməllərlə məşğul olduqlarına görə, ondan qorxurlar. Hətta Dağıstanda çarın düşmənlərinə qarşı vuruşmağa hazır olduqlarını bildirirlər.

**IV qrup:** Hacı Qara naçalnikdən qorxur, ona yaltaqlanır. O, naçalnikə deyir ki, malım yetişməsə ölləm, murovlar məni tutanda cibimdən yarım abbasını çıxardıblar, buyur, versinlər.

"Hacı Qara" komediyasının məzmununun bütövlükdə öyrənilməsi ev tapşırığı kimi verilir.

**Üçüncü dərs.** Keçmiş dərs soruşulduqdan sonra şagirdlərə tapşırılır ki, əsərin planını adlıq cümlələrlə yazsınlar. Sonra əsərin qısa məzmununun planı oxudulur.

Planın bir variantı aşağıdakı şəkildə ola bilər.

***I məclis.*** Heydər bəyin zəmanədən şikayəti, onun Əskər bəylə, Səfər bəylə və Sona xanımla söhbəti



***II məclis.*** Ağcabədidəki dükanda Hacı Qaranın şikayəti, ona mal verənlərə qarğış etməsi, evdə arvadı Tükəzin onu məzəmmət etməsi, bəylərlə söhbəti, nökər Kərəməlinin Hacı Qaradan şikayəti.

***III məclis.*** Hacı Qaranın çaya düşməsi, Ohanın başçılıq etdiyi dəstəni Heydər bəyin qorxudub qovması.

***IV məclis.*** Hacı Qaranın erməni kəndlilərinə hədə-qorxu gəlməsi. Murovun Hacı Qaranı və erməni kəndlilərini həbs etməsi.

***V məclis.*** Heydər bəyin Sona xanımla söhbəti. Naçalnikin Heydər bəylə söhbəti. Heydər bəyin və digər bəylərin naçalnikdən çəkinməsi. Kərəməlinin gətirilməsi. Hacı Qaranın özündən getməsi. Naçalnikin bəyləri, Hacı Qaranı və başqalarını bağışlaması.

Bundan sonra dərslikdə "Ədəbiyyat nəzəriyyəsi" başlığı altında verilmiş mətndən axırıncı üç abzas yenidən oxudulur. Diqqət aşağıdakı fikirlərə cəlb edilir:

"Komediyada gülüş müxtəlif yollarla yaradılır. "Hacı Qara" əsərindəki Heydər bəy at oynadıb karvan çapmaqdan danışarkən bu, gülüş doğurmur. Çünki o, belə işə qabildir. Hacı Qaranın yaraqlanıb lovğalanması isə şiddətli gülüş doğurur. Çünki onun sözləri ilə fiziki imkanları arasında böyük uyğunsuzluq var. Xəsis olduğu qədər də qorxaq olan Hacı Qaranın əsərdə belə təqdim edilməsi müəllifin gülüş doğurmaq üçün istifadə etdiyi bədii vasitələrdən biridir".

Şagirdlər nəticə çıxarırlar: real vəziyyətə uyğun olmayan hərəkətlər, sözlər gülüş doğurur. Belə hallara komik vəziyyət deyilir.

Şagirdlərə tapşırılır ki, komediyada olan komik vəziyyətləri müəyyənləşdirsinlər.

Şagirdlər aşağıdakı komik vəziyyətlərin olduğunu bildirirlər.

1. Hacı Qara varlı kişidir. Buna baxmayaraq alver olmayanda ona mal verənlərə qarğış yağdırır.

2. Hacı Qara bəylərin mal almağa gəldiyini güman edib onları hörmətlə qarşılayır. Onlara qəlyan verir, parçaları qarşılarına tökərək deyir: alın, aparın. Bəylərin mal almadıqlarını bildikdə onları dükandan qovur. Deyir: İndi gedin, bir özgə vaxt gələrsiniz. Bəylərin ona fayda verəcəyini bildikdə isə deyir: hacı sizin qadanızı alsın. Yenidən onlara yaltaqlanır.

3. Hacı Qara evdə tüfəng – tapancasını, xəncərini, qılıncını səfər üçün hazırlayır. Bu zaman arvadı onun xəsisliyini, qorxaqlığını ifşa edərək deyir: "Yəni sən bu yaraqları qurşanıb olar ilə adam qorxudacaqsan? Bu tüfəng – tapancanın iyirmisini üstünə götürəsən, mən bu arvadlığım ilə səndən qorxmaram. Torpaq sənin başına".

4. Sonuncu məclisdə naçalnik Ohan yüzbaşıdan soruşur ki, sizə rast gələn bu Heydər bəy idimi? Ohan yüzbaşı suala cavab vermək əvəzinə özünü tərifləyir. Deyir ki, mən iyirmi ildir hökümətə qulluq edirəm. Mənim bəylik şəhadətnaməm var. Ən gərgin və ağır bir vəziyyətdə Hacı Qara naçalnikə deyir ki, yasovullar cibimdən yarım abbası, yəni on qəpik çıxarıblar, buyurun versinlər.



Scanned with ACE Scanner

**Dördüncü dərs.** "Hacı Qara" komediyasının tədrisinə həsr edilmiş dördüncü dərs əsərin təhlilinə həsr olunur. Tapşırıqlar hələ üçüncü dərsdə verilir. Sinif dörd qrupa bölünür. Tapşırıqlar hazırlanarkən dərslikdə, "Əsərin təhlilinə hazırlaşın" başlığı altında verilən mətndən istifadə edilir və şagirdlərə deyilir ki, evdə kitabdakı mətni oxusunlar və tapşırıqlar barədə fikirləşsinlər. Tapşırıqlar aşağıdakı şəkildə verilir.

***I qrupa.*** Hacı Qara obrazı. Xəsisliyi, qorxaqlığı, özünü öyməsi. Hacı Qaranın bu xüsusiyyətləri hansı vasitələrlə göstərilir? Müəllifin bu obraza münasibəti necədir?

***II qrupa.*** Heydər bəy obrazı. İgidliyi, mərdliyi, doğruçuluğu, sevgilisi qarşısında zərifliyi.

***III qrupa.*** Qadın obrazları. Sona xanımın Heydər bəyi sevməsi, onun xətalardan uzaq olmasına çalışması. Tükəzin fəallığı, ərinin xəsisliyini ifşa etməsi, həm də onun qayğısına qalması.

***IV qrupa.*** Çar məmurları. Naçalnikin azərbaycanlılara münasibəti. Ohanın qorxaqlığı, özünü öyməsi. Müəllifin çar rejiminə münasibəti.

Qrupların cavabları təxminən aşağıdakı məzmunda olur.

**I qrup.** Hacı Qara dünya ədəbiyyatında yaradılan məşhur xəsis obrazlarından biridir. Müəllif onun xəsisliyini müxtəlif yollarla açıb göstərir. Hələ birinci məclisdə Hacı Qara özü iştirak etmir, lakin onun xəsisliyi haqqında danışılır. Heydər bəy deyir: "Hacı Qara, deyirlər, çox xəsisdir, o adama pul verər?" Əskər bəy isə deyir: "Tamahkar adamdır, ondan ötrü, həm pul verər, özü də bizimlə gedər".

Hacı Qaranın xəsisliyi ikinci məclisdə Tükəzin dili ilə daha dərindən açıqlanır. Tükəz deyir. "Ay göyərmiş! Uşaq aşıq yığan kimi bu qədər pulu yığıb nə eləyəcəksən? Yüz il ömrün ola, yeyəsən, geyəsən, içəsən sənin pulun tükənməz. Yüz manat zərərdən ötrü nə özünü öldürürsən? Öz malını nə özün yeyib-içirsən, nə əyalına məsrəf edirsən. Sən ölsən, heç olmazsa arvad-uşağın doyunca çörək yeyər".

Hacı Qara pulu gəlirsiz verməkistəmir. Deyir ki, doğrusu, mən faydasız pul verməyi öyrənməmişən. Buradan aydın olur ki, o təkcə alverlə deyil, həm də sələmçiliklə pul qazanmaq istəyir.

Hacı Qaranın xəsisliyinin yüksək nöqtəsi naçalnikin adamlarının nökəri Kərəmalini gətirən zaman özündən getməsidir.

M.F.Axundzadə Hacı Qaranın hərəkətlərini bəyənmir, oxucuda, tamaşaçıda ona nifrət oyatmağa çalışır. Onları Hacı Qaranın xasiyyətlərindən uzaq olmağa istiqamətləndirir.

**II qrup.** Heydər bəy başqalarından öz igidliyi, qoçaqlığı ilə fərqlənir. Hacı Qara və digər bəylər Təbrizə qaçaqmal dalınca gedəndə onun igidliyinə, qoçaqlığına güvənirlər. Heydər bəy Təbrizdən qayıdanda yüzbaşı Ohanın dəstəsinə hərbə-zorba gəlib onları qorxudur və qaçmağa məcbur edir.

Heydər bəy igid olduğu qədər də düzdanışandır. Beşinci məclisdə o, qaçaqmal dalınca getməsini naçalnikə etiraf edir. Deyir ki, mən adam soymamışam. Əgər bir nəfər mənim üzümə dursa mən qanımı sənə halal



edirəm. O, Hacı Qaranın və başqalarının yalan danışdığını söyləyir və hər şeyi olduğu kimi danışır.

Heydər bəy zabitəli, igid bir adam olmaqla bərabər həm də incə qəlbə malikdir. Düşmənləri zağ-zağ əsdirən Heydər bəy sevgilisi Sona xanımla söhbətində zərif qəlbli bir gəncdir. O, Sona xanımla çox nəzakətlə danışır. Sona xanımın quldurluğa, oğurluğa, qaçaqmalçılığa getməmək haqqında təklifinə diqqətlə yanaşır. Toy edərək Sona xanımla qovuşmasına şükranlıq edir. Sona xanıma deyir: "Allah, verəninə şükür! Yuxudumu, ya görəsən, zahirəndir ki, mən səninlə qabaq-qabağa oturmuşam... Axır ki, arzuma yetişdim!"

**III qrup.** XIX əsrdə qadınlara müti, passiv adamlar kimi baxılırdı. Buna baxmayaraq, M.F.Axundzadə çox fəal qadın obrazları yaratmışdır. Komediyada iştirak edən qadınlar kişilərdən daha fəaldır.

Sona xanım Heydər bəyi sevir və toy olmadan onunla qaçmağa hazırdır. Onun sevgisi kor deyildir. Heydər bəyi həmişə öz yanında görmək istəyir və onu qaçaqçılıqdan, quldurluqdan əl çəkməyə çağırır.

Naçalnik Heydər bəyi həbs etmək istəyəndə Sona xanım ona deyir ki, "mən dilimdən kağız verirəm ki, bundan sonra Heydər bəyi heç bir yaman işə qoymuyam".

Tükəz də son dərəcədə fəaldır, əri Hacı Qaradan mühakiməlidir. Ərinin xəsisliyini, qorxaqlığını ifşa edir və bir qədər deyingən görünür. O, eyni zamanda ərinə sədaqətlidir, onun qayğısına qalır. Əri evə gəlmədiyinə görə Heydər bəyin yanına gəlib deyir ki, kişimi tovlayıb apardınız, yoxsa ölümə verdiniz? Mən ərimi sizdən istəyirəm. Tükəzin keçirdiyi təlaş, narahatlıq göstərir ki, o əri evin sahibi bilir, onsuz yaşamağın çətin olduğunu başa düşür.

**IV qrup.** M.F.Axundzadənin özü çar idarəsində işləyirdi. Buna görə də komediyada çar üsul-idarəsini açıqdan-açığa pisləyə bilməzdi. Çarizmin qaçaqçılığı, quldurluğu ləğv etməsini bəyənir. Naçalniki ədalətli bir məmur kimi qələmə verir.

Bununla belə, əsərdə çar üsul-idarəsinin nöqsanları dolayısı yolla tənqid edilir. O, çar idarəsindəki silistçiliyi, yəni istintaqı, kobudluğu kəskin tənqid atəşinə tutur. Bunu Kərəmalinin və Hacı Qaranın dili ilə ifadə edir.

Naçalnikin azərbaycanlılara münasibəti də yaxşı deyildir. Onun nəzərincə, qaçaq, quldur azərbaycanlılardan olur. O, Heydər bəyə deyir: "Tatar tayfası tamam yalançı olar. Sən də o cümlədənsən, sözünüzə etibar eyləmək müşküldür".

Belə bir cəhət də diqqəti cəlb edir ki, çarın yüksək rütbəli məmurları ermənilərə arxalanırlar. Məsələn, sərhəddi yüzbaşı Ohanın rəhbərlik etdiyi dəstə qoruyur. Ermənilər nə qədər qorxaq, yalançı olsalar da yenə çar məmurlarının əlaltılarıdırlar.

Qruplar dinlənilərkən onların cavablarına digər şagirdlərin əlavələr etmələrinə geniş imkan yaradılır.



Scanned with ACE Scanner

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ TƏLİMİN TƏRBİYƏLƏNDİRİCİ PRİNSİPİNDƏN İSTİFADƏ

**Oqtay ABBASOV,**
**Azərbaycan Dillər Universitetinin dosenti**

***Açar sözlər:*** *təlim, tərbiyələndirici prinsip, yollar.*

*Jurnalımızın ötən ilin son sayında təlim prinsipi, onun mahiyyəti, əhəmiyyəti şərh edilmiş, məsələ Azərbaycan dili və ədəbiyyat dərslərində konkret olaraq təlimin həyatla əlaqələndirilməsi prinsipinin nümunəsində şərh olunmşdur. Mövcud pedaqoji ədəbiyyata, məktəb təcrübəsinə əsaslanmaqla qələmə alınmış məqalənin "Azərbaycan dili və ədəbiyyat dərslərində təlim prinsiplərindən istifadə doğrudanmı zəruridir?" sualı ilə başlaması təsadüfi deyildi; fəaliyyətin səmərəsi, hər hansı elmi ideyanın tətbiqinin nəticəsi ilk növbədə işə münasibətdən, ideyalara inamın dərəcəsindən asılıdır. İnamın gücü nəticəyə birbaşa təsir edir. Yazılanlar təlim prosesində, o cümlədən, Azərbaycan dili və ədəbiyyat dərslərində istifadə edilən prinsiplərə də aiddir. Adı çəkilən məqalə ilə bağlı məktəb müəllimlərinin rəylərinin öyrənilməsi, redaksiyamıza müraciətlər göstərdi ki, təlim prinsipləri ilə bağlı dərc olunmuş yazı müsbət qarşılanmışdır. Müəllimlər ən müasir təlim tərzlərindən istifadənin özündə də təlim prinsiplərinin tətbiqinin əhəmiyyətini qeyd edir, belə problemlərə həsr olunmuş yazıların faydalı olduğunu göstərirlər. Ona görə də təlimin digər prinsiplərindən Azərbaycan dili və ədəbiyyat dərslərində istifadə ilə bağlı yazıları dərc edirik.*

Təlimin həyatla əlaqələndirilməsi prinsipi təlimin başlıca vəzifələri ilə bağlıdır. "Təlim hansı vəzifələri yerinə yetirir?" sualı məsələni aydınlaşdırmağa kömək edir. Pedaqoji ədəbiyyatda ənənəvi olaraq təlimin təhsilləndirici və tərbiyələndirici prinsipi şərh edilmişdir. Lakin son dövrlərdə təlimin vəzifələrinə daha biri – inkişafetdirici vəzifəsi daxil edilmişdir. Professor N.Kazımov haqlı olaraq bu vəzifini təlimin əsas vəzifələrindən biri kimi ədəbiyyata gətirmişdir. Adı çəkilən vəzifələr bir-biri ilə nə qədər sıx bağlı olsa da, onların hər birinin səciyyəvi xüsusiyyətləri var. Bu yazıda konkret olaraq **təlimin tərbiyələndirici prinsipindən** Azərbaycan dili və ədəbiyyat dərslərində istifadə məsələlərini şərh edəcəyik. Yuxarıda qeyd etdik ki, bu prinsip təlimin mühüm vəzifələrindən biri ilə bağlıdır. Bildiyimiz kimi, təlim təkcə bilik, bacarıq və vərdişlər vermir, eyni zamanda tərbiyə edir.

Yeri gəlmişkən, yada salaq ki, müasir şəraitdə tərbiyə məhdud bir dairənin, adamların, konkret bir cəmiyyətin qayğıları səviyyəsindən çıxıb, bəşəriyyətin probleminə çevrilib. Haqqında yazılan problemin nə qədər sürətlə qloballaşdığına diqqəti cəlb edən professor Z. Qaralov hələ 2003-cü ildə yazırdı: "... bu problem (tərbiyə) bütün yönləri ilə artıq ümumbəşəri məsələyə çevirilməkdədir" (1, səh. 3). Tərbiyə prosesində yaranan nöqsanların insanlarası münasibətlərin təhlükəliliyinə təsirini vurğulayan



professor S. Seyidovun fikirləri də problemin böyüklüyündən xəbər verir: "Müasir cəmiyyətimizdə elm və texnikanın əldə edilmiş inkişafı Marsa planetlərarası ekspedisiyalar hazırlamağa imkan verir, amma insani münasibətlərdə bizi məhdudlaşdırır. Bu məhdudluğun aradan qaldırılması, şəxsiyyətlərarası münasibətlərin "potensialının" aşkarlanması əsasən insanşünaslığın... aktual problemlərindəndir" (2, səh. 143-144).

İndi elmi kəşflərlə öyünməyə haqqı olan İnsan tərbiyədə yol verdiyi səhvlərə, inkişafda nəsillərarası varisliyə əhəmiyyət vermədiyinə görə günahsız körpələrin fəryadlarını eşitmək, axan nahaq qanları, tökülən göz yaşlarını, əxlaqsızlıqlar səbəbindən dağılan ailələri, atasız, anasız böyüyən uşaqları ürək ağrısı ilə seyr etmək məcburiyyətində qalıb. Tərbiyədə yaranmış boşluqlar fəlakətin nə qədər dərin olduğundan xəbər verir. Əlbəttə, digər sahələrdə olduğu kimi, tərbiyə ilə bağlı da müəyyən işlər həyata keçirilir, tədqiqatlar aparılır, eksperimentlər qoyulur, yollar axtarılır. Amma digər elm sahələrində olan uğurların burada qazanılmadığını hamımız aydın şəkildə hiss edirik. Görünür, elmin gəldiyi nəticələrin tətbiqinə lazımi əhəmiyyət verilmir.

Əsaslandırmaya ona görə bu qədər yer ayırdıq ki, hər kəs tərbiyə işinin ağırlığını kiminsə çiyinlərinə yükləməklə məsuliyyətdən qaçmağın mümkün olmadığını dərk etsin. Tərbiyədə yol verilən məsuliyyətsizliyin, biganəliyin nəticədə insanlığın özünə fəlakət gətirəcəyi məlumdur. Əgər ilkin mərhələdə tərbiyə işinin ağırlığı ailədə valideyinlərin üzərinə düşürsə, məktəb illərində sistemli şəkil alan bu vacib prosesi müəllimlər həyata keçirməli olurlar. Tərbiyə işi nə qədər rəngarəng yollarla həyata keçirilsə də, məktəbdə ağırlıq daha çox təlimin üzərinə düşür. Təlim, yuxarıda qeyd etdiyimiz kimi, üç vəzifəni yerinə yetirməyin ən səmərəli yoludur. İlk növbədə bu imkan təlimin məzmunu ilə əlaqədardır. Aydındır ki, ayr-ayrı fənlərin hamısında bu və ya digər dərəcədə tərbiyəedicilik imkanları vardır. Lakin bu imkan Azərbaycan dili və ədəbiyyat fənlərində daha zəngindir desək, tamamilə haqlı olarıq. Təlimin əsas təşkilat forması dərs olduğundan tərbiyələndirici prinsipdən məhz təlimin məzmunu nəzərə alınaraq istifadə olunmalıdır.

Azərbaycan dili bütövlükdə tərbiyə məktəbidir. Hər bir xalqın milli dəyəri olan dil həm də mənəvi dəyərlərlə sıx bağlı olan bütün istiqamətlərdə şagirdlərlə tərbiyəvi iş aparmağa imkan verir; Azərbaycan dili dərsləri təkcə dillə bağlı qaydaları öyrədən bir vasitə olmamalıdır. Dilin inkişaf yolu xalqın tarixi ilə birbaşa bağlıdır. Dil həm də bu tarixin saxlanc yeri, sonrakı nəsillərə ötürülmə vasitəsidir. Yeni doğulan körpənin özü ilə gətirdiyi genetik və psixoloji yaddaşın çox böyük bir hissəsinin dillə bağlılığı bu qüdrətli vasitənin necə böyük tərbiyəvi əhəmiyyətə malik olduğunu göstərir.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan dili dərslərində görkəmli şəxsiyyətlərin, elm adamlarının, ziyalıların dillə, xüsusən, ana dili ilə bağlı fikirlərinin, yeri gəldikcə, şagirdlərə çatdırılması olduqca güclü təsir göstərir, təlimin tərbiyələndirici prinsipinin tətbiqinə imkan yaradır. Məsələn, şagirdlər F.Köçərlinin, N.Nərimanovun, M.İbrahimovun doğma dilimizlə bağlı söylədiklərini, qələmə aldıqlarını öyrəndikcə, bu qüdrətli vasitənin qorunması uğrunda gördükləri işlərlə tanış olduqca qürur hissi keçirirlər. Eyni zamanda



Scanned with ACE Scanner

başa düşürlər ki, dilin böyüklüyü onda danışan adamların sayı ilə deyil, bu dilin ifadə imkanları ilə, onun daşıyıcılarının bəşəriyyət qarşısındakı xidmətlərilə ölçülür.

Bəzən bizim təsəvvür etdiyimizin əksinə olaraq, şagirdlər ətrafda baş verən problemlərə, o cümlədən, dillə bağlı dünyada gedən proseslərə daha həssas münasibət bəsləyirlər. Başlıca şərt isə budur ki, müəllim təlimin tərbiyələndirici prinsipinin verdiyi imkanlardan istifadə edərək şagirdlərin diqqətini həmin məsələlərə məqsədəuyğun şəkildə yönəldə bilsin. Məsələn, müəllim dilin yaranması və inkişafı ilə bağlı iş apararkən şagirdlərin diqqətini "Dil imperiyası" ifadəsinə yönəldir. Qeyd edir ki, başqa xalqlara basqının, ona təsir göstərməyin müxtəlif formaları, üsulları vardır. Bunlardan biri də xalqın dilinin sıxışdırılması, mümkün yollarla ondan istifadə imkanlarının məhdudlaşdırılmasıdır. Bu prosesdə adətən, başqa dillərə münasibət öz dilinin daha geniş miqyasda təbliğinin gücləndirilməsi ilə paralel gedir. İşə qəbulda məhz öz dilini yox, "arzuolunan" dili bilənlərə üstünlük verilməsi, onların məvaciblərinin artıq olması, bələlərinin daha üstün, daha intellektual olduqlarının təbliğ edilməsi və s. "Dil imperiasının" gözəgörünmədən istifadə etdiyi üsullardandır.

Təcrübə göstərir ki, şagirdlər bu problemin tarixən həmişə mövcud olduğu ilə bağlı faktı maraqla dinləyir və təhlil edirlər. Yenə misala müraciət edək. Məlumdur ki, on doqquzuncu əsrin ikinci yarısı Rusiyanın həyatında mühüm yer tutan bir dövr idi. Bu dövr Fransız dilinin həm də dünyada hegomonluq etdiyi bir dövr idi və rus dili də bu təsirdən qurtara bilmirdi. Böyük ziyalı, görkəmli pedaqoq K. D. Uşinskinin aşağıda verdiyimiz fikirlərinin məhz həmin ərəfəyə düşməsini də təsadüfi saymaq olmaz. O, yazırdı ki, uşağa ana dilini öyrətmədən ikinci dili öyrətmək olmaz. Çünki bu onu xalq, vətən üçün övlad ola biləcək yeganə vasitədən məhrum etmək deməkdir. Ana dilini öyrənmədən öyrəndiyi dilin ruhu, "bu dili yaratmış xalqın ruhu onun ruhunda dərin köklər salmış olacaq, onun ətinə və qanına nüfuz edəcəkdir və xalq dili artıq tutulmuş zəminə rast gələrək, özgə kökləri sıxışdırıb çıxara bilməyəcəkdir. Çünki dəyişməz psixoloji qanuna görə, yeri birinci tutan təəssürat o biri təəssüratlardan daha dərin kök salır..."(3, səh. 117).

Dərsdə, xüsusilə, yuxarı siniflərdə gətirilən faktın təhlilinə şagirdlərin cəlb edilməsinə, onların münasibətlərinin öyrənilməsinə, nümunənin dilə məhəbbət tərbiyəsinə yönəldilməsinə ciddi yer ayrılmalıdır. İşin belə təşkili təlimin tərbiyələndirici prinsipindən istifadənin faydasını artırmış olacaq.

Ədəbiyyat dərslərində analoji iş aparılmalı, fənnin tərbiyəvi imkanlarından səmərəli istifadə olunmalıdır. Ədəbiyyatın məzmunu bu cəhətdən daha geniş imkanlara malikdir. Hər bir mövzu, həyat və yaradıcılığı tədris olunan yazıçılarla bağlı hər bir material şagirdlərlə tərbiyəvi iş aparmağa, onlarda vətənsevərlik, çalışqanlıq, elmə, öyrənməyə maraq kimi keyfiyyətlər tərbiyə etməyə imkan verir. Yaxşı cəhətdir ki, məktəblərimizdə ədəbiyyat fənninin məzmunu ilə bağlı tərbiyəvi imkanlardan səmərəli istifadə edən müəllimlərimiz az deyil. Amma haqqında danışılan prinsipin digər imkanlarından istifadə ilə bağlı belə nikbin danışmaq mümkün deyil. Adətən,



situasiyalarla bağlı yaranan hallarda müəllimlər daha çox danlağa, tənbehə üstünlük verirlər ki, bunun nəticəsi çox vaxt səmərəli olmur. Misala nəzər salaq: şagirdlərdən birində lovğalıq, özünü yoldaşlarından üstün tutmaq meyllərinin yarandığını hiss edən müəllim sadəcə olaraq onu danlamaqla, lovğalığın yaxşı xüsusiyyət olmadığını deməklə işini bitmiş hesab edir. Ancaq belə hallarda tutaq ki, böyük Füzuliyə müraciətlə, onun məşhur qəzəllərindən birindən aşağıdakı beytləri deyib, ona münasibət bildirməklə daha düzgün çıxış yolu tapmış olar:

**Ey olub sultan, deyən dünyada məndən qeyri yox,**
**Sən səni bir cüğd bil, dünyanı bir viranə tut** (4, səh.44).

Təcrübə bu və digər analoji misalların şagirdlərə düzgün yol tutmaqda, həyata, dünyaya, insanlara düzgün münasibət bəsləməkdə daha güclü təsir göstərdiyini sübut edir.

## ƏDƏBİYYAT


1. *Zahid Qaralov. Tərbiyə (I cild). Bakı, Pedaqogika-2003*
2. *Səməd Seyidov. Menecmentin psixologiyası. Bakı, "Zərdabi LTD" MMC-2011.*
3. *K.D.Uşinski. Seçilmiş pedaqoji əsərləri. Bakı, Azərnəşr -1953.*
4. *Füzuli. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb"-1992.*



## XÜLASƏ

**Azərbaycan dili və ədəbiyyat dərslərində təlimin tərbiyələndirici prinsipindən istifadə**

*Məqalədə Azərbaycan dili və ədəbiyyat dərslərində təlimin tərbiyələndirici prinsipindən istifadə məsələlərindən bəhs edilir. Göstərilir ki, müasir şəraitdə tərbiyə problemi qloballaşır. Təlim prosesində şagirdlərə bilik, bacarıq və vərdişlər verməklə yanaşı, mənəvi keyfiyyətlərin aşılanması da zəruridir. O cümlədən Azərbaycan dili və ədəbiyyat dərslərində, gənclərin cəmiyyət üçün faydalı insanlar kimi formalaşdırılması üzrə iş aparılmalıdır.*



## РЕЗЮМЕ

**Использование воспитательных принципов обучения на уроков азербайджанского языка и литературы**

*В статье речи идет об использовании воспитательных принципов обучения на уроках азербайджанского языка и литературы. В ней отмечается, что в современном этапе происходит глобализация проблемы воспитания. В процессе преподавания на ряду с обучением научных знаний и умений необходимо прививать ученикам духовные качества. В этой связи в деле формирования молодых, как полезных для общества личностей нужно проведение соответствующей работы.*



## SUMMARY

**The use of the educative principle of education in Azerbaijan and literature lessons**

*The article deals with the problem of the usage of educative principles of education in Azerbaijan and literature lessons. It is shown that the education problem globalizes in the modern condition. It is important to tan spiritual anilities moreover to give knowledge, skill and habit to pupils in the process of education. It is also important to carry out the work on formation of the young as useful man for society in Azerbaijani literature lessons.*




Scanned with ACE Scanner

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ FƏAK/İNTERAKTİV METODLARIN TƏTBİQİ

**Emma XƏLİLOVA,**
**Azərbaycan Müəllimlər İnstitutunun metodisti**

Fənn kurikulumunun əsas tərkib hissəsi olan fəal/interaktiv təlimin tətbiq edilməsi təhsil islahatının mühüm məsələlərindəndir. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində interaktiv təlim metodlarının tətbiqi layihəsi artıq 10 ildən çoxdur ki, həyata keçirilir. Bu illər ərzində interaktiv təlim metodunun öyrənilməsi sahəsində respublikamızda xeyli iş görülmüş, nəzəri materiallar çap edilmiş, çoxlu sayda təlimlər keçirilmişdir. Lakin bütün bunlara baxmayaraq, məktəblərimizdə interaktiv təlim metodları kütləviləşməmişdir.

İnteraktiv təlim metodlarının geniş tətbiq edilməməsinin səbəblərindən biri bəzi müəllimlərin bu işə ciddi yanaşmaması, digər tərəfdən də bu sahədə metodik ədəbiyyatın azlığı və dərs nümunələrinin mətbuatda işıqlandırılmamasıdır.

Bir daha qeyd etmək istəyirəm ki, fəal/interaktiv təlim metodlarından istifadə zamanın tələbidir. Azərbaycan dili və ədəbiyyat müəllimləri bu metodları dərindən mənimsəmədən kurikulum əsasında dərslərini qurmaqda çətinlik çəkərlər. Həmin çətinliyi qismən aradan qaldırmaq üçün fəal/interaktiv təlim metodundan istifadə etməklə həm Azərbaycan dili, həm də ədəbiyyat fənni üzrə dərs nümunəsi verməyi qarşıya məqsəd qoydum.

**Mövzu:** A.Şaiqin "Köç" hekayəsinin məzmunu üzərində iş.
**Məqsəd:** Şagird:
- hekayənin məzmununu mənimsədiyini nümayiş etdirir;
- vətənə, onun təbiətinə məhəbbət hissini, milli-mənəvi dəyərləri aydın və ardıcıl şərh edir;
- mətni intonasiya və vurğunun tələblərinə uyğun oxuyur;
- həm müstəqil, həm də qrupda bilik qazanmaq bacarığı formalaşır.

**Təchizat:** A.Şaiqin "Seçilmiş əsərləri", dərslik, Azərbaycanın coğrafi xəritəsi, "Köç" hekayəsinin motivləri əsasında çəkilmiş şəkillər, kinoproyektor.
**Təlim üsulu:** Beyin həmləsi, diskussiya, müzakirə.
**Dərsin forması:** Böyük və kiçik qruplarda iş.
**Dərsin tipi:** Yeni bilik verən dərs.
**İnteqrasiya:** Tarix, coğrafiya, musiqi, təsviri sənət, zoologiya.



**Dərsin gedişi:**

**Motivasiya:** (müəllim Aşıq Ələsgərin "Yaylaq" şeirindən 2 bənd deyir)

*Könlüm qaranquştək uçub qoynuna*
*Gəzir hər yamacı, hər yalı, yaylaq!*
*Ruhum təzələnir,məst olur ürək,*
*Görəndə bu çağı, bu halı, yaylaq!*

*Kəkotu, qırxbuğum,qaymaq çiçəyi,*
*Bənövşə,qantəpər, qızlar örpəyi,*
*Qoyun mələşməsi, çoban tütəyi,*
*Çəkir uzaqlara xəyalı, yaylaq!*

Sonra: "Ögey ana" filmindən yaylaq fraqmenti göstərilir.

**M.:**- Uşaqlar, dinlədiyiniz "Yaylaq" şeirinin və "Öğey ana" filmindən yaylaq fraqmentinin bugünkü mövzumuz ilə nə əlaqəsi ola bilər?

Şagirdlər müxtəlif fərziyyələr söylədikdən sonra müəllim izahat verir:

-Uşaqlar, şeirdə haqqında danışılan və filimdə göstərilən yaylaq sərin yer deməkdir. Yazda elin yaylağa çıxması, payızda yaylaqdan qayıtması keçmiş zamanlarda adət idi. Hələ indi də bəzi yerlərin adamları yaylağa gedir. Aran yerlər isti olduğu üçün çobanlar qoyun-quzularla birlikdə yaylağa köçürdülər. Bu gün məzmunu üzərində iş aparılan A.Şaiqin "Köç" hekayəsində də yaylaqda baş vermiş hadisələrdən danışılır.

Motivasiyadan və müəllimin izahatından sonra tədqiqatın aparılması mərhələsi başlanır. Tədqiqat işini aparmaq üçün iş forması seçilir. "Köç" hekayəsinin məzmunu üzərində iş apararkən "Qrup işi" məşğələsindən istifadə edilir.

Şagirdlər qruplara ayrılır. Qruplara mövzuya uyğun olaraq "Azərbaycan", "Yaylaq", "Borçalı" və "Pələng" adları verilir. Qruplara dörd mövzu verilir.

Azərbaycan – Əsərin qəhrəmanı Azərbaycan təbiətini necə təsvir edir? Bu epizodu təsəvvürünüzdə canlandırın.

Yaylaq – şəhərli oğlanın dili ilə yaylaq həyatı necə təsvir edilir? Bu epizodu təsəvvürünüzdə canlandırın.

Borçalı – Kərim baba kimdir? Borçalı haradır?

Pələng – Hekayədə Kərim babanın pələng ovu necə təsvir olunur?

**Tədqiqatın aparılması:**

Qruplar tapşırılan mövzu ətrafında tədqiqata başlayırlar.

Hekayənin məzmunu haqqında bütün şagirdlərdə tam təsəvvür yaratmaq üçün Ziqzaq metodundan istifadə etmək məsləhət bilinir.

Ziqzaq metodu qısa vaxt ərzində interaktiv şəkildə mövzunu əhatəli öyrənməyə imkan verir. Hər bir şagird bütün məsələlərin həllindən xəbərdar olur.

Ziqzaq metodu zamanı hər qrup 1,2,3,4 say etibarı ilə düzəlir. Sonra 1-lər, 2-lər, 3-lər və 4-lər ekspert olmaqla yeni qruplara ayrılır və tapşırığı yerinə yetirirlər. Tapşırığı 1-lər, 2-lər... müzakirə edərək tam mənimsədikdən



Scanned with ACE Scanner

sonra yenidən öz "doğma" qruplarına qayıdaraq öyrəndiklərini qruplardakılara öyrədir.




**Təqdimatın aparılması:**

Qruplar tapşırıqların nəticələrini təqdim edirlər:

**I Qrup (Azərbaycan)**

Azərbaycan!.. Doğma vətənimin gözəl təbiəti vardır.Səhərlərə məxsus olan nəsimdən arabir yarpaqlar qımıldanır, təpələrə, çöllərə xalı kimi döşənmiş yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanırdı. İrəlilədikcə qarşımızda bir-birindən daha gözəl təbiət, daha canlı lövhələr açılır. İri, kələ-kötür, ətəkləri qaratikan kolları ilə döşənmiş dağlar arasından yuxarı qalxdıqca təbiət və hava bütün başqalaşır. İnsan ürək dolusu nəfəs alır.Yumşaq otların, əlvan çiçəklərin, dağ nanələrinin gözəl qoxusundan insan bihuş olurdu.

Dağların ardı-arası kəsilmir, zəncir kimi bir-birinə hörülmüş, bir-birini qucaqlamış kimi durur. Qarşımıza daha böyük bir dağ çıxdı. Bu dağı da aşdıq; çiçəklər səltənəti kimi bir alaçığa çıxdıq. Bu yer qalın, sıx meşəlik, çılpaq qayalıq, uçurumlu dərələrlə qucaqlaşmışdı. Uzaqda bir təpə ətəyində 5-10 alaçıqdan ibarət bir oba görünürdü. Artıq yetişmişdik. Sevincimdən atılıb-düşürdüm.

Sonra şagirdlərdən biri Azərbaycanın coğrafi mövqeyi barədə məlumat verir.Qrupun digər üzvü bir neçə dərs əvvəl keçirilən Əhməd Cavadın "Azərbaycan, Azərbaycan" şeirini yada salır və bir neçə bəndi əzbər deyir:

*Dağlarının başı qarlı,*
*Sinəsi yaşıl ormanlı,*
*Dərələrin şirin barlı,*
*Azərbaycan, Azərbaycan!*
*Durna gözlü bulaqların,*
*Cənnət kimi yaylaqların,*
*Geni-geniş oymaqların,*
*Azərbaycan, Azərbaycan!*
*Sinən odu şölə salır,*
*Dünya səndən işıq alır,*
*Verməyəndə zülmət qalır,*
*Azərbaycan, Azərbaycan!*
*Laçının var, tərlanın var,*
*Çoxlu şirin dastanın var,*
*Qorxun yoxdur, düşmanın var,*
*Azərbaycan, Azərbaycan!*



**M.:** Şeirin son bəndindəki "Qorxun yoxdur, düşmanın var" misrasına diqqət yetirək. Düşmənlərimiz kimdir?

**Ş.:** Ermənilər.Onlar bizim torpaqlarımızı zəbt ediblər.Təkcə Dağlıq Qarabağ deyil, Ağdam, Kəlbəcər, Qubadlı,Laçın, Zəngilan, Füzuli rayonları da bu gün mənfur erməni işğalı altındadır.

**M.:** - Bu yerdə gözəl şairimiz Səməd Vurğunun "Azərbaycan" şeiri yada düşür.

*Könlüm keçir Qarabağdan,*
*Gah bu dağdan, gah o dağdan*
*Axşamüstü qoy uzaqdan*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi.*

Vaxtilə musiqi beşiyi, bülbüllər yuvası, gözəlliklər yurdu olub Qarabağ! Vaqifin, xan qızı Natavanın, Zakirin, Üzeyir bəyin, Bülbülün, Yusif Vəzirin və bir çox görkəmli şəxsiyyətlərimizin vətəni olub Qarabağ! Amma bu gün Qarabağ bizim üçün nisgildir, həsrətdir, göynəyən yaradır. Çünki Vətənimizin bir gözəl parçası, cənnət guşəsi bu gün erməni işğalında inləyir. Qarabağ könlümüzdən keçir, amma biz ora gedə bilmirik. Ancaq inanırıq ki, möhtərəm prezidentimiz İlham Əliyevin uzaqgörən siyasəti və səyi nəticəsində Qarabağ və digər rayonlarımız işğaldan azad olacaq.

Bir gün xoş müjdəli xəbərlər bütün Azərbaycanı bürüyəcək! O gün gələcək, mütləq gələcək!

Sonra şagirdlər "Azərbaycan" mahnısını dinləyirlər.

**II qrup ("Yaylaq")**

Köç artıq yayalağa yetişib.Obaya yaxınlaşdıqca uşaqlar, bir neçə yaşlı qadın və qoca bir kişi qarşımıza çıxdı. Qoca hamıdan əvvəl irəliləyib salam vəerdi. "Sizi dünən gözləyirdik, xoş gəldiniz!". Atam: "Sağ ol, Kərim baba. Dünən olmasın, bu gün olsun" ,- deyə cavab verdi.

Kərim babanın köməyi ilə atamın bəyəndiyi axar-baxarlı, gözəl bir yerdə alaçığımız quruldu. Hər gün çayımı içər-içməz alaçıqdan çıxardım. Uşaqları tapıb çiyələk, göbələk toplamağa, ya da dərədə balıq tutmağa gedərdik. Daşların, ağacların dibini qazar, ətrafına çay daşları yığıb, bulaq qayırardıq. Hər birimiz tapdığımız bulağa öz adımızı verərdik.

Bu yerlərin səhərləri, axşamları mənə hər şeyi unutdururdu. Axşamlar qoyun-quzu mələşə-mələşə obaya dönərkən səsdən qulaq tutulurdu. Quzuların mələşməsi, itlərin hürüşməsi obaya başqa bir rəng verirdi.

Mən çobanları çox sevirdim, vaxtımın çoxunu da onlarla keçirirdim.Çobanlar tütək çalar, həzin mahnı oxuyar, söhbət edərdilər.

**III qrup: ("Borçalı")**

Kərim baba 60 yaşında, qısaboylu, köksü və kürəkləri enli bir qoca idi.Yaşlı olduğu halda daima açıq, geniş çöllərdə yaşamış bu adamın üzü ətli, yanaqları qıpqırmızı, canı sapsağlam idi.Bu adamın hərəkətindən və simasından gəncliyində çox çılğın və igid olduğu anlaşılırdı. Fikri-zikri daima ovda və şikarda idi. Atasından qalma köhnə tüfəngi var idi.Onu hər zaman özü ilə gəzdirər və bir an yanından ayırmazdı. Oğul-uşaq zoğal, fındıq, moruq yığmağa gedərkən Kərim baba da sıradan qalmazdı.



Scanned with ACE Scanner

**M.:** - Kərim babanın söylədiyi hadisələr Borçalı meşələrində baş verir.Bu gün Azərbaycan ərazisində Borçalı bölgəsi yoxdur.

Borçalı qədim türk yurdudur. Borçalı Gürcüstanın cənub-şərqində yerləşən və hazırda Kvemo Kartli kimi adlandırılan bölgənin tarixi adıdır. "Borçalı" toponiminin "börü" və "çala" sözlərinin birləşməsindən əmələ gəldiyi ehtimal edilir. Anlamı "Qurd çalası" deməkdir. Borçalı mahalı hazırda Gürcüstanın Rustavi şəhəri də daxil olmaqla 6 rayonunu –Qardabani (keçmiş Qaratəpə), Marneuli (keçmiş Sarvan), Bolnisi (keçmiş Başkeçid), Tetriskaro (keçmiş Ağbulaq) və Salka (keçmiş Barmaqsız) rayonlarını əhatə edir. Sovet dövründə Borçalının bir hissəsi Gürcüstana, bir hissəsi Ermənistana verilib.

**IV qrup("Pələng")**

Hekayədə Kərim babanın pələng ovu hekayəti barədə məlumat verilir.Kərim baba bu hekayətə belə başlayır:

- Bizim Borçalı meşəlılrində pələng olmazdı. Amma 40-50il bundan əvvəl kəndin yaxınlığında bir pələng görünmüşdü. Onun qorxusundan heç kəs meşəyə getmirdi. Bir gün tüfəngimi götürüb meşəyə getdim. Mən pələngə, bir də qaranquşa tüfəng atmaram, çünki hər ikisi igid heyvandır. Meşənin içərisinə doğru gedirdim.Bir də nə gördüm?! Uzaqda iki göz məşəl kimi yanır. Baxdım, pələngdi. O da məni görmüşdü. Qəlbim çırpınırdı. Pələngin bir nəcib xasiyyəti var: hücuma başladığı yerdən üç dəfə ovun üstünə atılar. Bu üç dəfənin heç birində şikarını ovlaya bilməsə, küsüb gedər.

Pələng iki dəfə üstümə atıldı, üçüncü atılışda az qala üstümə düşəcəkdi. Tüfəngimi dikəltdim, pələngi havada üstümə gəlirkən nişan aldım. Pələngdən bir bağırtı qopdu ki, dağ-daş titrədi.Qəlbim kövrəldi, peşman oldum. Tüfəngimi bir tərəfə atıb qarşısında diz çökdüm. Dedim ki, Borçalı torpağında bir igid var idi, o da bu gündən yaşamır.

Sonra qrupun şagirdlərindən biri pələng haqqında bəzi məlumatlar verir:

- Pələng pişik kimilər fəslindəndir. Yırtıcıdır, ov yaxalamağın daha asan olduğu meşələrdə və otlaqlarda yaşayırlar. Pələnglər Sibirdə, Hindistanda, Türkiyədə, Çində, bütün Asiyada yaşayırlar. Onlar maral, çöl donuzu kimi heyvanlarla qidalanırlar. Pələnglərin tək ciddi ovçusu onları qeyri-qanuni öldürən insandır. Bir əsr əvvəl dünyada 100 000 -dən çox pələng olduğu halda bu gün bu rəqəm 2500 törəyə bilən fərdi keçməz.

**İnformasiya mübadiləsi:**

Tədqiqat üçün ayrılmış vaxt bitdikdən sonra müəllim tapşırığın icrasının başa çatdığını bildirir. Bundan sonra şagirdlər "doğma" qruplarına qayıdaraq öyrəndikləri məzmunu qrupdakı digər şagirdlərə (ekspertlər), yəni 1 nömrəli şagird öz öyrəndiyini 2,3,4 nömrəli şagirdlərə də öyrədir. Bundan sonra hekayənin məzmunu bütünlükdə danışılır.

**İnformasiya müzakirəsi:**

Aparılan təqdimatla əlaqədar bəzi suallar verilir və müəllim tərəfindən dəqiqləşmə aparılır. Müəllim cavabları təhlil edir, əldə edilmiş məlumatların



məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək edir, qazanılan nəticəni soruşur.

**Nəticə və ümumiləşdirmə:**

Hekayədən Azərbaycan təbiəti, quşlar və heyvanlar aləmi haqqında yeni məlumatlar öyrəndik, yaylaq həyatı barəsində biliklərimizi genişləndirdik.Vətənimizə, təbiətimizə vurğunluğumuz daha da artdı.Biz vətənimizi sevirik, onu daim sevməyə, qorumağa and içirik.

**Yaradıcı tətbiqetmə:**

"Gəlin təbiəti biz də düşünək" movzusunda esse yazmaq.

**Qiymətləndirmə:**

Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Fəal dərsin bu mərhələsində həm özünüqiymətləndirmədən, yəni şagirdlərin (qrupların) özünüqiymətləndirməsindən və ya şagirdlərin (qrupların) bir-birini qiymətləndirməsindən, bundan əlavə qiymətləndirmə meyarlar əsasında müəllim tərəfindən aparılır.

Aşağıdakı meyar cədvəlinə diqqət yetirək:

| Qruplar | Meyarlar | | | | |
|---|---|---|---|---|---|
| | Tapşırığı tam icra edir | Əməkdaşlıqda fəaldır | Müzakirələrdə iştirak səviyyəsi | Yaradıcılıq | Ümumi nəticə |
| I qrup | | | | | |
| II qrup | | | | | |
| III qrup | | | | | |
| IV qrup | | | | | |

| Şagirdlər | Meyarlar | | | | | |
|---|---|---|---|---|---|---|
| | Əməkdaşlıq edir | Sərbəst fikir yürüdür | Mətni ifadəli oxuyur | Məntiqi nəticə çıxarır | Əlavələr edir, suallar verir | Ümumi nəticə |
| Vüsal | | | | | | |
| Təravət | | | | | | |
| Alıyə | | | | | | |
| Şəlalə | | | | | | |

Göründüyü kimi, dərsin interaktiv metodla qurulması zamanı şagirdlər bilikləri müstəqil kəşf edir, idrak fəallığı artır, öz fikrini çatdırmağa qorxmur, özünəinamı artır. Məsələlərin birgə həlli gedişində özünün və qrup üzvlərinin fikirlərini bölüşə bilmək və bundan qarşılıqlı faydalanmaq məqsədilə hər bir şagirdin müzakirələrdə və qrup işində iştirakı təmin edilir.



Scanned with ACE Scanner

# PROFESSOR ƏZİZ ƏFƏNDİZADƏ MƏKTƏBİNİN YETİRMƏSİ

**Ənvər ABBASOV,**
**Təhsil Problemləri İnstitutunun direktor müavini,**
**Kurikulum Mərkəzinin direktoru, əməkdar müəllim**

Professor Əziz Əfəndizadə XX əsr Azərbaycan pedaqoji fikrinin inkişafında böyük xidmətləri olan görkəmli alim kimi tanınır. O, həyatının yarım əsrə qədərki dövrünü doğma dilimizin ümumtəhsil məktəblərində öyrədilməsi probleminə həsr etmişdir. Bu sahədə həyata keçirilən təhsil siyasətinin, proqram və dərsliklərin, metodik və dərs vəsaitlərinin, müəllimlərin təkmilləşdirilməsi işinin nəzəri-metodik cəhətdən həll olunmasına rəhbərlik etmiş və ardıcıl olaraq bu işi istiqamətləndirmişdir. Prioritet problemlərin müəyyənləşdirilməsində, elmi-pedaqoji kadrların hazırlanmasında böyük zəhməti olmuşdur. Daha konkret desək, ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin bütöv bir sistemini hazırlamaqla özünün mükəmməl bir elmi məktəbini yaratmışdır.

Professor Əziz Əfəndizadənin Azərbaycan dilinin tədrisi metodikası məktəbi özünün yetirmələrinin şəxsində bu gün də yaşayır. Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, pedaqoji elmlər doktoru Elbəyi Sadıq oğlu Maqsudov da həmin məktəbin davamçılarından biridir.

Elbəyi Sadıq oğlu Maqsudov 1955-ci il fevralın 16-da Naxçıvan Muxtar Respublikası Babək rayonunun Gərməçataq kəndində anadan olmuşdur. İbtidai təhsilini doğma kəndlərində aldıqdan sonra 1963-cü ildə orta təhsilini Naxçıvan şəhərində davam etdirmişdir. Orta təhisilini müvəffəqiyyətlə başa vurduqdan sonra 1972-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialına daxil olmuş və həmin ildən də doğma kəndlərində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi fəaliyyətə başlamışdır. İşlədiyi müddətdə yaxşı müəllim kimi formalaşmış, iş təcrübəsi yayılmış, rayonda, Naxçıvanda və Bakıda keçirilən konfrans və pedaqoji mühazirələrdə maraqlı mövzularla çıxışlar etmişdir. 1988-ci ildə Səmərqənddə keçirilən VIII Ümumittifaq pedaqoji mühazirələrindəki çıxışı bir çox mütəxəssislər tərəindən böyük maraq və rəğbətlə qarşılanmışdır.

Hələ kənd məktəbində işləyərkən Elbəyi müəllim bir çox metodik yazıları, poetik-praktik şeirləri, dilimizlə bağlı krossvordları ilə mətbuatda, xüsusilə "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalında tez-tez maraqlı və yaddaqalan çıxışlar edirdi. Onun bu fəaliyyəti bir çox dilçi alimlərlə yanaşı, Azərbaycanın əməkdar müəllimi, pedaqoji elmlər doktoru, professor Əziz Rəcəb oğlu Əfəndizadənin də diqqətini cəlb edir. Professor Əziz Əfəndizadə ona aspiranturada təhsilini davam etdirməyi məsləhət görür.

Elbəyi müəllim1986-cı ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun (indiki Təhsil Problemləri İnstitutunun) aspiranturasına daxil olur. 1992-ci ildə "Azərbaycan dili dərslərində fənlərarası əlaqədən (rus dili fənni ilə) istifadənin imkan və yolları" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alır.



Elbəyi Maqsudov 25 il orta ümumtəhsil məktəblərində - Gərməçataq kənd orta məktəbində, Naxçıvan şəhərindəki "Xanım qızlar", "Türk oğlanlar liseyi" və 3 saylı rus məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişdir.

1994-cü ildən Naxçıvan Dövlət Universitetində çalışır. 1994-2004-cü illərdə NDU elmi şurasının katibi və fənlərin tədrisi metodikası kafedrasının müəllimi, sonra isə baş müəllimi, dosenti vəzifəsində işləyir. 2004-cü ildən isə kafedra müdiridir.

E.Maqsudov bir neçə il türkiyəli tələbələrə Azərbaycan dilini öyrətmiş, bu iki qohum dilin oxşar və fərqli əlamətləri onun diqqətini cəlb etmiş və bu məsələni tədqiqat obyektinə çevirmişdir. 2008-ci ildə "Azərbaycan və türk dillərinin müqayisəli tədrisinin tələbələrin linqvistik təfəkkürünün inkişaf etdirilməsinə təsiri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Elbəyi Maqsudovun kənd müəllimliyindən ta universitet müəllimliyinə qədərki həyat yolu maraqlı bir salnamədir. Burada kəndin özünəməxsus qayğıları, doğma Gərməçataqdan uzaqlaşmaq zərurəti, köçkünlük həyatının çətinlikləri, təhsil almaq, inkişaf etmək yolundakı keşməkeşlər bu salnamənin ən yadda qalan görüntüləridir. Bu görüntülər zaman-zaman, günbəgün arxada qaldıqca tarixləşir və Elbəyi müəllimin bu gün qazandığı nailiyyətlərin qiymətini bir daha artırır, onların haradan qaynaqlandığını, necə yarandığını dəyərləndirir.

Bu gün Azərbaycan dilinin tədrisi metodikası elmində Elbəyi Maqsudovun xüsusi yeri vardır. O, 80-ci illərin əvvəllərindən etibarən Azərbaycan dili təliminin, eləcə də linqvistikanın bir sıra aktual problemləri ilə bağlı araşdırmalar aparmağa başlamış, elmin, eləcə də təhsilin müasir məsələlərinin aydınlaşdırılmasına səy göstərmişdir.

O, müəllim işləyərkən Azərbaycan dili təlimi prosesində bir sıra məsələlərin araşdırılmasına ehtiyac duymuş, onların öyrənilməsini qarşısına məqsəd kimi qoymuşdur. Onu ilkin mərhələdə Azərbaycan dili təlimini maraqlı qurmaq daha çox düşündürmüş və bütöv yaradıcılığı boyu bu problemlərin öyrənilməsi istiqamətində araşdırmalar aparmışdır. 80-cı illərin əvvəllərindən başlayaraq bir-birinin ardınca "Fonetikanın tədrisində folklor nümunələrindən istifadə" (1983), "Dilimiz, dərsliklərimiz və təkliflərimiz" (1991), "Azərbaycan dili dərslərində qrammatik tapmacalardan istifadə təcrübəsindən" (1997), "Ana dili dərslərində "Dədə Qorqud" dastanlarından istifadə təcrübəsindən" (1998), "Azərbaycan dili dərslərində xalq mahnılarından istifadə" (2002) və sair məqalələrini yazmışdır.

Elbəyi müəllim pedaqoji fəaliyyəti zamanı dərk edir ki, Azərbaycan dili dərslərində şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək, cümlə qurmaq və mətn tərtib etmək bacarıqlarını formalaşdırmaq üçün müxtəlif üslubda olan, xüsusən bədii mətnlərdən istifadə etmək didaktik cəhətdən əhəmiyyətlidir. Bunun üçün əlavə imkanlar axtarmaq və materiallar toplamaq zəruridir. Elbəyi müəllim bu zərurəti bir praktik müəllim kimi dərk etməklə yanaşı, həm də bir tədqiqatçı, metodist alim kimi araşdırmalar aparır, yaradıcılığında şifahi xalq ədəbiyyatı nümunələrindən istifadəyə daha çox yer ayırır. Heç şübhəsiz, bu, Azərbaycan dilini xalqın zəngin dil baryeri əsasında mənimsətməklə yanaşı, həm də şagirdlərdə Azərbaycan dilinə xalq ifadələri, deyimləri əsasında məhəbbət, eləcə də dili öyrənməyə maraq hissi yaratmaqdan irəli gəlir.

Elbəyi Maqsudovun elmi-metodik yaradıcılığında əsas yeri dillərin müqayisəli problemi tutur və bu cəhət onu dil metodistlərindən fərqləndirir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Azərbaycan dilinin tədrisi metodikasında fənlərarası əlaqə zəruri prinsiplərdən biri kimi qəbul olunmuşdur. Burada digər dillərlə əlaqə xüsusi əhəmiyyət daşıyır. Lakin problem nə qədər aktual olsa da, onun qədərincə öyrənilmədiyi də



Scanned with ACE Scanner

məlumdur. Təcrübə də onu göstərir ki, Azərbaycan dilini özünün bazasında öyrətməklə yanaşı, həm də onu şagirdlərin bildiyi dillərlə müqayisədə mənimsətmək didaktik əhəmiyyətə malikdir. Bu, şagirdlərdə tutuşdurmaq, müqayisələr, ümumiləşdirmələr aparmaq, nəticəyə gəlmək kimi bacarıqları formalaşdırmaqla, onlarda təfəkkür fəallığının yaranmasına, ümumi inkişafa səbəb olur. Elbəyi müəllim bu məsələləri əhəmiyyətlilik baxımından daha aydın dərk edir, onu özünün yaradıcılıq leytmotivinə çevirir. Azərbaycan dilini müxtəlif dillərlə müqayisəli öyrətməyi apardığı sistemli araşdırmalarının obyektinə çevirir. Onun "Azərbaycan dili təliminin qohum olmayan dillə əlaqələndirilməsi təcrübəsindən" (1988), "Azərbaycan dili dərslərinin rus dili ilə əlaqəli tədrisi təcrübəsindən" (1987), "Azərbaycan dilinin rus dili ilə əlaqələndirilməsi" (1988), "Azərbaycan dili dərslərində rus dili ilə əlaqə imkanlarından istifadəyə dair" (1990) məqalələrində Azərbaycan dilinin rus dili ilə əlaqəli öyrədilməsi məsələsi bir problem kimi qoyulur. Təsadüfi deyil ki, "Azərbaycan dili dərslərində fənlərarası əlaqədən (rus dili fənni ilə) istifadənin imkan və yolları" (1992) mövzusunda namizədlik dissertasiyasını da həmin məsələyə həsr edir.

Elbəyi Maqsudovun 2003-cü ildə "Dillərin müqayisəli tədrisi metodikası" və "Dillərarası əlaqə təliminin metodikası" adlı monoqrafiyaları nəşr olunur. Adlarından göründüyü kimi, bu araşdırmalar dillərin əlaqəli tədrisi probleminə həsr olunmaqla bir daha müəllifin maraq dairəsini ifadə edir. Həm də onun Azərbaycan dili təlimi kontekstində irəli sürdüyü müddəaların daha geniş və konseptual xarakter daşıdığı aydın hiss edilir. O, tədqiqatın "dillərin müqayisəli tədrisi", digərində isə "dillərin əlaqəli təlimi" anlayışlarından istifadə etməklə özünün fəaliyyət dairəsinə bir fərqlilik gətirir və tədqiqatındakı metodik məzmunla yanaşı, ümumi didaktik əhvali-ruhiyyəni ifadə edir. Eyni zamanda, praktik istiqamətdə apardığı araşdırmalarına bir fundamentallıq gətirir. 1999-cu ildə çap etdirdiyi "Ana dili təlimində dillərarası əlaqədən istifadənin ümumi məsələləri" adlı metodik vəsaitində həmin ənənəni davam etdirir.

Ümumiyyətlə, tədqiqatçı Azərbaycan dili təlimini dillərarası əlaqə kontekstində qurmaqla bağlı metodik müddəasını yalnız rus dili ilə deyil, eyni zamanda, ingilis, türk, fars dilləri ilə bağlı nümunələrlə əsaslandırır. Bu problemlə əlaqədar "Dil dərslərində fars dili ilə əlaqə imkanlarından istifadə" (1999) adlı yazdığı məqaləni İran İslam Respublikasında çap etdirir. Eyni zamanda, 2000-ci ildə onun "Azərbaycan dili dərslərində ingilis dili ilə əlaqə imkanlarından istifadə" haqqında məqaləsi çapdan çıxır. O, həmin ildə həm də "Azərbaycanca-türkcə, türkcə-Azərbaycanca qarşılıqlı dilçilik terminləri lüğəti" (2000) kitabını nəşr etdirib oxucuların ixtiyarına verir.

Elbəyi Maqsudovun elmi yaradıcılığının bir istiqamətini də ali məktəblərdə Azərbaycan dili təlimi məsələləri təşkil edir. Əsasən 90-cı illərin sonunda alimin yaradıcılığında diqqəti cəlb edən bu cəhət sonralar daha da genişlənir. O, 2008-ci ildə həmin problemə həsr olunmuş "Azərbaycan və türk dillərinin müqayisəli tədrisinin tələbələrin linqvistik təfəkkürünün inkişaf etdirilməsinə təsiri" mövzusunda dissertasiyası müdafiyə edərək pedaqoji elmlər doktoru elmi dərəcə alır.

Elbəyi müəllim Azərbaycan dilinin türk dili ilə əlaqəli tədrisinə dair elmi-metodik müddəalarını "Azərbaycan dili dərslərinin türk dili ilə əlaqəli tədrisi linqvistik təfəkkürün inkişaf etdirilməsi vasitəsi kimi" (2003), "Azərbacan dilinin Türkiyə türkcəsi ilə əlaqəli tədrisi üçün çalışmalar" (2004), "Sintaksisin tədrisində türk dili ilə əlaqə imkanlarından istifadə" (2005), "Dillərin müqayisəli tədrisi təfəkkürün inkişaf etdirilməsi vasitəsi kimi" (2006) və sair məqalələrində reallaşdıraraq fəal oxucu kütlələrinin mühakiməsinə verir. Hətta o, bu problemlə bağlı fikirlərini bir monoqrafiyada ümumiləşdirərək "Dillərin müqayisəli tədrisi: imkanlar, vasitələr" (2004) adı ilə nəşr etdirir.



Elbəyi Maqsudovun yaradıcılığında təlim materiallarını xüsusi qaydada hazırlamaq ayrıca bir istiqamət kimi diqqəti cəlb edir. Burada öyrədilən dil materiallarının məzmunu, xarakteri ilə yanaşı, onun təqdimolunma forması daha çox maraq doğurur. Demək olar ki, müəllifin hazırladığı əksər didaktik materiallarda seir formasından istifadə olunur. O, özünün "Orfoqrafik vərdişlərin möhkəmləndirilməsində poetik-praktik çalışmalardan istifadə" (2004), "Poetik-praktik Azərbaycan dili" (2004), "leksika, frazelogiya və sözün tərkibinin mənimsədilməsində poetik-praktik çalışmalardan istifadə" (2008), "Orta məktəbdə qrammatik inşalarla bağlı işin təşkili" və sair əsərlərində bu məsələnin şərh olunmasına xüsusi yer ayırır, öz imkanlarından istifadə edərək hazırladığı praktik nümunələri istifadə olunmaq üçün təqdim edir.

Elbəyi müəllim həm də ali məktəblərdə Azərbaycan dili təliminin məzmunu problemi ilə məşğul olur. O, bu vaxta qədər magistratura üçün "Ana dili təlimində durğu işarələri, yazılışı çətin sözlərin orfoqrafiyası və orfoepiyası təlimi" (1998), "Linqvistik təhlilin elmi-metodik əsasları" (2009) proqramlarını işləyib hazırlanmışdır.

Professor Əziz Əfəndizadənin təbirincə demiş olsaq, hər bir linqvistik anlayışın öyrədilməsi metodikası, ilk növbədə, onun öz təbiətindən irəli gəlir. Ona görə də yaxşı metodist olmaq üçün dilin özünü yaxşı bilmək lazımdır. Təcrübə göstərir ki, yaxşı metodistlər çox hallarda öz araşdırmalarında məşğul olduqları dilin linqvistik əsaslarına müraciət edirlər. Elbəyi müəllim də özünün yaradıcılığı boyu bu zərurətdən qaça bilməmiş, Azərbaycan dili təlimində çətinlik yaradan bir sıra dilçilik məsələlərini araşdırmalı olmuş, onlara münasibət bildirmişdir. Həmin araşdırmalar nəticə etibarilə "Həmheca sözlərin bəzi xüsusiyyətləri haqqında" (1999), "XIX əsrin sonunda Naxcıvan dialekt və şivələrində işlənən sözlər XX əsr abidələrində" (1999), "Ana dilimizdə effemizmlər" (2000), "Məsdər şəkilçisinin -ma, -mə forması haqqında" (2000), "Azərbaycan dilində söz şəkilçiləri" (2001), "Fellərin digər nitq hissələri ilə omoformluğu" (2001), "Azərbaycan dilində əkiz cümlələr" (2002), "Azərbaycan dilində işlənən bəzi qeyri-məhsuldar şəkilçilər haqqında düşüncələr" (2005), "Sözlər də insan kimidir" (2007), "Azərbaycan dilindəki bəzi omonim sözlərin türk mənşəli qarşılıqları haqqında" (2009), "Azərbaycan dilindəki bəzi alınma sözlərin türkmənşəli qarşılıqları haqqında" (2011) kitab və məqalələr formasında çap olunmuşdur.

Elbəyi Maqsudovun dillə bağlı yaratdığı yeni, orijinal məntiqi şeirləri də şagirdlər və müəllimlər tərəfindən böyük maraqla qarşılanır. Ana dilimizdə sədaqət andı, təksaitli bayatı və gəraylılar, dodaqdəydilər, paronimli və omonimli yanıltmacalar, burunlamalar,poetik türkəçarələr və sair bu tipli yaradıcılıq nümunələri orijinal, maraqlı və düşündürücüdür. Müəllifin "Ürək bir dünyadır" (2001), "Poetik türkəçarələr" (2012) şeir kitabları onun bir şair kimi istedadından xəbər verir.

Elbəyi müəllim həm də apardığı araşdırmaların nəticələri ilə bağlı geniş iş aparır. Naxçıvan, Bakı, Səmərqənd, Moskva, Ankara, Təbriz kimi şəhərlərdə keçirilən beynəlxalq konfranslarda çıxışlar edərək elmi qənaətlərini bölüşür.

Elbəyi Sadıq oğlu Maqsudov bu gün özünün ən məhsuldar dövrünü yaşayır. Yazdığı maraqlı elmi əsərlərlə elmimizi zənginləşdirir. Ona bu yolda cansağlığı və uğurlar arzulayırıq.



Scanned with ACE Scanner

# SÜRGÜNDƏ BİTƏN MÜƏLLİM ÖMRÜ

Orxan ZAKİROĞLU

Hər bir şəxsin həyatında «müəllim» kəlməsinin xüsusi yeri vardır. İnsan həyatda qazandığı bir çox nailiyyətlərə görə öz sevimli müəllimlərinə borcludur. Məhz bu məqsədlə də ustad müəllimləri hər zaman yad etmək mühüm vəzifədir.

Azərbaycan tarixində XX əsrin əvvəlləri kütləvi savadsızlığın aradan qaldırılması cəhətdən dönüş nöqtəsi kimi qeyd olunur. Həmin dövrlərdə çalışan müəllimlərin xidmətləri əvəzsizdir. Belə müəllimlərdən biri də babam - Cabbar bəy Vəlibəyovdur (Baharlı). Ağdamda fəaliyyət göstərən və qanlı repressiyanın qurbanı olan Cabbar bəyin həmin dövrdə xidmətləri böyükdür.

Cabbar bəy İsmayıl bəy oğlu Vəlibəyov (Baharlı) 1893-cü ildə Şuşa qəzasının I Baharlı kəndində (indiki Ağdamın I Baharlı kəndi) anadan olmuşdur. Görkəmli şəxsiyyətlər yetirən Baharlı tayfasına mənsub Cabbar bəyin ulu babaları Bayram xan Abdulla xan oğlu Baharlı və onun oğlu Mirzə Vəli bəy Baharlı Qarabağ xanlığının ictimai-siyasi həyatında, daxili və xarici siyasətində yaxından iştirak etmişlər. Rəvayətə görə, Molla Pənah Vaqifin saraya dəvət edilməsi Qarabağ xanı İbrahimxəlil xanın vəziri Mirzə Vəli bəy Baharlının təklifi ilə olmuşdur. Mirzə Vəli bəy Baharlının faciəli ölümündən sonra onun sonrakı nəsli babalarının adını yaşatmaq üçün Vəlibəyov, Vəliyev, Vəlizadə,Vəlili soyadlarını daşımışlar.

Mirzə Vəli bəy Baharlının Mirzə Haşım bəy Zərrinqələm, İbrahim bəy, Hacı Həsənəli bəy, İmamverdi bəy adlarında dörd oğlu olmuşdur.

Mirzə Vəli bəy Baharlının çar ordusunun zabiti olan oğul nəvəsi Mirzə İsmayıl bəy İbrahim bəy oğlu Vəliyev (Baharlı) babası Mirzə Vəli bəy kimi incə ruhlu şair olmuşdur. O, Qasım bəy Zakirlə dostluq etmiş, onunla şeirləşmişdir. Qasım bəy Zakir ona hörmət əlaməti olaraq «Mirzə» deyə müraciət etmişdir. Qarabağın tarixinə aid yazılmış əsərlərdən məlum olur ki, XIX əsrin ortalarında Qarabağda böyük nüfuz sahibi olmuş Mirzə İsmayıl bəy bir çox xalq qəhrəmanlarını, günahsız insanları azğınlaşmış rus və erməni xainlərinin əlindən xilas etmişdir.

Mirzə İsmayıl bəy Vəliyevin (Baharlı) altı oğlu olmuşdur. Adıgözəl bəy Vəlibəyov (Baharlı) Mirzə İsmayıl bəyin beşinci oğludur. Cabbar bəy Vəlibəyov Mirzə İsmayıl bəyin nəticəsi, Adıgözəl bəyin nəvəsidir.

Orta əsrlərdə Azərbaycanın, ümumiyyətlə Şərqin ictimai-siyasi, mədəni həyatında əhəmiyyətli rol oynamış Qaraqoyunlu, Qütbşahlar kimi qüdrətli dövlətlərin yaradıcıları Baharlılardır.

Qaraqoyunlu dövlətinin qurucusu Qara Yusif, Qara İsgəndər, Cahanşah Həqiqi, Həmədan, Vorucerd, Nəhavənd hakimi Əlişəkər bəy Baharlı,



Qaraqoyunlu dövlətinin əmiri Pirəli bəy, Bayram bəy, Lütfəli bəy, Əmir Məhəmməd bəy Baharlı, Səfəvi şahı II İsmayılın yaxın tərəfdarlarından olan Xan Vəzir bəy Baharlı, Qütbşahlar dövlətinin qurucusu Qulu Qütbşah, İbrahim Qulu Qütbşah, I Məhəmməd Qulu Qütbşah, onun qızı Hayat Baxşı Bəyim, Abdulla Qütbşah, Böyük Moğollar İmperatorluğunun başçısı Əkbər şahın atabəyi olub, ölkəni 4 il müstəqil idarə etmiş Bayram xan Baharlı (Əlişəkər bəy Baharlının kötücəsi), dövlət xadimi olmaqla yanaşı türk, fars, hind dillərində şeirlər yazmış oğlu Mirzə Əbdürrəhim xan, şair, xəttat, musiqişünas Həsən bəy Şəkəroğlu (Müqimi) Baharlı tayfasının layiqli nümayəndələridir. Cabbar bəy ilk təhsilini ruhani məktəbində alaraq ərəb və fars dillərini, şəriət elmlərini öyrənmiş, sonralar zəmanəsinin açıq fikirli adamı olan dayısı Məşədi Məhəmməd Qasım oğlunun təklifilə Şuşa dördillik realnı məktəbini bitirmişdi. Baharlıda böyük torpaq sahibi olan 20 yaşlı Cabbar bəy təhsilini başa vurduqdan sonra evində məktəb açaraq 1913–cü ildə yeni tipli məktəbin əsasını qoymuşdur. Burada o, şagirdlərə ərəb və rus dillərini, tarix, riyaziyyat, Azərbaycan ədəbiyyatını tədris etmiş, ehtiyacı olan yoxsulları dərs ləvazimatı ilə təmin etmişdir. Deyilənlərə görə Cabbar bəyin gözəl əl qabiliyyəti olmuşdur. Cabbar bəy Vəlibəyovun yaratdığı məktəbdə sonralar Azərbaycanın müxtəlif sahələrində mütəxəssis kimi fəaliyyət göstərən insanlar təhsil almışlar. Cabbar bəy Vəlibəyovun şagirdlərindən biri də mərhum şərqşünas alim Sulduz Rüstəmov olmuşdur. Sulduz müəllim hər zaman öz müəlliminin adını ehtiramla yad etmişdir.

Azərbaycan müstəqilliyini itirib Sovet imperiyasına birləşdirildikdən sonra kollektivləşmə adı altında Cabbar bəyin torpaqları, mal-qarası müsadirə olunmuşdur. Müəllimlik peşəsinə üstünlük verən Cabbar bəy pedaqoji fəaliyyətini Ağdamın Baharlı, Qiyaslı,Güllücə və başqa kəndlərində davam etdirmişdir.

1937-ci il repressiyası Cabbar bəydən də yan keçmədi. 11 oktyabr 1937 –ci ildə evində axtarış aparılaraq zəngin kitabxanası müsadirə olunur, özü isə xalq düşməni kimi həbsə alınaraq Sibirə sürgün edilir. Sibirin soyuq iqlim şəraitinə dözməyən Cabbar bəy 19 noyabr 1941-ci ildə vətən həsrətilə dünyasını dəyişir. İllər ötdükcə tarixin bir çox həqiqətləri üzə çıxdı, təzyiqlərə və məhrumiyyətlərə məruz qalmış insanlar bəraət qazandılar. Cabbar bəy Vəlibəyov (Baharlı) da onlardan biri oldu. O, 29 noyabr 1957-ci ildə bəraət almışdır. Cabbar bəy dünyasını çox tez dəyişsə də unudulmamış, xatirəsi bu gün də əziz tutulur. 1993-cü ildə Cabbar bəy Vəlibəyovun (Baharlı) 100 illiyi ilə əlaqədar həyat və pedaqoji fəaliyyətini əks etdirən məqalələr çap olunmuş, radioda veriliş səslənmişdir. 1913-cü ildə əsasını qoyduğu Ağdamın I Baharlı kənd məktəbinə Cabbar bəy Vəlibəyovun (Baharlı) adı verilmişdir.

Atam - milli fəlsəfi irsimizin əvəzedilməz tədqiqatçısı, AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədov (Baharlı) Cabbar bəyin oğludur. Zakir Məmmədov (Baharlı) siyasi təqib şəraitində böyüdüyü üçün uşaq ikən anasının soyadına keçirilmişdir.

2013-cü ildə Cabbar bəy İsmayıl bəy oğlu Vəlibəyovun (Baharlı) 120, yaratdığı I Baharlı kənd məktəbinin isə 100 yaşı tamam olacaqdır.



Scanned with ACE Scanner

# NİYƏ "SARI GƏLİN" DEYİRİK?

Azərbaycan xalq mahnıları arasında "Sarı gəlin" xüsusi yer tutur. Çünki bu mahnıda insan əhval-ruhiyyəsinə doğma bir ovqat: nisgil, gərgin və gərgin olduğu qədər də həzin psixoloji məqamlar var ki, hər dəfə oxunduqca o ovqatı yaşayır, bu yaşantıdan zərifləşir, incələşirik...

Ancaq niyə sarı gəlin? Niyə "Səni mənə verməzlər"? Gəlini də kiməsə verərlərmi ki?.. Bu suallara ilk dəfə aydınlıq gətirmək istəyirəm.

Bəri başdan deyim ki, "sarı gəlin" anlayışı düzdür. Onun məntiqi mənası var.

Tarixən hər yaş dövrünün öz geyimləri olub. Yeniyetmə qızlar əlvan geyinər, yaşıl, mavi rəngə üstünlük verərdilər. Toy vaxtı əsasən ağ rəngli geyimdə olardılar. Toydan sonrakı çağlarda qırmızı rəngli paltarda gəzər, ailə həyatında bədbəxtlik, ölüm-itim baş verərdisə, qaraya bürünərdilər. Boşanmış gəlinin qisməti isə sarı rəng olardı. Sarı rəngli paltar geyinmək boşanmağa, azad olmağa işarə idi. "Sarı gəlin" anlayışı buradan irəli gəlmişdir.

Bəs niyə mahnıda deyilir ki, "Səni mənə verməzlər, Nənən olsün, Sarı gəlin!"? Bu, əslində, əzizləmə, oxşamadır; boşanmış gəlinin namuslu olduğuna şübhə etməmək, onu zirvələrə qaldırmaq, sevmək işarəsidir. Bu da yalnız Azərbaycan gənclərinə məxsus xüsusiyyətdir.

***Məhəmməd BAHARLI.***

**_OXUCULARIN NƏZƏRİNƏ_**

*Jurnalımıza 2012-ci il üçün abunə yazılışı davam edir.*

*Bakı şəhəri üzrə abunə yazılmaq istəyənlər aşağıdakı mətbuat yayımı firmalarına müraciət edə bilərlər:*

*1. "Qasid". Ünvan: Cavadxan, 21; telefon: 4-93-16-43; 4-30-02-24*
*2. "Səma". Ünvan: H.Cavid, 9, mənzil 63; telefon: 4-94-09-59; 4-94-02-52*
*3. "Kaspi". Ünvan: Mətbuat pr., 25, telefon: 5-10-61-96*
*4. "Qaya". Ünvan: Akademik H.Əliyev küç. 82 "q"; telefon: 5-64-63-45; 4-65-67-13*

*Rayonlarda isə abunəni Azərbaycan Mətbuat Yayımı İstehsalat Birliyinin yerli yayım şöbələri aparır.*





# ƏDƏBİ ALƏMDƏ

Naxçıvan Dövlət Universitetində "Mirzə Ələkbər Sabir və Azərbaycan realizmi" mövzusunda elmi konfrans keçirilmişdir.

***

Moskvadakı Millətlər Evinin böyük zalında məşhur yazıçı, ədəbiyyatşünas alim, Rusiya Yazıçılar Birliyinin üzvü, professor Çingiz Hüseynovun "Fətəli fəthi" romanının yeni nəşrinin təqdimat mərasimi keçirilmişdir.

***

Sosialist Əməyi Qəhrəmanı Rəsul Rzanın doğum günündə Azərbaycan Yazıçılar Birliyinin üzvləri, tanınmış qələm adamları Fəxri xiyabanda şairin xatirəsini yad etmiş, həyat və yaradıcılığından söhbət açmışlar.

***

Türkiyənin İstanbul şəhərində Tehran və İstanbul Universitetlərinin təşkilatçılığı ilə "I Türk-İran dil və ədəbiyyat əlaqələri" mövzusunda beynəlxalq simpozium keçirilmişdir. Simpoziumda AMEA Naxçıvan bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev də iştirak etmişdir. Dünyanın müxtəlif ölkələrindən gəlmiş 75 elm adamının qatıldığı tədbirdə əsasən orta əsrlərdə Anadolu və İran məkanında dil və ədəbiyyat məsələlərinin aktual problemləri müzakirə olunmuşdur. Beynəlxalq simpoziumda bölmə iclasına sədrlik etmiş həmyerlimiz, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "Mövlana Cəlaləddin Ruminin "Məsnəvi"sinin Azərbaycanda öyrənilməsi və nəşri məsələləri" mövzusunda məruzəsi dinlənilmişdir. Məruzədə müstəqillik dövründə Azərbaycanda dünya ədəbiyyatından tərcümə işinə geniş yer verilməsindən, o cümlədən Mövlana irsinin öyrənilməsi və nəşrindən ətraflı bəhs edilmişdir.

***

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında görkəmli şair-tərcüməçi, tanınmış ictimai xadim, Azərbaycan dövlət himninin sözlərinin müəllifi Əhməd Cavadın 120 illik yubileyinə həsr edilən tədbir keçirilmişdir.

***

Bakıda, A.S.Puşkinin abidəsinin ucaldıldığı bağda şairin doğum günü qeyd edilmişdir. "Nord" uşaq bağçasının yetirmələri, Bakı məktəblərinin və gimnaziyalarının şagirdləri Puşkinin əsərləri əsasında səhnəciklər nümayiş etdirmiş, şairin şeirlərini rus və Azərbaycan dillərində oxumuşlar.

***



Scanned with ACE Scanner

# XARİCİ ÖLKƏLƏRDƏ

Alimlər yeni göz dərmanı icad ediblər. Bu dərman yaşın artması ilə əlaqədar görmədə baş verən zəifləmənin qarşısını alacaq. Dərman göz alması damarlarının partlamasının qarşısını alan ilk preparatdır. Onu hazırlayan şirkətin mütəxəssislərinin sözlərinə görə, 30 yaşından yuxarı hər 200 şəxsdən biri bu xəstəlikdən əziyyət çəkir. Ümumilikdə bu xəstəlik 200 min insanı əhatə edir. Kapsulunun uzunluğu cəmi 6 millimetr olan "Ozurdeks" preparatı göz almasındakı venaların tutulması və gözün arxasındakı retinaya qan dövranının zəifləməsinin qarşısını alır. Beləliklə, görmə qabiliyyəti tədricən bərpa olunur.

***

Yaponiyalı mütəxəssislər soğanın daha bir xeyrini üzə çıxarıblar. Rusiya mətbuatının verdiyi məlumata görə, alimlər soğanın tərkibindəki maddələrin qanla beyinə getdiyini, onun hüceyrələrini cavanlaşdırdığını və işini stimullaşdırdığını müəyyən ediblər. Nəticədə insanın yaddaşı güclənir, beyində müsbət emosiyalar artır.

***

Tərkibində fosfor olan əlavələr vurulmuş yarımfabrikatlar, hisə verilmiş ət və "fast-food"lar böyrək xəstəliyinə səbəb olur. ABŞ-ın Mayami Universitetinin alimlərinin sözlərinə görə, problemlər qida məhsullarında fosforun səviyyəsinin çox olması üzündən yaranır. İstehsalçılar yarımfabrikatların saxlanma müddətini uzatmaq üçün bəzən onlara normadan artıq fosfor qatırlar. Alimlərin sözlərinə görə, qida rasionunda fosforla bol yeməklər çox olanda böyrək onu ifraz edə bilmir və fəaliyyətində problem yaranır. Mütəxəssislər qidanın üzərində tərkibindəki fosforun miqdarının nadir hallarda göstərildiyini qeyd edirlər. Ən yaxşı variant emal olunmuş məhsullardan və "fast-food"dan imtina etməkdir. Fosfor südün, pendirin, lobyanın və qoz-fındığın tərkibində daha çoxdur. O, sümüklərin və dişlərin formalaşmasında, habelə hüceyrə membranlarının fəaliyyətində mühüm rol oynayır. Artıq fosfor böyrəklər vasitəsilə ifraz olunur.

***

Alimlərin qənaətinə görə, evdə it saxlamaq hipertoniyalı xəstələrin vəziyyətinə müsbət təsir edir. Tədqiqat qrupunun rəhbəri Cey Silial (Nyu-York, ABŞ) bildirib ki, yüksək qan təzyiqini normallaşdırmaq üçün hipertoniklərin itin yanında bir neçə saat vaxt keçirmələri kifayətdir. Tibb işçiləri yüksək qan təzyiqindən əziyyət çəkən könüllülər üzərində təcrübə aparıblar. Təzyiqi salmaq üçün xəstəyə itlə ünsiyyət, yəni iti gəzdirmək, onunla oynamaq, ya da sadəcə başını tumarlamaq lazımdır. Bu, təkcə qan təzyiqini normallaşdırmır, eyni zamanda, bir neçə gün ərzində xəstənin vəziyyətini sabitləşdirir.

***



# YENİ NƏŞRLƏR

Bu yaxınlarda "Nurlan" nəşriyyatı nasir, publisist və şair Məhəmməd Baharlının seçilmiş əsərlərinin 4 cildliyini çapdan buraxmışdır. 1-ci cilddə "Publisistika – axtarışlardan sensasiyalaradək", 2-ci cilddə "Poeziya – qoca türkün şərqiləri", 3-cü cilddə "Proza – povest, hekayə və yumorlar", 4-cü cilddə "Pedaqogika – məktəbdə pedaqoji işə rəhbərlik" adlı əsərlər yer almışdır. Bunlar müəllifin minlərlə yazısından seçilmişlər.

***

Bəkir Nəbiyevin "Şamaxı torpağının yetirdiyi Azərbaycan şairləri" adlı kitabı "Ozan" nəşriyyatı tərəfindən bu il işıq üzü görüb. Kitab dünyasını yenicə dəyişmiş görkəmli ədəbiyyatşünas, akademik Bəkir Nəbiyevin sonuncu əsəridir. Orada qədim və zəngin Şirvan ədəbi mühitinin yetirdiyi böyük Azərbaycan şairləri – Əfzələddin Xaqani Şirvani, Seyid Əli İmadəddin Nəsimi Şirvani, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir Tahirzadə Şirvani, Abbas Səhhət Mehdizadə Şirvani və Məhəmməd Hadi Əbdüssəlimzadə Şirvaniyə həsr edilən elmi-kütləvi oçerkləri oxuya bilərsiniz.

***

"Azərbaycan mətbuat tarixi antologiyası" kitabının II cildi (I cild 2010-cu ildə işıq üzü görüb) yenicə çapdan çıxıb. Antologiyada Azərbaycan mətbuatı və jurnalistikasının inkişaf tarixini və onun elmi-nəzəri prinsiplərini əks etdirən materiallar toplanıb. Azərbaycanın ictimai-mədəni həyatı, sosial-siyasi təkamülü, demokratikləşmə, söz azadlığı, vətəndaş cəmiyyəti və müstəqil dövlət quruculuğu uğrunda mübarizəsində əsaslı rol oynayan "dördüncü hakimiyyət"in təşəkkül və inkişafı işıqlandırılır.

***

Xacə Nəsirəddin Tusinin "Təcrid əl-məntiq" ("Araz nəşriyyatı", 2012) işıq üzü görmüşdür. Kitab XIII əsrdə yaşamış böyük alim, filosof, ensiklopedik zəka sahibi Xacə Nəsirəddin Tusinin (1201-1274) ənənəvi məntiqə həsr edilmiş "Təcrid əl-məntiq" əsərinin tərcüməsi və onlara şərhlərdən ibarətdir. Əsər ənənəvi məntiqin bütün məsələlərini yığcam şəkildə əhatə edir.

***

Əmirxan Xəlilovun "Dünya ədəbiyyatı (I hissə)" (Bakı, "Araz" nəşriyyatı, 2011) kitabı ali məktəb fakültələri üçün nəzərdə tutulmuşdur. Burada Homerdən başlayaraq XVIII əsrə qədər dünya ədəbiyyatının ən böyük nümayəndələri, mühüm ədəbi-tarixi hadisələr öz əksini tapmışdır.

***

"Dünya ədəbiyyatı" seriyasından məktəblilər üçün Mark Tvenin "Tom Soyerin macəraları" əsəri, "Mənim ilk kitabım" seriyasından isə azyaşlılar üçün "Çəpiş" və "Ad günü" kitabları işıq üzü görüb.

Kitabları Altun kitab" nəşrlər evində çap olunub.

***



Scanned with ACE Scanner

# POEZİYA

## QƏHRƏMANLAR ÖLMÜRLƏR!

### MÜBARİZ

**Azərbaycanın Milli Qəhrəmanı
Mübariz İbrahimovun xatirəsinə**

Səni vəsf eyləyir daşım, torpağım,
Şəbnəm kirpiyində ağlar yarpağım.
Cəngim, muğamatım, bayatım, ağım –
Milli Qəhrəmanım, fəxrim Mübariz!

Əbədi aləmdə hər şey bəmbəyaz,
Qoy "Yanıq Kərəmi" çalsın telli saz.
Mərdi öz yolundan saxlamaq olmaz,
Milli Qəhrəmanım, fəxrim Mübariz!

Qəzəbin gizlənib həyəcanımda,
Kim deyir sən yoxsan ömrüm, anımda?
Müdhiş fırtınasan damar, qanımda,
Milli Qəhrəmanım, fəxrim Mübariz!

Ömür hər fəsillə, ayla, illədir,
Elin məhəbbəti ürək, dillədir.
Şimşək silahından çıxan güllədir,
Milli Qəhrəmanım, fəxrim Mübariz!

Bizə gərək deyil təsəlli, səbr,
Axirət elinə qapıdır qəbir.
Adın bu millətin ürəyindədir,
Milli Qəhrəmanım, fəxrim Mübariz!

### DƏFN

***Azərbaycanın Milli Qəhrəmanı
Mirəsgər Seyidovun xatirəsinə.***

Küləklər kökləmib ölüm səsinə,
Çəmənlər fikirli, dağlar dumanlı.
Çaylar ara verib zənguləsinə,
Bülbüllər yaralı, çiçəklər qanlı.

Qəhər bir anlığa alıb fikrimi,
Səksənək məzarlıq izdihamlıdır.
Açılan güllələr ildırım kimi,
Uyuyan ümmanda bircə damladır.

Ata yaralanmış qoca bir aslan,
Qardaş qəzəblənmiş pələng kimidir.
Xəyala dönübdür ömrü gül olan,
Bax, rüzgar üstünə sığallar çəkir.

Analar, bacılar cırır üz-gözün,
Bir şəhid qovuşur əbədiyyətə.
Boğazı quruyub, mat qalıb sözü,
Kəlməsi əsirdir hissə, nifrətə...

### ŞƏHİDLƏR XİYABANI

Bürünüb öz örpəyinə bütün aləm,
Əsən külək hey fatihə pıçıldayır.
Fəth eyləyib könülləri kədər və qəm,
Lal sükutlu xatirədir çəmən, bayır.

Gözlərimdə bir xiyaban məzarlıq var,
Dəstə-dəstə qan qoxulu qərənfili.
Duyğularım qızdırmalı sayıqlayır,
Qalaqlanmış neçə ayı, neçə ili.

Qan çilənib siyasətin səhnəsinə,
Oynanılıb bu tamaşa dönə-dönə.
Tamaşanı lentə alıb necə çəkim?

Məzarlıqdan baş götürüb gedir səbr,
Başdaşları ayaq üstə sual edir:
Müqəssir kim? Müqəssir kim? Müqəssir kim?

**Vəli QARAXAN,
Naxçıvan şəhəri, müəllim, Azərbaycan
Yazıçılar Birliyinin üzvü.**





# ELM HALALLIQ SEVİR

Çox hörmətli Məhəmməd Baharlı!

Baş redaktoru olduğunuz "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalının 2010-cu il 4-cü nömrəsində Aynur Qafarlı adlı müəllifin (ADPU-nun müəllimi) "Sintaksisin tədrisində çevirmə konstruksiyalarından istifadə" sərlövhəli məqaləsi dərc edilmişdir (səh. 42-46).

Bildirirəm ki, həmin məqalə mənim "Sintaksisin tədrisində linqvistik eksperiment priyomunun çevirmə növündən istifadə" başlıqlı məqaləmin eynilə köçürülmüş bir hissəsidir. Mənim məqaləm 1998-ci ildə "Orta ümumtəhsil məktəblərində Azərbaycan dili və ədəbiyyatın tədrisi problemləri" adlı məqalələr məcmuəsində dərc olunmuşdur. Bu məqalə namizədlik dissertasiyamın paraqraflarından biri əsasında hazırlanmışdır. (Yeri gəlmişkən onu da qeyd edim ki, namizədlik dissertasiyası 1992-ci ildə müdafiə olunmuşdur, yəni bu məqalə 1998-ci ildə yox, 1992-ci ildən qabaq yazılmışdır). Onu da qeyd etməyi lazım bilirəm ki, həmin problemi Azərbaycanda ətraflı şəkildə mən işləmişəm və namizədlik dissertasiyam bu problemin tədqiqinə həsr olunub. Maraqlı burasıdır ki, "müəllif" "məqaləsinin" heç bir yerində mənim məqaləmə, yaxud da dissertasiyanın əlyazmasına istinad olunduğu barədə qeyd verməmişdir. Əslində bu, yerinə də düşməzdi, əgər məqalədən hər hansı bir şəkildə istifadə olunsaydı və ya onun müəyyən hissələri köçürülsə idi, bəlkə də mümkün olardı.

Məsələ burasındadır ki, məqalə tamamilə köçürüldüyü üçün mənbəni göstərmək və ya sitat vermək "müəllifin" işinə yaraya bilməzdi. Ona görə də bu xanım kitabdakı on səkkiz səhifəlik məqalədən "xoşuna gələn" hissələri ardıcıllıqla düzmüş və özünə "məqalə düzəltmişdir".

Mən düşünürəm ki, bu, mənəviyyatsızlıqdır və mənəviyyatı qoruyub saxlamaq daha vacibdir, nəinki imzası hansısa bir jurnal və ya qəzet səhifəsində görünmək. Düşünürəm ki, uzun illər ərzində Azərbaycan müəlliminə şərəflə xidmət etmiş jurnalın səhifələrində belə "müəlliflərin" adının görünməsi jurnalın adına təhqirdir.

Hörmətlə:
**H.Q.Abdullayeva, pedaqoji elmlər üzrə fəlsəfə doktoru,
Azərbaycan Müəllimlər İnstitutunun dosenti.**

**Redaksiyadan:** Replika müəllifi öz iradlarında tamamilə haqlıdır. Elm yolu vicdan yolu, ziyalı yoludur. Bu yolu plagiatorluqla keçib titullar qazanmaq olar, lakin o, haramdır. Bu yolda olanları, o cümlədən Aynur Qafarlını haqq yoluna çağırırıq.



Scanned with ACE Scanner

**BAŞ REDAKTOR:**
Məhəmməd BAHARLI

**MƏSUL KATİB:**
Vaqif ALKƏRƏMOV

**ŞÖBƏ REDAKTORLARI:**
Oqtay ABBASOV
Soltan HÜSEYNOĞLU

**REDAKSİYA HEYƏTİ:**
ANAR
Ağamusa AXUNDOV
Ənvər ABBASOV
Nizami CƏFƏROV
Nurlana ƏLİYEVA
Qənirə ƏMİRCANOVA
Tofiq HACIYEV
İsa HƏBİBBƏYLİ
Nizami XUDİYEV
Qəzənfər KAZIMOV
Əsgər QULİYEV
Şəmistan MİKAYILOV
Yusif SEYİDOV

**Ünvan: Bakı-10, Dilarə Əliyeva küçəsi, 227, 6-cı mərtəbə, otaq 608.**
**Telefonlar: 498-55-33; 493-06-09. Faks: 498-55-33.**
**E-mail: mehemmed-baharli@mail.ru**
**Kağız formatı 60x84 1/8. Uçot nəşr vərəqi 5.**
**Şərti çap vərəqi 6,3. Tiraj 800.**
**Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Qeydiyyat nömrəsi 191.**
**Lisenziya V 236.**
**Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"na daxildir.**
**Jurnal ildə 4 dəfə çıxır. O, redaksiyanın kompüterində yığılır, «Avropa» nəşriyyatında çapa hazırlanır və işıq üzü görür.**
**Çapa imzalanıb: 27.06.2012.**
**Jurnala abunə mətbuat yayımı şöbələrində aparılır.**
**Bir nüsxənin abunə və satış qiyməti 2 manatdır.**

Scanned with ACE Scanner

INDEKS 1012



Scanned with ACE Scanner